# KİTABXANAŞÜNASLIQ
# VƏ
# BİBLİOQRAFİYA

№2 * 2006

XÜSUSİ BURAXILIŞ

75

BAKI –2006

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ**

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№2 (19) * 2006**
**Xüsusi buraxılış**

***Professor Abuzər Xələfovun 75 illik yubileyinə həsr edilir***

*1997-Cİ İLİN OKTYABRINDAN ÇIXIR*

**BAKI –2006**

*KBT- 78*
*K 73*

**Təsisçi və baş redaktor:**
**professor Xəlil İSMAYILOV**

**Elmi redaktor:**
**dosent Knyaz ASLAN**

**Buraxılışa məsul:**
**Solmaz SADIQOVA**

**REDAKSİYA HEYƏTİ:**

**Professor Abuzər XƏLƏFOV**
**Professor Zöhrab ƏLİYEV**
**Professor Bayram ALLAHVERDİYEV**
**Dosent Rasim KAZIMOV**
**Dosent Əşrəf XƏLƏFOV**
**Dosent Nadir İSMAYILOV**

**K 73** *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal (xüsusi buraxılış).-B.: Bakı Universiteti Nəşriyyatı, 2006.-№2.-142 s.*

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Телефонлар: 439-05-47; 439-03-66*

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2006**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ**

# БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

**Научно-теоретический,**
**методический и практический журнал**

**№2 (19) * 2006**
**СПЕЦИАЛЬНЫЙ ВЫПУСК**

***Посвещается к 75-летнему юбилею профессора Абузара ХАЛАФОВА***

*Выходит*
**с 1997 года**

**БАКУ-2006**

*ББК-78*
*К 73*

**Учредитель и главный редактор:**
**профессор Халил ИСМАИЛОВ**

**Научный редактор:**
**доцент Князь АСЛАН**

**Ответственный за выпуск:**
**Солмаз САДЫГОВА**

**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:**

**Профессор Абузар Халафов**
**Профессор Зохраб Алиев**
**Профессор Байрам Аллахвердиев**
**Доцент Ашраф Халафов**
**Доцент Расим Кязимов**
**Доцент Надир Исмаилов**

**К 73** *Библиотековедение и Библиография: Научно-теоретический, методический и практический журнал (специальный выпуск).- Б., Изд-во Бакинского Университета, 2006.-№2.- 142 с.*

*Адрес редакции:*

*Аз –1073/1 г. Баку, ул. Захида Халилова, 23,*
*учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет,*
*редакция журнала «Библиотековедение и библиография».*
*Тел.: 439-05-47; 439-03-66*

**© «Библиотековедение и библиография», 2006**

## BAŞ REDAKTORDAN

Əziz oxucular!

Azərbaycanda milli kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından və yaradıcılarından biri, beynəlxalq nüfuzlu kitabxanaşünas alim Abuzər Alı oğlu Xələfovun anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 55 illiyi tamam olur. Professor A.Xələfov BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktorudur. O, 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

Görkəmli kitabxanaşünas alimin yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi və Bakı Dövlət Universiteti əmr vermiş və tədbirlər planı hazırlamışdır. Hazırda həmin planda nəzərdə tutulan tədbirlər həyata keçirilməkdədir.

Xüsusi buraxılış Bakı Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor, Abel Məhərrəmovun əmri əsasında çap olunmuşdur.

Fədakar alim, qeyrətli vətəndaş, cəfakeş ziyalı, mahir pedaqoq kimi yaxşı tanınan Abuzər müəllim haqqında bu xüsusi buraxılışda onun dostlarının və tələbələrinin ürək sözləri toplanmışdır. İnanıram ki, jurnalımızın bu nömrəsi oxucularımız tərəfindən maraqla qarşılanacaq.

**Xəlil İSMAYILOV**
*Bakı Dövlət Universiteti*
*Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı,*
*tarix elmləri doktoru, professor*

**Knyaz ASLAN**
*Bakı Dövlət Universiteti*
*Kitabxanaşünaslıq kafedrası müdirinin müavini,*
*pedaqoji elmlər namizədi, dosent*

## GÖRKƏMLİ KİTABXANAŞÜNAS ALİMİN ŞƏRƏFLİ ÖMÜR YOLU

***Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, «Şöhrət» ordenli, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun 75 yaşı tamam olur.***

***Azərbaycanda milli kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından və müstəqil Kitabxanaçılıq fakültəsinin yaradıcılarından biri, görkəmli elm, təhsil və mədəniyyət xadimi kimi respublikamızda və ölkəmizin sərhədlərindən uzaqlarda çox yaxşı tanınan professor A.Xələfovun mənalı ömür yolu nəsillərə nümunədir.***

***Mədəniyyət, kitabxana işi, kitabxanaşünaslıq, təhsil və informatika sahələrinin tarixinə və nəzəriyyəsinə dair çoxsaylı monoqrafiya, dərslik, dərs vəsaiti, elmi məqalə, tədris-metodik materialı və s. əsərlərin müəllifi olan görkəmli alimin zəngin və ibrətamiz həyat Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin fəaliyyəti ilə sıx bağlıdır.***



***Suveren respublikamızın ictimai-mədəni həyatında fəal iştirak edən tanınmış vətənpərvər ziyalı və beynəlxalq aləmdə ölkəmizin şərəfini həmişə uca tutmağı bacaran kitabxanaşünas alim kimi onun nüfuzu həqiqətən böyükdür.***

Abuzər Alı oğlu Xələfov 25 dekabr 1931-ci ildə Qərbi Azərbaycanın qədim Göyçə mahalının Cil kəndində Xələflilər ocağında dünyaya göz açıb.

Onun mənsub olduğu nəsil həm Göyçədə, həm də ətraf bölgələrdə çox yaxşı tanınıb, böyük hörmətə, ehtirama malik olub.

Abuzər Xələfov 1938-ci ildə doğma Cil kəndindəki yeddillik məktəbin birinci sinfinə daxil olub.

Uşaqlığı Böyük Vətən müharibəsinin əzab-əziyyətli illərinə düşüb. Ona görə də təhsil almaqla yanaşı, həm də Əli Bayramov adına kolxozda işləmək məcburiyyətində qalıb. Yeniyetmə yaşlarından çətin həyat sınaqları ilə qarşılaşmalı olub. Ailənin gün-güzəranına imkanı çatdıqca maddi və mənəvi yardım göstərməyə, özünü fiziki əməyə alışdırmağa çalışıb.

Abuzər Xələfov Cil kəndindəki yeddillik məktəbi bitirdikdən sonra səkkizinci sinifdən Toxluca kənd orta məktəbində oxumağa başlayıb.

1950-ci ildə orta təhsilini uğurla başa vuran Abuzər Xələfov çoxdan bəri ürəyində dolaşdırdığı arzusuna qovuşmaq - yüksək ixtisaslı mütəxəssis kimi yetişmək məqsədi ilə Bakıya gəlib. O, elə həmin il qəbul imtahanlarından müvəffəq qiymətlər alaraq Bakı Dövlət Universiteti (o vaxtlar Azərbaycan Dövlət Universiteti adlanırdı) Filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsinə daxil olub. Qaynar şəhər mühiti, ali məktəb həyatı onun taleyində həqiqətən uğurlu bir dönüş yaradıb.

A.Xələfov tələbəlik illərinin ilk çağlarından nümunəvi davranışı, əla oxuması və ictimai fəallığı ilə diqqəti cəlb

edib, həm tələbə yoldaşlarının, həm də müəllimlərinin hörmətini qazanmağa nail olub.

Elə bu dövrdən başlayaraq elmi tədqiqat işinə ciddi maraq göstərib. Tələbə elmi cəmiyyətinin toplantılarında dəfələrlə kitabxanaşünaslığın nəzəri və təcrübi məsələlərinə dair sanballı məruzələrlə çıxış edib, kitabxana işinin tarixi sahəsindəki axtarışları ilə xüsusi rəğbət qazanıb. Məhz bu müsbət keyfiyyətlərinə görə fakültə və universitet rəhbərliyinin diqqətini özünə cəlb edə bilib.

A.Xələfov ikinci kursda oxuyarkən, yəni 1952-ci ildə Kitabxanaçılıq şöbəsinin ilk buraxılışı oldu və 16 nəfər yüksək ixtisaslı gənc mütəxəssis respublikamızın müxtəlif kitabxanalarına işə göndərildi.

Artıq bu illərdə Kitabxanaşünaslıq şöbəsində yeni tədris planının tətbiqi ilə əlaqədar dərslərin miqdarı çoxalmış, universitet təhsilli gənc mütəxəssislərə böyük ehtiyac yaranmışdı. Odur ki, 1955-ci ilin yanvarında Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası Abuzər Xələfovun təhsil sahəsindəki yüksək göstəricilərini və ictimai fəaliyyətini nəzərə alaraq müəllim saxlanılması haqqında qərar qəbul etdi və rektorluqdan bu qərarın təsdiqini xahiş etdi. Həmin dövrdə universitetin rektoru vəzifəsində işləyən akademik Yusif Məmmədəliyev kafedranın bu xahişinə müsbət cavab verdi.

Beləliklə, ali təhsilini başa vuran kimi universitetin Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim vəzifəsində saxlanılan Abuzər Xələfov 1955-ci ilin iyun ayından Kitabxanaçılıq qiyabi şöbəsində, sentyabr ayından isə əyani şöbədə mühazirələr oxumağa başladı.

Artıq milli elmi kadrların yeni nəslinin yetişməsi və formalaşması ilə bağlı XX əsrin 50-ci illərində Azərbaycanda elmin, mədəniyyətin, incəsənətin bütün sahələrində sürətli inkişaf başlanmışdı. Əgər əvvəllər Azərbaycan elmini yaxın və uzaq xaricdə əsasən rus alimləri təmsil edirdisə, 50-ci illərdən bu tendensiya milli kadrların hesabına dəyişməyə başlamışdı. Azərbaycan elmini dünya miqyasına çıxaran,



onu layiqincə tədqiq və təbliğ edən çox nüfuzlu alimlər yetişirdi. Həmin dövrün yetirmələrindən biri də haqlı olaraq adı ilə fəxr etdiyimiz, şöhrəti ilə öyündüyümüz görkəmli alimimiz professor Abuzər Xələfovdur.

1955-ci ildən səmərəli elmi və pedaqoji fəaliyyətlə məşğul olan Abuzər Xələfov 1961-ci ildə ilk dəfə olaraq Azərbaycanda kitabxana işinin tarixinə dair namizədlik dissertasiyası müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Abuzər Xələfovun Azərbaycan xalqı qarşısında ən dəyərli tarixi xidmətlərindən biri respublika ali məktəblərinin öncülü və bayraqdarı olan Bakı Dövlət Universitetində müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması ilə bağlıdır.

Ona görə də bu tarixi hadisəyə bir qədər geniş aydınlıq gətirməyi məqsədəuyğun hesab edirik.

1947-ci ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi «Respublika mədəni-maarif müəssisələri üçün kadr hazırlamaq haqqında» xüsusi qərar qəbul etdi. Bu dövlət sənədində 1947-48-ci tədris ilində Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlayan Kitabxanaçılıq şöbəsinin təşkil edilməsi və onun gələcəkdə ayrıca fakültəyə çevrilməsi qərara alınmışdı.

Beləliklə, 1947-48-ci tədris ilində universitetin Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsi fəaliyyətə başladı və birinci il şöbəyə 16 qəbul edildi.

Bu şöbənin təşkili respublikamızın mədəni həyatında mühüm əhəmiyyətə malik idi. Belə ki, şöbənin açılması mədəniyyətin mühüm tərkib hissəsi olan kitabxanaların yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin edilməsi üçün əsaslı zəmin yaradır, kitabxana işinin inkişafına təkan verirdi. Şöbənin məhz universitetdə açılması isə tədris prosesinin uğurlu təşkilinə səbəb olmaqla yanaşı, kitabxanaçılıq ixtisasının, kitabxanaçılıq sənətinin perspektiv inkişafına da şərait ya-

radırdı. Belə ki, yalnız hərtərəfli elmi-pedaqoji kadrlara malik olan universitet mühitində kitabxanaşünaslıq-biblioqrafiya ixtisasının xüsusiyyətlərinə uyğun olaraq müxtəlif fənlərin tədrisini təşkil etmək imkanı var idi.

Belə bir fakt da əlamətdardır ki, SSRİ-də ilk universitet kitabxanaçılıq təhsili məhz Azərbaycan Dövlət Universitetində təşkil edilmişdir. Təcrübə göstərir ki, kitabxanaçı kadrların mədəniyyət institutlarında və pedaqoji institutlarda deyil, universitetdə hazırlanmasının olduqca böyük üstünlükləri vardır. Beşillik tədris planı ilə işləyən universitetlərdə kadr hazırlığının keyfiyyətini yüksəltmək, əsaslı və ictimai elmlərə dərindən yiyələnmiş geniş profilli kadrlar hazırlamaq üçün şərait olduqca əlverişlidir.

1947-1948-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsinin yaranmasında Azərbaycanın tanınmış elm və mədəniyyət xadimlərinin, o sırada 1944-1950-ci illərdə bu ali təhsil ocağının rektoru olan görkəmli alim, Azərbaycan Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi, professor Abdulla Qarayevin, respublika Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri vəzifəsində işləyən görkəmli yazıçımız Süleyman Rəhimovun mühüm rolu olmuşdur.

Xüsusi vurğulamalıyıq ki, məhz Süleyman Rəhimovun mədəni-maarif müəssisələrinə başçılıq etdiyi dövrdə – 1945-1953-cü illərdə respublikamızda kitabxana işinin hərtərəfli inkişafı, xüsusilə kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana şəbəkəsinin artması, kitab fondlarının çoxalması, əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi sahəsində ciddi müvəffəqiyyətlər əldə edilmişdi.

Respublikamızda ali təhsilli kitabxanaçı kadrlara olan böyük tələbat nəzərə alınaraq 1955-ci ildə Kitabxanaçılıq şöbəsinin qiyabi Azərbaycan bölməsi təşkil olundu və birinci il həmin bölməyə 12 tələbə qəbul edildi. Beləliklə, zəng-



in iş təcrübəsinə malik olan kitabxanaçılar istehsalatdan ayrılmadan ali ixtisas təhsili almaq imkanı qazandılar.

1959-cu ildə isə qiyabi Kitabxanaçılıq şöbəsinin rus bölməsi yaradıldı və ilk dəfə buraya 16 tələbə qəbul edildi. Zaqafqaziyada yeganə olan bu bölmədə Gürcüstan, Ermənistan və Dağıstandan gələn gənclər də yüksək kitabxanaçı-biblioqraf ixtisasının sirlərinə yiyələnməyə başladılar.

Kitabxanaçılıq şöbəsi 1947-ci ildən 1958-ci ilədək Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərdi. Professor A.Xələfov əsərlərində yazır ki, müharibədən sonrakı illərdə bu fakültənin yanında Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, şərq dilləri və ədəbiyyatı, incəsənət, məntiq-psixologiya, jurnalistika və kitabxanaçılıq şöbələri vardı. Burada məşhur alimlərimizdən Əli Sultanlı, Cəfər Xəndan, Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Muxtar Hüseynzadə, Əlövsət Abdullayev, Hadi Mirzəzadə, Cəfər Cəfərov, Əliheydər Qəhrəmanov, Bəxtiyar Vahabzadə, Pənah Xəlilov, Mehdixan Vəkilov, Abbas Zamanov və başqaları dərs deyirdilər.

Abuzər müəllimin fikrincə, fakültə statusu daşısa da, əslində böyük institut səviyyəsində bir müəssisə olan Filologiya fakültəsi Kitabxanaçılıq şöbəsinin gələcək inkişafı, yüksək ixtisaslı kadrlar hazırlanması üçün mühüm baza rolunu oynayırdı.

1958-ci ildə BDU-da ayrıca Şərqşünaslıq fakültəsinin yaranması qərara alınmışdı. Lakin burada təhsil alan tələbələrin sayı az olduğundan rektorluq Kitabxanaçılıq şöbəsini də müvəqqəti olaraq bu fakültənin nəzdinə verməyi qərara almışdı. O vaxt Kitabxanaşünaslıq kafedrasının müəllimləri bu məsələyə narazılıqlarını bildirsələr də, onların etirazı nəzərə alınmadı və beləliklə, Kitabxanaçılıq şöbəsi 1958-ci ildən 1962-ci ilədək Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərdi.

Həqiqət naminə demək lazımdır ki, Filologiya fakültəsindən fərqli olaraq Şərqşünaslıq fakültəsinin profili Kitabxanaçılıq şöbəsinin profilinə uyğun gəlmədiyinə görə kitabxanaşünaslıq və biblioqrafiya elmi ilə bağlı olan məsələlər burada lazımi səviyyədə müzakirəyə çıxarıla və həll edilə bilmirdi. Bundan başqa yeni fakültədə əvvəlki ictimai mühit, yaradıcılıq atmosferi, qaynar elmi həyat yox idi.

Bu uyğunsuzluq gündən-günə hiss edildiyindən 1958-ci ildə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının baş müəllimi vəzifəsinə seçilən A.Xələfov və onun məsləkdaşları şöbədəki durğunluğu aradan aqldırmaq üçün yollar arayırdılar. Onlar müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması və ya şöbənin yenidən Filologiya fakültəsinin nəzdinə qaytarılması uğrunda mübarizəyə başlamışdılar.

Yenicə Filologiya fakültəsinin dekanı vəzifəsinə təyin edilmiş professor Əlövsət Abdullayev bu təşəbbüsü müdafiə edən xeyirxah insanlardan biri idi. O, Kitabxanaçılıq şöbəsinə tələbə qəbulunun artırılmas, ixtisasmlı kadrların hazırlanması məsələsinə böyük qayğı və diqqətlə yanaşırdı.

Məhz gənc baş müəllim A.Xələfovun mübarizliyi və professor Ə.Abdullayevin dəstəyi ilə universitetin rektorluğu 1962-ci ilin sentyabrında Kitabxanaçılıq şöbəsinin yenidən Filologiya fakültəsinin nəzdinə qaytarılması haqqında qərar qəbul etmişdi.

Lakin Azərbaycan SSR Nazirlər Sovetinin çoxdan gözlənilən bir qərarı BDU rektorluğunun qərarının yerinə yetirilməsinə imkan vermədi və bu əslində işin xeyrinə oldu.

Belə ki, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 22 sentyabr 1959-cu ildə qəbul etdiyi «Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərarında yüksək ixtisaslı kitabxanaçı kadrların, xüsusilə elmi, elmi-texniki, ali məktəb kitabxanaları üçün mütəxəssis kadrların hazırlanması zəruri hesab edilmişdi. Bu qərara uyğun olaraq yüksək ixtisaslı kitabxanaçı



kadrların hazırlanmasının qənaətbəxş olmamasını, universitetin Kitabxanaçılıq şöbəsinə tələbə qəbulunun azlığını nəzərə alan hökumət Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsinə mütəxəssis kitabxanaçı kadrların hazırlanmasının yaxşılaşdırılması haqqında tədbir görməyi məsləhət bilmişdi.

Təhsil Komitəsi Bakı Dövlət Universitetində kitabxanaçı kadrların hazırlanması vəziyyətini yoxlayıb müzakirə etmək üçün xüsusi komissiya yaratmışdı. Komissiya universitetin Şərqşünaslıq fakültəsi yanında Kitabxanaçılıq şöbəsinin işini yoxlamış, burada tələbə kontingentinin tərkibini, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının elmi potensialını araşdırmışdı. Yoxlama zamanı məlum olmuşdu ki, son illər kafedraya gənc qüvvələr cəlb olunmuş, respublikamızda ilk dəfə olaraq kitabxana işinin tarixinə dair disssertasiya müdafiə edilmiş, kitabxanaşünaslıq üzrə elmlər namizədi yetişmişdir. Kitabxanaçılıq şöbəsinin yetirməsi Abuzər Alı oğlu Xələfov 1962-ci ildə «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1933-cü illər)» mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdı.

Kitabxanaçılıq şöbəsinin bu göstəricilərini və elmi potensialını nəzərə alan komissiya əyani və qiyabi şöbələri birləşdirib müstəqil fakültə yaradılmasını məqsədəuyğun hesab etmişdi.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinın göstərişinə əsasən 1962-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsi həmin il sentyabrın 1-dən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi nəzdindəki Kitabxanaçılıq şöbəsinin əyani və qiyabi bölmələrinin birləşdirilməsi və müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması haqqında əmr verdi.

Həmin əmr əsasında isə Bakı Dövlət Universitetinin rektoru, Azərbaycan Elmlər Akademiyasının akademiki, professor Şəfaət Mehdiyev 1962-ci ilin sentyabrında öz əmrini imzaladı. Bu əmrə əsasən həmin il oktyabr ayının 1-dən universitetdə ayrıca Kitabxanaçılıq fakültəsi təşkil olundu.

Həmçinin rektorun əmri ilə Kitabxanaçılıq şöbəsinin yetişdirməsi, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının baş müəllimi, tarix elmləri namizədi Abuzər Alı oğlu Xələfov Kitabxanaçılıq fakültəsinin ilk dekanı vəzifəsinə təyin edildi.

Göründüyü kimi, Kitabxanaçılıq fakültəsinin yaradılmasında və inkişafında akademiklər Abdulla Qarayevin, Şəfaət Mehdiyevin, gənc müəllim Abuzər Xələfovun və başqalarının çox önəmli xidməti olmuşdur. Onlar kitab mədəniyyətinə və kitabxana işinə yüksək qiymət verir, kitabxanaçı kadrların hazırlanmasına respublikamızın mədəni tərəqqinin əsas amillərindən biri kimi baxır, kitabxanaşünaslıq və biblioqrafiyanın inkişaf etdirilməsinə, bu sahədə elmlər namizədləri və elmlər doktorlarının yetişdirilməsinə böyük qayğı göstərirdilər.

Kitabxanaçılıq fakültəsinin sonrakı illərdə əldə etdiyi nailiyyətlər, qəbul planının ilbəil artması, müəllim kadrlarının çoxalması, elmi elmi kadrlarının səviyyəsinin yüksəldilməsi məhz həmin qayğının təzahürü kimi qiymətləndirilməlidir.

Gənc dekan A.Xələfovun təşəbbüsü ilə 1963-cü ildə Kitabxanaçılıq fakültəsinin axşam şöbəsi yaradıldı. Axşam şöbəsinin təşkili Bakıda və Sumqayıtda yaşayıb işləyən kitabxanaçıların ali təhsil almaları üçün əlverişli şərait yaratdı.

A.Xələfovun səyi nəticəsində respublikamızın kitab ticarəti müəssisələrinin yüksək ixtisaslı mütəxəssis kitabşünas-biblioqraf kadrlara olan tələbatı nəzərə alınaraq 1963-cü ildə Kitabxanaçılıq fakültəsinin nəzdində yeni bir



şöbə – Kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsi təşkil edildi. Belə vacib bir şöbənin yaradılması mədəniyyətimizin mühüm sahələrindən olan kitabşünaslığın inkişafına mühüm töhfə idi. Azərbaycan Nazirlər Sovetinin qərarı ilə 1963-1964-cü tədris ilində kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisası üzrə axşam və qiyabi şöbələrinə, 1968-1969-cu tədris ilindən isə gündüz şöbəsinə tələbə qəbulu başlandı. Respublikamızın görkəmli kitabşünasları və kitab ticarəti mütəxəssislərinin bu vacib işə cəlb edilməsi nəticəsində Kitabxanaçılıq fakültəsinin təcrübəli kollektivi bu sahədə kadr hazırlığının təşkilində mühüm nailiyyətlər qazandı.

Təxminən 20 il uğurla fəaliyyət göstərən həmin şöbə, təəssüf ki, Azərittifaqda işləyən, fəqət kitab mədəniyyətindən xəbərsiz olan özündənrazı məmurların laqeydliyi ucbatından bağlandı.

1990-cı illərdə fakültənin dekanı, professor A.Xələfov yenidən yuxarı təşkilatlara müraciət edərək, kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisasına böyük tələbat olduğunu əsaslandırmış və bu şöbənin bərpasına çalışdı. Bu məsələnin müsbət həllində Azərbaycan Nazirlər Soveti yanında Dövlət Mətbuat Komitəsinin sədri, tanınmış jurnalist Rəşid Mahmudovun xüsusi rolu oldu. Belə ki, məhz onun yaxından köməyi sayəsində respublika hökuməti bu barədə müsbət qərar çıxardı.

*Beləliklə, həmin şöbənin yenidən bərpa olunması* istiqamətində professor A.Xələfovun uzun illər ərzində apardığı gərgin mübarizə öz bəhrəsini verdi. Hazırda fakültədə Kitabşünaslıq və nəşriyyat işi kafedrası fəaliyyət göstərir.

1962-1970 və 1979-1993-cü illərdə dekan vəzifəsində işləyən A.Xələfov özünün təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə təkcə universitetimizdə deyil, habelə respublika və Sovetlər Birliyi miqyasında böyük nüfuz qazanmış, yüksək ixtisaslı milli

kitabxanaşünaslıq-biblioqraf kadrların hazırlanması istiqamətində səmərəli iş aparmışdır.

Kitabxanaçılıq fakültəsinin yeni tədris planının yaradılmasında, kafedra və laboratoriyaların maddi-texniki bazalarının yaxşılaşdırılmasında, dərslərin keyfiyyətinin yüksəldilməsində, kadrların düzgün seçilib yerləşdirilməsində A.Xələfovun xüsusi rolu olmuşdur.

Maraqlı faktdır ki, hələ XX əsrin 70-80-ci illərində Kitabxanaçılıq fakültəsi Sovet İttifaqı miqyasında aparıcı yer tuturdu. Buna görə də SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi ölkədəki ali məktəblərin Kitabxanaçılıq fakültələri üçün tədris proqramlarını hazırlayıb tərtib etməyi məhz Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin rəhbərliyindən xahiş etmişdi.

Elə bunun məntiqi nəticəsidir ki, professor A.Xələfovun rəhbərliyi ilə hazırlanan, onun bu sahədəki ideya və təkliflərini özündə təcrübi şəkildə əks etdirən, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində beşillik təhsil müddəti üçün nəzərdə tutulan fərdi tədris planı 1984-cü ildə ittifaq nazirliyi tərəfindən təsdiq edilir və böyük uğurla həyata keçirilməyə başlayır.

Şübhəsiz, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin BDU-nun Kitabxanaçılıq fakültəsi üçün fərdi tədris planı təsdiq etməsini yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf kadrların hazırlanması sahəsində fakültə rəhbərliyinin, ilk növbədə isə A.Xələfovun xüsusi xidməti kimi qiymətləndirmək lazımdır.

1963-cü ildə isə Kitabxanaçılıq fakültəsinin dekanı, tarix elmləri namizədi, baş müəllim A.Xələfov eyni zamanda Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının müdiri vəzifəsinə seçildi. Artıq bu dövrdən sonra o, paralel olaraq dekanlığın və kafedranın işinə nəzarət etməli, onların fəaliyyətini əlaqələndirməli və istiqamətləndirməli, başqa sözlə, idarəetmə funksiyası ilə elmi tədqiqatçılıq prosesini bir-biri ilə sıx şəkildə uzlaşdırmalı olur ki, bu da həm



fakültənin, həm də kafedranın müasir elmi əsaslar üzərində düzgün istiqamətdə inkişafına ciddi kömək göstərir.

Bu dövrdən başlayaraq Kitabxanaşünaslıq kafedrasının əməkdaşları əsasən kitabxana işinin tarixi, kitabxanaşünaslığın nəzəriyyəsi, təşkili və metodik məsələləri, oxuculara kitabxana-informasiya xidmətinin mühüm problemləri istiqamətində elmi tədqiqatlar aparır, eyni zamanda kitabxana proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması sahəsində uğurlu nəticələr qazanmağa çalışırdılar.

Kitabxanaşünaslıq kafedrası respublikamızda cəmiyyətin informasiya təminatı sistemində mühüm yer tutan sosial institutlar içərisində kitabxanaların yerini müəyyən etmək, kitabxana işinin inkişaf meyl və qanunauyğunluqlarını tədqiq etmək və ümumiləşdirmək, informasiya-axtarış sistemlərinin vəziyyətini və onların optimallaşdırılması yollarını, ölkəmizdə kitabxana quruculuğunun aktual problemlərini öyrənmək baxımından bir çox nailiyyətlər qazanmışdır.

1960-1970-ci illərdə kafedranın elmi-pedaqoji tərkibi xeyli təkimlləşmiş, istiehsalatda müəyyən təcrübə qazanan bacarıqlı mütəxəssislərdən Tacəddin Quliyev, Mayıl Həsənov, Elman Bədəlov, Sahib Rzayev, Əli Rüstəmov, Rasim Kazımov, Xəlil İsmayılov, Zöhrab Baxşəliyev, Almaz Abbasova, Kəmalə Şeyxzamanova, Sənubər Mustafayeva, Aşur Əliyev və başqaları burada işə başlamışdılar.

1980-1990-cı illərdə isə BDU-nun Kitabxanaçılıq fakültəsini müvəffəqiyyətlə bitirmiş və kitabxanaşünas-biblioqraf ixtisasına yiyələnmiş perspektivli kadrlardan Akif Cəfərov, Murtuz Bağırov, Namiq İsmixanov, Telman Alıyev, Pərviz Kazımi, Mehmanəli Məmmədov, Knyaz Aslan, Elçin Əhmədov Kitabxanaşünaslıq kafedrasına dəvət olundular və ya təyinat aldılar. Onlardan bir çoxu bu gün də öz elmi-pedaqoji fəaliyyətlərini burada uğurla davam etdirirlər.

Kafedranın texniki-laborant heyətinə müxtəlif illərdə Kitabxanaçılıq fakültəsinin məzunlarından Zöhrə Camalova, Zəminə İbadova, Hicran İsmayılova və başqaları kimi fəal əməkdaşların cəlb olunması elmi-tədris işinin keyfiyyətinin yüksəldilməsinə öz təsirini göstərmişdir.

Kafedranın əməkdaşlarının apardıqları elmi tədqiqat işlərinin mühüm nəticələri Bakı Dövlət Universitetinin elmi əsərlərində, fakültədə nəşr olunan «Kitabxanaşünaslıq və biblioqrafiya» elmi-nəzəri və təcrübi-metodik jurnalında, respublikamızda çıxan müxtəlif elmi-kütləvi nəşrlərdə və digər mətbuat orqanlarında dərc olunur. Bununla yanaşı, kitabxanaşünas mütəxəssislər öz elmi-tədqiqat işlərinin yekunları ilə bağlı elmi-nəzəri və təcrübi konfranslarda məruzələr oxuyur, çıxışlar edir və onları geniş kitabxana ictimaiyyətinin müzakirəsinə verirlər. Bu isə Azərbaycanın müstəqilliyi şəraitində gələcək müvəffəqiyyətlər üçün əsaslı zəmin yaradır.

Məhz istedadlı alim, qabiliyyətli təşkilatçı A.Xələfovun Kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsini uğurla yerinə yetirməsi sayəsində bu elmi qurum kitabxana işi üzrə aparıcı müəssisəyə - ana kafedraya, respublikamızda kitabxana işinin əsas elmi tədqiqat mərkəzinə, bu sahədə çalışan və sayca ildən-ilə çoxalan bacarıqlı mütəxəssislərin əvəzsiz məsləhətxanasına, bir sözlə, hazırkı informasiyalaşmış cəmiyyətdə özünəməxsus yer tutan kitabxana ictimaiyyətinin doğma ocağına çevrilmişdir...

Əməkdar elm xadimi, professor Abuzər Xələfovun elmi-pedaqoji fəaliyyətində kitabxanaçı kadrların hazırlanmasının aktual problemlərinin tədqiqi mühüm yer tutur.

Görkəmli kitabxanaşünas alim 50 ildən artıqdır ki, kitabxana işinin tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, müntəzəm olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji məsələlərini hazırlayıb tətbiq etməklə də məşğuldur. O, bu istiqamətdə yazıb nəşr etdirdiyi çoxsaylı elmi məqalə və monoqrafiyalarında, habelə elmi



məclislərdəki məruzə və çıxışlarında Azərbaycan Respublikasında ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını formalaşdırmışdır. Elmi cəhətdən hərtərəfli əsaslandırılmış həmin konsepsiya ölkəmizdə kitabxana işinin nəzəriyyə və təcrübəsinin müasir tələblərinə cavab vermək iqtidarındadır.

Uzun illər ərzində səmərəli pedaqoji fəaliyyət göstərmiş, fakültə dekanı və kafedra müdiri vəzifələrində çalışaraq tədris prosesinə uğurla rəhbərlik etmiş professor A.Xələfov həm də səriştəli və bacarıqlı tədris-tərbiyə işi təşkilatçısı kimi böyük nüfuz qazanmışdır. BDU-nun Kitabxanaçılıq fakültəsinin dekanı vəzifəsində işlədiyi dövrdə o, fakültəyə tələbə qəbulunun sayının ildən-ilə artırılmasına, Azərbaycan bölməsinin qiyabi və axşam şöbələrinin, həmçinin rus şöbəsinin açılmasına, qısası, elm və tədris sahəsində ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verməsinə nail olmuşdur.

Professor A.Xələfovun qurucusu olduğu Kitabxanaçılıq-informasiya fakültəsi XX əsrin II yarısından başlayaraq respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq üzrə elmi tədqiqat işinin mərkəzinə çevrilmişdir. Həmin elm sahələrində çalışan mütəxəssislər fundamental elmi tədqiqatlar aparmış, doktorluq və namizədlik dissertasiyaları müdafiə etmiş, yüzlərlə elmi məqalələr, monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri çap etdirmişlər.

Ali təhsil sistemində tədris proseslərinin mahir bilicisi kimi tanınan professor A.Xələfov istər respublikamızda, istərsə də Bakı Dövlət Universitetində ali təhsilin yenidən qurulması və optimallaşdırılması ilə bağlı mühüm məsələlərin həllində yaxından iştirak edir və bu sahəyə öz sanballı töhfəsini verir.

Professor A.Xələfov Respublika Təhsil Şurasının, Ali Təhsil üzrə Vahid Şuranın Rəyasət Heyətinin üzvü kimi, həmçinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin

kitabxanaçılıq-biblioqrafiya təhsili üzrə vahid şurasının bölmə sədri kimi ölkəmizdə ali təhsil sisteminin təkmilləşdirilməsi, yeni Təhsil Qanununun hazırlanması istiqamətində səmərəli işlər görür, məqsədyönlü elmi tövsiyələr formalaşdırır.

Professor A.Xələfov tələbələrin elmi dünyagörüşlərinin genişləndirilməsi, peşə hazırlığının təkmilləşdirilməsi, kütləvi, elmi və xüsusi kitabxanaların iş təcrübəsi ilə ixtisas təhsilinin qarşılıqlı əlaqəsi, mexanikləşdirmə və avtomatlaşdırma vasitələrinin kitabxana proseslərinə tətbiq edilməsi kimi mühüm məsələlərlə əlaqədar bir sıra təşəbbüslər irəli sürmüş, onların həyata keçirilməsi üçün əməli fəallıq göstərmiş və uyğurlu nəticələr qazanılmasına nail olmuşdur.

Professor A.Xələfovun yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlanmasının xüsusiyyətləri və metodikası sahəsində orijinal ideyaları təcrübədə özünün uğurlu tətbiqini hələ 1989-cu ildə tapmışdır. Belə ki, Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin fərdi tədris planının işlənib hazırlanması və SSRİ Ali Təhsil Nazirliyi tərəfindən Sovet İttifaqının kitabxanaçılıq fakültəsi olan bütün universitetləri üçün nümunəvi plan kimi təsdiq edilməsi məhz onun başçılığı ilə həyata keçirilmişdir.

A.Xələfov həmçinin təcrübəli ali təhsil işçisi kimi tədris müəssisələrində islahatların keçirilməsi prosesində fəallıq göstərmiş, 1997-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyində ali «Kitabxanaşünaslıq və biblioqrafiya» istiqaməti və ixtisası üzrə Dövlət Standartlarını hazırlayan işçi qrupunun rəhbəri olmuşdur.

Alim «Kitabxanaçılıq informatikası», «Kitabxanaçılıq pedaqogikası», «Kitabxanaçılıq psixologiyası», «Kitabxana iqtisadiyyatı», «Kitabxanaçı peşəsi» kimi kitabxanaşünaslıq sahələrinin formalaşmasına, həmçinin kitabxanaçı kadrların hazırlığının ixtisaslaşdırılmasına, geniş profilli kitabxana işçilərinin hazırlanmasına dair perspektivli ideya və təkliflər vermişdir. Bu isə öz növbəsində Bakı Dövlət Universitetində



yeni ali təhsil sisteminin - bakalavriatura və magistratura pillələrinin əsasını təşkil etmişdir. O, eyni zamanda BDU-da kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, və informatika üzrə bakalavr və magistr təhsilinin təşkilatçısı, bu istiqamətlər ixtisas fənlərinə dair tədris plan və proqramlarının əsas müəllifidir. Kitabxanaçılıq-informasiya fakültəsinin magistraturasında dissertasiya tədqiqatları mövzularının işlənib hazırlanması prosesi də məhz professor A.Xələfovun başçılığı ilə həyata keçirilir.

Professor A.Xələfov yarıməsrlik pedaqoji fəaliyyəti dövründə demək olar ki, kitabxanaşünaslığa dair bütün fənləri tədris etmişdir. Son onilliklər ərzində isə alim bakalavrlar üçün «Azərbaycanda kitabxana işinin tarixi», «Kitabxanaşünaslıq» və başqa ixtisas kursları üzrə, həmçinin magistratura tələbələri üçün «Kitabxanaşünaslığın müasir problemləri», «Kitabxanaşünaslığın tarixi və metodologiyası» fənləri üzrə mühazirələr oxuyur.

Alim eyni zamanda həm ayrı-ayrı kitabxanalarda, həm də fasiləsiz fəaliyyət göstərən mədəniyyət işçilərinin ixtisaslaşdırma kurslarında kitabxana işçiləri qarşısında mühazirələr oxumağa da vaxt tapır.

Professor A.Xələfov mühüm kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq fənləri silsiləsi üzrə bütün dərsliklərin, proqramların, tədris və metodik vəsaitlərin müəllifi, həmmüəllifi, redaktoru, yaxud tərcüməçisi olmuşdur.

Yeni tarixi şəraitdə professor A.Xələfovun rəhbərliyi ilə Azərbaycanda ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyası əsasında kitabxanaşünaslıq fənləri silsiləsi proqramlarının yeniləşdirilməsi üzrə xeyli işlər görülmüşdür.

Professor A.Xələfovun çoxillik elmi-pedaqoji və təşkilatçılıq fəaliyyətinin nəticələri onun kitabxanaçı kadrlar hazırlığının tarixi, nəzəriyyəsi və metodikasına dair yazdığı «Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı» və «Azərbaycanda ali kitabxanaçılıq təhsili» monoqrafiyalarında, həmçinin alimin redaktorluğu ilə buraxılmış

«Azərbaycanda ali kitabxanaçı kadrların hazırlanması» məqalələr toplusunda özünün geniş şərhini tapmışdır.

Azərbaycan Respublikası müstəqillik və demokratiya yolu ilə qətiyyətlə və inamla irəliləyir. İctimai-siyasi və sosial-iqtisadi həyatda müsbət irəliləyişlərin baş verməsi, milli və bəşəri ideyaların geniş vüsət alması, əsaslı yeniləşmə prosesi bir sıra vacib məsələlərin konkret həllini tələb edir. Bütün bunlar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisələri olan kitabxanaların qarşısında da təxirəsalınmaz vəzifələr qoyur.

Müstəqillik illərində respublikamızda yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması sahəsində mühüm işlər görülmüşdür. İnformasiya cəmiyyətinin kadr hazırlığı sahəsində qarşıya qoyduğu vəzifələrə uyğun olaraq BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində ciddi islahatlar aparılmış, yüksək ixtisaslı kadrların peşəkarlıq səviyyəsini yüksəltmək üçün təhsilin keyfiyyətinin yüksəldilməsinə, tədris planının zamanın tələbləri baxımından yenidən tərtibinə xüsusi diqqət yetirilmişdir.

İlk növbədə fakültənin adı müasirləşdirilmişdir. Belə ki, əvvəllər «Kitabxanaçılıq fakültəsi» adlanan bu qurum hazırda «Kitabxanaçılıq-informasiya fakültəsi» adlanır.

Fakültənin səriştəlli pedaqoq-alimləri tədris planına yeni əlavə edilən bütün fənlər üzrə müasir tələbata cavab verən 30 addan çox yeni proqram hazırlayıb çap etdirmişlər. Tədris planına «Kitabxana proseslərinin kompüterləşdirilməsi», «Kitabxana işinin proqram təminatı», «Kitabxanaların fandrayzinq fəaliyyəti», «Kitabxanalar və sosial proseslər», «Kitabxana işinin iqtisadiyyatı» və s. kimi fənlər salınmışdır. Bu fənlər bilavasitə kitabxana işinin kompüterləşdirilməsi prosesinə xidmət edir.

Son zamanlar Kitabxanaçılıq-informasiya fakültəsinin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, auditoriyalar və laboratoriyalar yeni avadanlıqlarla təchiz edilmişdir.



Fakültədə 1999-cu ildə kompüter mərkəzi yaradılmışdır. Tələbələrin kompüter savadına yiyələnməsində bu mərkəz əsas rol oynayır.

Hazırda fakültədə 4 kafedra və 4 laboratoriya fəaliyyət göstərir. Biblioqrafiyaşünaslıq, Kitabşünaslıq və nəşriyyat işi, Kitabxana fondu və kataloqların təşkili kafedralarının, eyni zamanda Kitabxana işinin təşkili və idarə edilməsi, Kitabxana fondu və kataloqları, Biblioqrafik informasiya-axtarış sistemləri tədris laboratoriyalarının və Kitabxanaların kompüterləşdirilməsi elmi tədqiqat laboratoriyasının təşkili də məhz professor A.Xələfovun adı və səmərəli fəaliyyəti ilə bağlıdır.

Tədris və elmi tədqiqat laboratoriyaları təcrübi dərslərin keyfiyyətinin yüksəldilməsini təmin etməklə bərabər, tələbələrlə aparılan fərdi işin yaxşılaşdırılması üçün də əlverişli şərait yaradır.

1999-cu ildə professor A.Xələfov Azərbaycanda ilk dəfə olaraq Kitabxanaçılıq-informasiya fakültəsinin nəzdində «Kitabxanaların kompüterləşdirilməsi» elmi tədqiqat laboratoriyasının yaradılması təşəbbüsü ilə BDU rəhbərliyinə müraciət etmiş, universitetin rektoru, professor A.Məhərrəmov dərhal bu müraciətə müsbət münasibət bildirmişdi. Rektorun əmri ilə təşkil olunmuş yeni elmi tədqiqat laboratoriyasının müdiri vəzifəsinə isə məhz görkəmli kitabxanaşünas alim, professor A.Xələfov təyin edilmişdir. Onun başçılığı ilə Azərbaycan ali məktəb kitabxanaları texnologiyasının kompüterləşdirilməsi, informasiya ehtiyatlarının inteqrasiyası və əlverişliliyi, əsas nəzəri və tətbiqi fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

İlkin mərhələdə bu işin təcrübi nəticəsi Bakı Dövlət Universitetinin Elmi Kitabxanasındakı Azərbaycan nəşrlərinin kataloq kartoçkalarının maşınla oxunan şəkildə retrospektiv konversiyasının yaradılması olmuşdur. Hazırda burada kitabxanadakı xarici nəşrlərin elektron kata-

loqunun optimal texnologiyasının seçilməsi, respublika ali məktəb kitabxanalarının ümumi elektron kataloqunun yaradılması istiqamətində iş aparılır. Proses tamamlanarkən UNIMARC biblioqraik qeydlərin beynəlxalq formatı Azərbaycan dilinə tərcümə edilir.

Gələcəkdə Azərbaycan ali məktəb kitabxanalarının qlobal şəbəkələrində vahid idarəetmə çıxışına malik koorporativ kompüter şəbəkəsinin yaradılması və respublikamızın əksər ali məktəb kitabxanalarının istifadəçi kimi bu şəbəkəyə qoşulması da nəzərdə tutulmuşdur.

Çox mürəkkəb bir işlə məşğul olan bu laboratoriya müasir informasiya cəmiyyəti şəraitində kitabxana işinin kompüterləşdirilməsinin məqsəd və vəzifələrini araşdırmış, əsas istiqamətlərini müəyyənləşdirmiş və proqramını hazırlamışdır. Belə ki, laboratoriyanın əməkdaşı tərəfindən qısa müddətdə ilk dəfə olaraq «Kitabxana-1.0» Milli Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS), sonra isə onun təkmilləşdirilmiş «Kitabxana-2.0» versiyası yaradılmışdır. Bu AKİS-lər 20 minə yaxın biblioqrafik yazı əsasında Azərbaycan dilində kitabların informasiya bazasına malik olub, 13 axtarış göstəricisi və onların kombinasiyasına görə informasiya axtarışını həyata keçirir.

Lakin həmin sistemlər o zaman qüvvədə olan QOST 7.1-84 standartı əsasında hazırlanan biblioqrafik məlumat bazasına əsaslandığından, kitabxanaların müasir problemlərini, o cümlədən beynəlxalq biblioqrafik məlumat mübadiləsini təmin etmədiyi üçün 2003-cü ildən etibarən BDU-nun elektron kataloqunun yaradılmasında MDB-nin bir sıra qabaqcıl kitabxanalarında uzun müddət tətbiq olunan «Marc-Sql-1,5» Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemiilə iş aparılır. Bu proqram kitabxananın elektron kataloqunun yaradılmasını, kitabxana fondunun komplektləşdirilməsini və uçotunu, abonement, axtarış-məlumat xidmətini avtomatlaşdırır, İnternet/İntranet şəbəkəsi vasitəsilə oxucuların uzaq məsafədən on-line ədəbiyyat



axtarışı və sifarişini təmin edir. AKİS biblioqrafik məlumat bazasının UNIMARC və USMARC formatlarında hazırlanmasını təmin edir ki, bu da Elmi Kitabxanaya biblioqrafik məlumat mübadiləsini həyata keçirməyə və bunun əsasında əlavə maliyyə mənbələrinin əldə olunmasına imkan verir.

Laboratoriyanın əməkdaşları tərəfindən UNIMARC formatı Azərbaycan dilinə tərcümə olunmuş, onun tətbiqinə kömək məqsədilə nümunələr hazırlanmışdır.

Laboratoriyanın əsas fəaliyyət istiqamətlərindən biri elektron dərsliklərin hazırlanmasıdır. Müəllif hüquqlarının qorunması nəzərə alınmaqla BDU-nun aparıcı alimlərinin əsərlərinin elektron kitabları hazırlanır.

Bununla yanaşı, «Heydər Əliyev. Biblioqrafik məlumat kitabı» və onun Azərbaycan, rus və ingilis dillərində elektron diski (tərtib edənlər A.A.Xələfov, S.A.Sadıqova) də hazırlanmışdır.

A.Xələfov yüksək səviyyəli alim, səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, fəal ictimai xadimdir. Onun səmərəli elmi tədqiqat fəaliyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə geniş şöhrət qazanmışdır. Ölkəmizdə mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, habelə kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi problemlər Abuzər Xələfovun elmi araşdırmalarının özəyini təşkil edir. Alimin bütövlükdə milli mədəniyyətşünaslıq və kitabxanaçılıq elmi və təcrübəsi üçün mühüm əhəmiyyət kəsb edən sanballı əsərləri məhz həmin uğurlu elmi tədqiqatların parlaq nəticələridir.

A.Xələfov Azərbaycanda kitabxana işinin çoxəsrlik tarixi ilə bağlı gərgin axtarışlar aparmış və bu mövzuya dair onlarla elmi əsər yazıb nəşr etdirmişdir. Onun «Azərbaycanda kitabxana işinin tarixindən (Ən qədim zamanlardan başlayaraq XVIII əsrə qədər)», «Azərbaycanda kitabxana

işinin tarixi (1870-1920-ci illər)», «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər)», «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)», «Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrlərdən başlamış XVIII əsrin axırınadək)», «Azərbaycanda kitabxana işinin tarixi (Ən qədim dövrlərdən XX əsrə qədər)», «Respublika Elmi-Texniki Kitabxanası (1930-2000-ci illər)», «Heydər Əliyev və Azərbaycanda kitabxana işi», «Kitabxana işinin tarixi kursuna giriş», və s. kimi kitabları milli mədəniyyət tariximizin bu zəruri sahəsinin keçdiyi şərəfli yolu hərtərəfli izləməyə imkan yaradan əvəzsiz mənbələrdir.

Görkəmli mütəxəssisin «S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin əsas kitabxanasının yaranması və inkişafı tarixindən (1920-1929-cu illər)», «Azərbaycanda kitabxana işinin tarixindən (1828-1850-ci illər), «Azərbaycanda kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1920-1925-ci illər)», «Azərbaycanda kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1926-1932-ci illər)», «İnkişaf etmiş sosializm cəmiyyətində Azərbaycanda kitabxana işi», «Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri», «H.Ə.Əliyevin rəhbərliyi dövründə Azərbaycanda kitabxana işinin inkişafı (1970-1980-ci illər) və s. kimi çoxsaylı elmi məqalələri də kitabxana tariximizin qədim və müasir dövrlərinə, indiyə qədər elmi cəhətdən sistemləşdirilməmiş müxtəlif məqamlarına aydınlıq gətirir.

Təsadüfi deyil ki, A.Xələfovun qələmindən çıxmış bu elmi əsərlərin hamısını tanınmış alimlər və bu sahə ilə maraqlanan ziyalılar rəğbətlə qarşılamışlar.

Humanitar elm kimi kitabxanaşünaslığın ümumnəzəri və metodoloji problemlərinin işlənilməsi, kitabxanaların sosial funksiyalarının araşdırılması, cəmiyyətin intellektual inkişafı prosesində, insanların mədəni-mənəvi tərbiyəsində, təhsil prosesində kitabxanaların rolunun öyrənilməsi



professor A.Xələfovun elmi tədqiqat fəaliyyətinin mühüm hissəsini təşkil edir.

Tanınmış alim uzun illərdən bəri «Kitabxana fondu təşkilinin bəzi məsələləri», «Kitabxanaşünaslığın müasir problemləri», «Kitabxanaşünaslığın tarixi və metodologiyası», «Kitabxanaşünaslığa giriş», «Müasir şəraitdə Azərbaycanda kitabxana quruculuğu nəzəriyyə və təcrübəsinin elmi əsasları», «Cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi rolu», «Müasir kitabxanaların sosial funksiyaları» və s. mövzularda yazıb nəşr etdirdiyi proqram, kitab, metodik vəsait və elmi məqalələrdə həmin aktual problemlərin həlli ilə bağlı özünün məntiqi mülahizələrini və elmi müddəalarını geniş şərh etmişdir.

Azərbaycanda ilk dəfə olaraq 2001-2003-cü illərdə nəşr etdirdiyi ikicildlik «Kitabxanaşünaslığa giriş» adlı dərsliyində isə görkəmli kitabxanaşünas alim kitabxanaşünaslıq elminin nəzəri məsələlərini yüksək elmi səviyyədə ümumiləşdirmiş, sistemləşdirmiş və geniş oxucu auditoriyasının istifadəsinə vermişdir.

Professor A.Xələfovun müstəqillik illərində çapdan çıxmış «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» adlı fundamental monoqrafiyası (2006) mühüm tarixi elmi əsər kimi mütəxəssislərin diqqətini cəlb etmiş, həm elmi nəşrlərdə, həm də kütləvi informasiya vasitələrində çox yüksək qiymətləndirilərək, müəllifinə şöhrət qazandırmışdır.

Mütəxəssislər eyni zamanda professor A.Xələfovun «XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar)» monoqrafiyasını müstəqillik illərində milli kitabxanaşünaslıq fikrinin zirvəsi hesab edirlər.

Azərbaycanda və dünyada kitabxanaşünaslıq nəzəriyyəsinin inkişaf tarixi, kitabxanaşünaslığın motodologiya və metodikasının əsasları, kitabxanaşünaslıq elminin formalaşması problemləri və müasir vəziyyəti, elmlər sistemində kitabxanaşünaslığın yeri, kitabxanaların bir sistem kimi

struktur xarakteristikası, kitabxanaların tipologiyası, kitabxanaçılıq peşəsinin müasir poblemləri və s. kimi aktual məsələlər 2006-cı ildə çapdan çıxmış həmin sanballı monoqrafiyada öz geniş əksini tapmışdır.

A.Xələfov Azərbaycanda ali kitabxanaçılıq-biblioqrafiya təhsilinin tarixi və nəzəri problemlərinə də öz elmi araşdırmalarında xüsusi diqqət yetirmişdir. Ölkəmizdə ali kitabxanaçılıq-biblioqrafiya təhsilinin inkişafına, yüksək ixtisaslı mütəxəssis kadrlar hazırlanmasının hərtərəfli həllinə görkəmli alimin «Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı», «Azərbaycanda ali kitabxanaçılıq təhsili» adlı monoqrafiyaları, həmçinin «Kitabxanaçılıq təhsili», «S.M.Kirov adına ADU-nun Kitabxanaçılıq fakültəsi», «Yüksək ixtisaslı kadrlar hazırlayaq», «Kitabxanaçılıq təhsilinin inkişafı», «Kitabxanaçılıq fakültəsi: Dünən və bu gün» və s. kimi çoxsaylı elmi məqalələri və tədris-metodik materialları ciddi təsir göstərmişdir.

Professor A.Xələfov kitabxanaşünaslıq-biblioqrafiya elmi sahəsində mütəxəssis elmi-pedaqoji kadrların hazırlığında da əvəzsiz rol oynamışdır. O, Azərbaycanda kitabxanaşünaslıq elmi sahəsində xüsusi elmi məktəb yaratmış, 1 doktorluq və 13 namizədlik dissertasiyası məhz onun elmi rəhbərliyi ilə müdafiə edilmişdir.

Tanınmış alim eyni zamanda 25 nəfər elmlər namizədi və elmlər doktorunun hazırlanmasında elmi məsləhətçi və ya opponent kimi xüsusi fəallıq göstərmişdir.

Professor A.Xələfov uzun illər ərzində Sovet İttifaqının paytaxtı Moskva şəhərində fəaliyyət göstərmiş doktorluq dissertasiyalarının müdafiəsi üzrə vahid ixtisaslaşdırılmış şuranın üzvü kimi də səmərəli fəaliyyət göstərmişdir.

O, həmçinin Azərbaycanda, Rusiyada, Gürcüstanda, Özbəkistanda mədəniyyət, kitabxana işi quruculuğu, kitabxanaşünaslıq tarixi və nəzəriyyəsi problemləri üzrə müdafiə edilmiş bir çox namizədlik və doktorluq dissertasiyalarının opponenti, yaxud müdafiə şuralarının üzvü kimi milli kitabxanaşünaslıq elmimizi uğurla təmsil etməyi bacarmışdır.



Professor A.Xələfovun rəhbərliyi ilə Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrası ixtisas üzrə mühüm elmi tədqiqat mərkəzinə çevrilmiş, burada kitabxanaçılıq işinin tarixinə və nəzəriyyəsinə dair irihəcmli nəzəri tədqiqatlar yerinə yetirilmişdir.

A.A.Xələfov kitabxana işinin inkişafının hüquqi normalarının işlənilib hazırlanmasında xüsusi fəallıq göstərmiş, 1998-ci ildə Milli Məclisdə qəbul olunmuş «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununun hazırlanması üzrə işçi qrupuna rəhbərlik etmişdir. Qeyd edək ki, bu Qanun 29 dekabr 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış və həmin gündən qüvvəyə minmişdir.

Heydər Əliyev həmçinin 12 mart 1999-cu ildə «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə fərman imzalamış, qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanlarını müəyyənləşdirmişdir.

Respublikamızda ilk dəfə olaraq «Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq üzrə dövlət standartı» da məhz professor A.Xələfovun rəhbərliyi ilə işlənib hazırlanmışdır.

Görkəmli kitabxanaşünas alim özünün çoxcəhətli elmi və pedaqoji fəaliyyətini səmərəli ictimai işlə də sıx şəkildə əlaqələndirir. Belə ki, ötən illər ərzində o, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında İdarələrarası Kitabxana Şurasının sədri, SSRİ Mədəniyyət Nazirliyi yanında İdarələrarası Kitabxana Şurasının üzvü, Azərbaycan Sovet Ensiklopediyasının elmi məsləhətçisi, Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının «Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq» bölməsinin sədri, Respublika Kitabsevərlər

Cəmiyyəti nəzdində «Kitab» Xalq Universitetinin rektoru və s. kimi ictimai vəzifələrin öhdəsindən layiqincə gəlmişdir.

1998-ci ildə isə professor A.Xələfov ölkəmizdə ilk dəfə olaraq Azərbaycan Kitabxanaçılar Cəmiyyəti yaratmış və onun ilk prezidenti seçilmişdir.

Professor A.Xələfov ölkəmizdə buraxılan bir sıra elmi nəşrlərin və dövri mətbuat orqanlarının, o cümlədən «Bakı Dövlət Universitetinin Xəbərləri»nin, «Kitabxanaşünaslıq və biblioqrafiya», «Dil və ədəbiyyat» elmi-nəzəri və təcrübi-metodik jurnallarının, həmçinin kitabxana işinin, kitabxanaşünaslığın tarixi və nəzəriyyəsi üzrə elmi məqalələr məcmuələrinin, mədəniyyətə dair qəzet və jurnalların redaktoru və ya redaksiya heyətlərinin üzvüdür.

Görkəmli alim eyni zamanda elm, mədəniyyət və təhsil sahələrinə dair bir sıra elmi şuraların, komissiyaların və ictimai birliklərin üzvü kimi də səmərəli fəaliyyət göstərir.

Əmək və müharibə veteranı olan professor A.Xələfovun Vətən və cəmiyyət qarşısındakı, elm, mədəniyyət və təhsilin inkişafındakı xidmətləri dövlət orqanlarının və bir sıra ictimai təşkilatların xüsusi mükafatları, medalları və fəxri fərmanları ilə dəyərləndirilmişdir.

Belə ki, o, müxtəlif illərdə «Böyük Vətən müharibəsində (1941-1945-ci illər) rəşadətli əməyə görə», «Şərəfli əməyə görə», «Böyük Vətən müharibəsində (1941-1945-ci illər) qələbənin 30 illiyi», «N.K.Krupskaya», «1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 50 illiyi» medalları, həmçinin SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin «İşdə əla müvəffəqiyyətlərinə görə», «Əmək veteranı», «Ümumittifaq Bilik Cəmiyyətində fəal işinə görə», Böyük Vətən müharibəsində qələbənin 55 illiyi şərəfinə «1941-1945-ci illər müharibəsi veteranı» nişanları ilə təltif edilmişdir.

A.Xələfov 1969-cu ildə kadr hazırlığı sahəsində xidmətlərinə görə «Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi» fəxri adına, 2001-ci ildə isə kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüş ilk kitabxanaşünas alimdir.



Görkəmli alim A.Xələfov Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə elm və təhsil sahələrindəki xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

Professor A.Xələfov 2000-ci ilil fevralın 15-də BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının müxbir üzvü, 2001-ci il fevralın 20-də isə həmin akademiyanın həqiqi üzvü – akademiki seçilmişdir. Dünyanın bir sıra dövlətlərinin başçılarının, görkəmli mütəxəssislərin, elm və mədəniyyət xadimlərinin də həmin beynəlxalq miqyaslı qurumun üzvü olması Azərbaycan aliminin dünyada tanınmasını bir daha təsdiq edən mühüm faktlardan biridir.

Görkəmli kitabxanaşünas alim 2001-ci ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının və Rusiya Yazıçılar İttifaqının «Xeyriyyyəçilik və maarifilik» medalı ilə təltif edilmişdir.

2001-ci ildə professor A.Xələfov «VEKTOR» Beynəlxalq Elm Mərkəzinin həyata keçirdiyi «Azərbaycanın 100 görkəmli alimi» layihəsinin qalibi olmuş, «XXI əsrin görkəmli alimi» beynəlxalq diplomu ilə şərəfləndirilmişdir.

2005-ci ildə isə professor A.Xələfov təhsil sahəsində qazandığı uğurlara görə Bakı Dövlət Universitetində «İlin müəllimi» fəxri diplomuna layiq görülmüşdür.

Professor A.Xələfov 2006-cı ildə daha bir uğur qazanmışdır. Belə ki, görkəmli alimimiz elm tə təhsil sahəsindəki əvəzsiz xidmətlərinə görə «Azərbaycan mədəniyyətinin dostları» fondunun təqaüdünə layiq görülmüşdür.

Abuzər Xələfov həm də əməli saleh insan, Allaha dərin inam və etiqad bəsləyən bir şəxsdir. Tanrı bu nəcib insanın

qismətinə üç müqəddəs ocağın ziyarətində olmağı nəsib edib. O, 1998-ci il martın 31-dən aprelin 17-dək Səudiyyə Ərəbistanının Məkkə və Mədinə şəhərlərinə gedib, müqəddəs Həcc ziyarətində olub, yüksək «Hacı» titulu qazanıb.

1999-cu il iyunun 14-dən 27-dək İran İslam Respublikasının Məşhəd şəhərində İmam Hüseynin məqbərəsini ziyarət edən Abuzər Xələfov «Məşədi» tituluna layiq görülüb.

Alim 2001-ci il fevralın 12-dən 16-dək İraqın Kərbəla şəhərində müqəddəs İmam Hüseyn məqbərəsində ziyarətdə olub və İslamın üçüncü dini titulu – «Kərbəlayı» titulu ilə şərəfləndirilib.

Professor A.Xələfov elə həmin günlərdə yaranmış daha bir tarixi imkandan bəhrələnərək, Kərbəlada uyuyan əvəzsiz klassik şairimiz Məhəmməd Füzulinin məzarını da ziyarət edə bilib.

O, sevimli ömür-gün yoldaşı Adilə xanımla birlikdə yüksək mədəniyyətə və tərbiyəyə malik üç oğul böyüdüb boya-başa çatdırmışdır. Hazırda onlar eyni zamanda beş nəvənin qayğısını çəkirlər.

Bu gün Abuzər müəllim ömrünün müdriklik çağlarını yaşayır. İnanırıq ki, təkcə Azərbaycanda deyil, həmçinin MDB miqyasında, habelə yaxın və uzaq xarici ölkələrdə yaxşı tanınan görkəmli alimimiz bundan sonra da Azərbaycanın kitabxanaşünaslıq elmini özünün yeni-yeni sanballı əsərləri ilə daha da zənginləşdirəcəkdir.

Ona möhkəm cansağlığı və bütün işlərində uğurlar arzulayırıq!

**Solmaz SADIQOVA**
*Bakı Dövlət Universiteti*
*Biblioqrafiyaşünaslıq kafedrasının*
*müəllimi, humanitar və sosial*
*məsələlər üzrə dekan müavini*

## 21 İLDƏN SONRAKI MÜHAZİRƏ

24 iyun 2006-cı il. 1985-ci il əyani şöbənin 1220, 1222, 1224-cü qrup məzunları ilə 21 ildən sonrakı görüşümüzdə Abuzər müəllimin mühazirəsini olduğu kimi xatırlatmağı qərara aldım. Professor Abuzər Xələfovun həmin gün dediyi mühazirə:

«Bu məzunların görüşünün keçirilməsi yaxşı təşəbbüsdür. Başqa fakültələr keçirir, bizim fakültə isə keçirmir. Sizi inandırıram ki, bunu eşitdim çox sevindim. Tələbəlik insan həyatında çox şirin şeydir. Adam sonradan başa düşür ki, bu, əlçatmaz bir şeydir. Ha düşünürsən ki, gətirə biləsən, mümkün olan şey deyil, keçmiş mərhələdir. Elə adamlar var ki, tələbə vaxtı bunu dərk edib. Çünki tələbəlik çox qiymətlidir. Eləsi də var dərk etməyib. Məsələn, mən özüm o vaxt dərk edə bilməmişdim ki, tələbənin yoldaşlığı nə qədər yüksək bir şey olduğunu şəxsən mən özüm o vaxt başa düşməmişdim. Mən onu sonralardan yavaş-yavaş başa düşmüşəm. Eləmiz də, elə uşaqlar da var ki, bunu o vaxtdan dərk eləmişdilər.

Bu bir həyatdır. İnsanlar bir-birini görür, keçmiş xatirələr, keçmiş günlər yada düşür. Bir növ insan yükün altından çıxır, bugünkü yük çiyindən boşalır. Təfəkküründə olan o qarışıq şeylər birdən-birə yox olur, birdən-birə gözün uzaqlara gedir. Bir də görürsən uzaqlardan insanı kövrəldən gənclik gəlir. Elə bil ki, bir səhnədir, o gənclik də gəlir, bir də görürsən sən də onun içindəsən. O, göz qabağında bir bulud kimi canlanır, Səməd Vurğunun qeyd etdiyi ilğım kimi gəlir. Ona görə, çox sağ olun ki, gəldiniz, bizi də şad elə-

diniz, bizi də cavanlaşdırdınız. Biz də sizinlə o dövrü yada saldıq, gördük və s.

İkinci bir məsələ budur ki, o zaman biz müstəqil dövlət deyildik. Sovetlər İttifaqının tərkibində idik, azad dövlətimiz yox idi. Mən Bakı şəhərinə gələndə Azərbaycan dilində danışan yox idi. Küçələrdə hamı rusca danışırdı. Azərbaycan dilinə əhəmiyyət verən yox idi. İndi dilimiz, mədəniyyətimiz, dövlətmiz, hamısı inkişaf edib. Doğrudur, bəzi çətinliklərimiz var, bunlar da yavaş-yavaş həll olunacaq. Müstəqillik elə şeydir ki, bunu qazanmaq asandır, saxlamaq çətindir. Gərək hamımız çalışaq ki, bu müstəqilliyi qoruyub saxlayaq.

Üçüncü məsələ də mən sizə deyim, bizim ixtisasdır, kitabxanaçılıq ixtisası. O peşə ki, biz bunu qazanmışıq. Bizim peşəmizin hörməti artıb. Müstəqillik illərində Azərbaycanda onun hörməti xeyli artıb. O zaman ki, bu sahələri dağıldı, mən burada yenə dekan idim, fikirləşdim ki, yəqin ki, əvvəllər Sov. İKP qərar qəbul edirdi biz də yerinə yetirirdik. İndi Sovet İttifaqı yox, o qərar yox. Ancaq bir arada, doğrudan da, mənim o qorxum yarandı. Başladılar kitabxanaları birləşdirməyə, filan.

Bir də başlandı, mən nə gördüm. Gördüm ki, heç mənim təsəvvürümə gətirmədiyim əllər qalxıb göyə, kitabxanaçılığı müdafiə edir. Kim idi bu adamlar – yazıçılar, şairlər, tarixçilər, ziyalılar, orta məktəb müəllimləri. Onlar mübarizəyə qalxaraq, kitabxanaçılığı bu cür müdafiə etdilər və kitabxanalar, hamısı yerində qaldı. Hamımızın hörmət etdiyimiz, hamımızın atamız, babamız, ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyev gəldi hakimiyyətə. Dövlətimizi xilas elədi, xalqımızı xilas elədi, ondan sonra millətimizi xilas elədi, dilimizi xilas elədi, eyni zamanda da kitabxanaçılığı xilas elədi, kitabxana işini gətirdi qoydu ayaq üstünə.

İndi siz yəqin ki, bilirsiniz bax bu yaxınlarda kitabxana işçilərinin sosial vəziyyəti yüksək surətdə yaxşılaşacaq, müəllimlərlə bərabər. Bir azca darıxmaq lazım deyil. Bu neft



başlayıb axmağa, bunun pulu harasa getməlidir. Bu Holland sindromu var. Bu nədir? Hollandiyada böyük neft əmələ gəlib. Sonra bu neft qurtarandan sonra millət yoxsul vəziyyətdə yaşamağa başlayıb. Təsəvvür edirsinizmi? İndi ona görə bizim millətimiz o acı nəticələri öyrənir ki, bu pulu necə xərcləsin ki, sonra bu pul qurtarandan sonra pis vəziyyətdə qalmasın. Ona görə də, deməli bu pulu birdən-birə camaata vermək olmaz ki, hər şey ucuzlaşar, dünya ucuzlaşar, pul ucuzlaşar, hər şey əldən çıxar, inflyasiya başlayar, sonra islahatları aparmaq mümkün olmaz. Ona görə də, indi istəyirlər ki, Sumqayıtnan Nasosnudan bir az o tərəfə keçəndə yeni bir şəhər salsınlar. İsətəyirlər ki, regionlarda, yəni rayonlarda yeni müəssisə yerləri açsınlar, zavodlar, fabriklər yaratsınlar ki, insanlar orada işləyə bilsin. Torpaqla məşğul olanlar məşğul olsun, torpaqla məşğul olmayan orada işləsin. Bax, ona görə də mən 100% əminəm ki, bu iş gəlib çıxacaq. Ona görə də siz Bakı şəhərinə xoş gəlmisiniz. Kim buradadırsa buradadır, Bakıda olmayanlar isə xoş gəlib. Allah Təala elə edəcək ki, Bakı ilə rayon arasında fərq olmayacaq. İndi rayonlardan Bakıya axın var, sonra isə axın Bakıdan rayonlara olacaq. Mən bunu yaxın gələcəkdə görürəm. Təxminən 3 ilə, 5 ilə bu proses başlayacaq. Çünki rayonlarda qaz olsa, su olsa, yaşayış olsa, məişət xidməti yaxşılaşsa yaxşı bazar olsa, yaxşı mağazalar, marketlər olsa niyə ondan sonra mən gəlirəm?

Məsələn, mən Finlandiyaya getmişdim. Finlandiyanın kəndilə Helsinkiyə heç bir fərq yoxdur. Orada nə varsa orada da var. Belə olandan sonra kimin nəyinə lazımdır ki, gəlsin, Bakının bu cür havasında qalsın. O, orada qalıb özünü inkişaf etdirəcək və s.

Qaldı bir şeyi də sizə deyim. Deməli, biz informasiya cəmiyyətində yaşayırıq. Bu cəmiyyət nədir? Bu cəmiyyət bilik cəmiyyətidir. İndiyə qədər cəmiyyətin inkişafını sənayedə görürdülər. Məsələn, XX əsrə «atom əsri», «informasiya partlayışı əsri» deyirdilər, indi «informasiya əsri» deyirlər.

Bir azdan sonra «bilik əsri» deyəcəklər. Bu cəmiyyət maddi vəziyyətlə yanaşı, mənəviyyatın inkişafını təmin edir. İndiyəcən biz deyirdik ki, kitabxanalara əhalinin 50%-ni cəlb etmək lazımdır. İndiki cəmiyyətdə vəzifə budur ki, bütün əhali bu işə cəlb olunmalıdır, informasiya texnologiyası vasitəsilə. İndi infomasiya texnologiyasını əvvəllər bu informatiklər deyirdilər bu bizimdir, kitabxanalar ənənəvidirlər, köhnə şeylərlə işləyirlər. Biz onların hamısını susdurmuşuq. İndi hər saat kitabxana informasiya cəmiyyətinin ürəyidir.

Bu cəmiyyət kitabxanasız yaşaya bilməz. Ona görə də bu saat informator xadimləri də, incəsənət xadimləri də hara gedirsənsə hamı kitabxanadan danışır. Hamı kitabxananın böyük bir mədəniyyət müəssisəsi olmasından, kitabxanaların xalqın mənəviyyatını qoruyan bir vasitə olmasından danışır. Ona görə də bizim bu cəmiyyətimizdə kitabxanaların rolu artıb, yəni bizim rolumuz, bizim hörmətimiz artıb.

Ona görə də mən belə hesab edirəm ki, kim kitabxanada işləyir onlara deyirəm, onların eləsi var ki, işləyə bilmir, uzaqlaşıb, müəyyən sənət sahibi olub. Onlara da Allah kömək olsun, onlar da öz işlərində inkişaf etsinlər. Ancaq kim ki, bu sahədə işləyir, mən onlara deyirəm ki, möhkəm durmaq lazımdır. Məsələn, indiyəcən deyirdilər ki, kitabxanalar mənəviyyat, mədəniyyət müəssisəsidir. İndi deyirik ki, bu istehsalat növüdür. O informasiya istehsalı kitabxanalarda gedir. İnformasiya istehsalı olmadan cəmiyyəti inkişaf etdirmək olmaz. Ona görə də bu məsələyə fikir verin. Bunlara yaxşı fikir verirlər.

Deməli, bu millətin də başında Heydər Əliyev ideologiyası, strategiyası durur. Onun 4 dəfə Axundov adına kitabxanaya getməsi, oradakı çıxışı, kitabxanaları bilik, zəka mənbəyi adlandırmaqla, kitabxanaçıların qarşısında baş əyirəm deməklə, bu cəmiyyətdə, yəni, Azərbaycan cəmiyyətində kitabxanaların rolunu o insan əbədiləşdirdi, onu magistral yola çıxardı. İndi deyir, zəhmət çəkin bu yolla gedin.



İndi, bu yaxınlarda siz eşitdiniz mən «Heydər Əliyev və kitabxana işi» adlı bir kitab yazmışam. Axundov adına kitabxanada onun təqdimetmə mərasimi oldu, özü də Heydər Əliyevin anadan olan günü, mayın 10-da. yəni demək istəyirəm ki, başqa sahələr necə, biz də elə. Deməli, bizim sahəyə də dövlətimiz, o cür qiymət verir və bundan da istifadə etmək lazımdır.

Və nəhayət, bir məsələni də mən sizə deyim. Milli Azərbaycan dövlətçiliyini inkişaf etdirmək, ona kömək etmək, ona kömək durmaq, onun arxasında durmaq bizim hər birimizin borcudur və Azərbaycanın milli ideologiyasının formalaşmasında kitabxanaçılar yaxından iştirak etməlidir.

Bu ideologiya ki, bizi birbaşa gələcək nəsillərə aparır, türkləşdirir, türk birliyi yaradır. İndi görürsünüz, biz indiyədək türk birliyindən danışa bilmirdik. İndi biz deyirik ki, 1 milyarda yaxın türk var. İndi məsələ qoyurlar ki, bu türk dili BMT-də bir dil kimi düşsün ora.

Hazırda İslam Konfransı ölkələrinin görüşü keçirildi və bu konfransın qərarlarında olan məsələlərdən biri də budur – türkləşmə prosesi, türklərin birləşməyi prosesi. Uzun illər bunları dağıdıblar, bir-birindən ayırıblar. Məsələn, indinin özündə Türkmənistanın da başında duran Türkmənbaşı türkçülüyə heç bir əhəmiyyət vermir. O, Sovet psixologiyası ilə yetişib, böyüyüb. Məsələn, Özbəkistandakı vəziyyəti götürün. Özbəkistan prezidenti aralarında yavaş-yavaş birləşmə, yaxınlaşma, Türkiyə ilə yaxınlaşma prosesi gedir. Ona görə də mən belə hesab edirəm ki, bu prosesin özünün getməyi də bizim xalqın gələcəyidir, dilimizin, mədəniyyətimizin gələcəyidir, bizim hamımızın inkişaf etməyimizdir, bizim bir millət kimi dünya millətlərinin sırasında yer tutmağımızdır. Bax, belə vacib məsələlərin gərək biz hamısını bilək.

Bir neçə kəlmə də Qarabağ problemi ilə bağlı qeyd etmək lazımdır ki, bu bizim bəlamızdır. 18 ildir ki, keçib

1988-ci ildən bu proses başlayıb. İndi bu dünya dövlətləri başa düşür ki, erməni, sözün əsl mənasında işğalçıdır, faşistdir, sözün əsl mənasında vandalizmlə məşğul olan bir dövlətdir. Onlar təzə-təzə bunu başa düşürlər. Bütün millətlər bizim tərəfimizə keçib. İslam Konfransı qərar qəbul elədi ki, heç bir sözsüz bizim torpaqlarımız azad olunsun. Burda 57 dövlət birləşib.

Yəqin ki, iyunun 23-də bizim hərbi işçilərin, Hərbi Akademiyanın buraxılışının şahidi oldunuz. Bizim prezidentimiz orada onlara diplom verdi, buraxılışda iştirak elədi. Gördünüz, təyyarələri də göstərdilər, onların uçuşu göstərildi. Və bununla Azərbaycan xalqı sübut etməyə çalışır ki, onun dönməz, möhkəm bir ordusu var. Əgər erməni sülh yolu ilə torpaqlarımızı azad eləməsə, biz onları zorla torpaqlarımızdan qovub çıxaracağıq. Bu məsələ də var. Bu da bizim hər birimizi ruhlandırır. Hər birimizə hörmət gətirir və s.

Sonra bir neçə kəlmə kitabxanaçılıq sənəti haqqında. Mən bunu orada nazir Qarayevə dedim, o da bunu eşitdi. Sizə bir məlumat da çatdırım ki, Qarayev çox gözəl bir nəsildən çıxmış adamdır. Bəstəkar Qara Qarayevin doğmaca qardaşının oğludur. Qarayevin də atasının adını ona qoyublar, Əbülfəz. Deməli, bu adamlar soy-kökü olan adamlardır. Mən ona dedim ki, Əbülfəz müəllim bu sənətlər, o cümlədən də dedim mən müəlliməm, mən öz sənətimi də qatıram bura, xalq arasında bu sənətlər ləkələnib. Onların üstünə ləkə düşüb. Ancaq kitabxanaçıların üstünə ləkə düşməyib. Yeganə sənətdir ki, tər-təmiz büllur kimidir. Hamısını stakana qoy suyunu iç. Nə desə yaxşıdır? Nazir dedi: «Tamamilə düz deyirsiniz. Kitabxanaçılar heç bir korrupsiyaya, heç bir əyri-üyrü işə qoşulan deyil. Bu, ən sağlam, ən nüfuzlu, ən hörmətli sənətdir». Və dedi siz müəllimsiniz, dedim yox, mən özümü kitabxanaçı hesab edirəm.

Mən doğrudan bunu bir neçə dəfə demişəm. O zaman mənim 70 illiyim olanda 2001-ci ildə, bir müxbir gəlmişdi, o,



tanımadığım bir adam, mənim haqqımda bir məqalə yazmışdı – «Azərbaycanın baş kitabxanaçısı». Bu sözü də birinci dəfə işlətmişdi. Mən indiyə qədər «baş kitabxanaçı» sözünü eşitməmişdim. Bütün respublika üzrə. Bax, onda o sözdən mənim çox xoşum gəldi.

Mən özümü kitabxanaçı hesab edirəm. Həm də siz məni hamınız tanıyırsınız, necə var elə də qalmışam. Tələbələrimin gözündə də nəinki pisləşmişəm, əksinə yaxşılaşmışam, hamısı da mənə hörmət edir, bütün tələbələr, bizim fakültənin adını-sanını qoruyur. O sizin gördüyünüz əhval-ruhiyyə ki, var, o indi saxlanılır. Özü də burda da mənim xidmətim həmişə böyükdür. Mən qoymaram ki, fakültədə bir müəllim tələbə ilə əyri-üyrü işlərlə məşğul olsun. Bu kitabxanaçılıq fakültəsinə gələn uşaqar hamısı kasıb ailədən olan uşaqlardır. Bunlarla çox mədəni, insani rəftar etmək lazımdır. Biz onu da qoruyub saxlamışıq.

Bir neçə kəlmə deyim ki, dövlətimiz də kitabxana işinə yüksək qiymət verir. Misal üçün, Heydər Əliyev, ulu öndərimiz. Mən 34 il onun hakimiyyəti dövründə işləmişəm. Mən özümü həmişə onun ideologiyasının tərəfdarı hesab etmişəm, sözsuz filansız. Nə mənim vəzifəm var, nə bir şeyim var. Mən vicdanla bu işə yanaşmışam. Bizim elmimizə «kitabxanaşünaslıq» elmi statusu verib Heydər Əliyev. Xüsusi fərman verib, «kitabxanaşünaslıq» elmi statusu yaradıb. Kitabxanaçıya «Şöhrət» ordeni verib, Leyla xanıma. Bəli, bunlar hamısı bizimdir. Leyla xanım kitabxanaçı kimi o təqaüdü alıb, «Şöhrət» ordeni alan kitabxanaçı kimi alıb. Ona görə də mən belə hesab edirəm ki, müasir şəraitdə bizim dövlətimiz bu siyasəti davam etdirir.

Baxın, Prezident İlham Əliyev 2 il bundan qabaq bir fərman verib. Bu fərmana görə bütün kiril əlifbasında olan kitablar latın qrafikasına keçməli və kütləvi kitabxanalara və məktəb kitabxanalarına pulsuz verilməlidir. Belə bir dövlət sənədi dünyanın heç bir ölkəsində yoxdur, bu milyardlara başa gəlir. Bütün klassiklərimizi çap edirlər. Latın qrafi-

kası ilə kitabxanalara pulsuz göndərirlər. Ona görə də, İlham Əliyevin yeritdiyi siyasət ümummilli liderimiz Heydər Əliyev siyasətinin davamıdır və həmin strategiyadır. Heydər Əliyevin nəfəsi duyulur orada. Bax, bu siyasət bu cür aparılır.

Mən sizin qarşınızda bir daha deyirəm ki, xoş gəlmisiniz. Biz sizinlə fəxr edirik. Məsələn, mən özüm hər birinizlə fəxr edirəm və bir kitabım var və orda da yazmışam ki, «Hamıdan çox öyrəndiyim tələbələrimə». Siz elə bilməyin ki, ancaq müəllim tələbəni öyrədir. Hər dəfə müəllim auditoriyaya girəndə o tələbənin dediyindən, onun nəzakətindən, biliyindən, bacarığından bir şey götürür. Ona görə də mən tələbələrimdən çox şey öyrənmişəm. Mən onlara minnətdaram.

Sizə bir hadisəni xatırladım. Mən partiya komitəsinin üzvü idim. Burada Universitet Partiya Komitəsi var idi. Mən 20 il o komitənin üzvü olmuşam. Deməli o, Asif Ata ki, deyirlər, o kişini gətirib qoydular ki, onu partiyadan çıxarsınlar. Partkomun üzvləri onun haqqında mənfi cəhətdən danışdı. Allah rəhmət eləsin! Dünyasını dəyişib, marksizm-leninizm dövrü idi. Həyat göstərdi ki, o düz yolda imiş. Hamı çıxış elədi. Mənə də dedilər ki, ideologiya üzrə katib müavini kimi çıxış elə. Mən durdum dedim ki, mən belə fikirdəyəm ki, Asif xəstədi, onu burada müzakirə etməyə dəyməz. Çünki, bu adam özünü idarə edə bilmir. Psixoloji cəhətdən müalicəyə ehtiyacı var onun, filan. Məqsəd də budur ki, onu xias edim ki, partiyadan çıxartmasınlar.

O da durdu mənim əleyhimə çıxış elədi ki, mən xəstə deyiləm və onu partiyadan çıxartdılar. Sonra Mərkəzi Komitə bizim partiya protokolunu oxuyandan sonra, Mərkəzi Komitənin katibi deyib ki, bu məsələ Abuzər müəllimin çıxışı əsasında raykomda müzakirə edilsin. Raykom onu çıxartmadı partiyadan. Qərar qəbul edildi ki, o xəstə olduğu üçün çıxarılmasın. Söhbət ondan gedirdi ki, mən bilirdim ki, bu adam sözün əsl mənasında əsl ideoloqdur. Bu marksizm-



leninizmin mənfi cəhətlərini açıb göstərirdi açıq-açığına. Biz o vaxt elə vəziyyətdə idik ki, ona qarşı çıxa bilməzdik.

Sonra sizə bir şey deyim burda ki, müstəqilliyimizin ilk illərində ölkəmizdə xalq hərəkatı başladı. Bəs bu xalq hərəkatının başında kim dururdu? Bizim fakültənin tələbələri. İlk dəfə yürüş burdan başlayıb. Neçə dəfə məni çağırdılar Mərkəzi Komitəyə, prokurorluğa, ora-bura, biz bunu təşkil edirik, filan edirik. Heç bir nəticə çıxmadı. Çünki bunu tələbə təşkil edir. Tələbənin qarşısına çıxa bilmərəm. Bu cür proseslər var idi. Bizim fakültənin uşaqları həmişə fəal olublar, çünki onlar millətin içindən çıxıb milləti sevən adamlardır».

Mən tələbə yoldaşlarımın nəzərinə çatdırdım ki, bu illər ərzində Abuzər müəllim Həcc ziyarətində, Kərbəla ziyarətində olub, Məşhəd ziyarətinə gedib. Ona görə də, Abuzər müəllim həqiqi mənada Müqəddəs insandır. Eyni zamanda, 2006-cı ildə Abuzər müəllimin 75 illik yubileyinin təntənəli şəkildə qeyd ediləcəyini də vurğuladım.

Elə həmin görüşdə mən Abuzər müəllimə sual verdim: «Abuzər müəllim, Siz bizə dərs deyəndə demişdiniz ki, bizim fakültəni Mariya da qurtarır, Fatmanisə də. Bir neçə ildən sonra görürsən ki, Mariya elə Mariyalığında qalıb, Fatmanisə isə yeyib-yatıb kitabxanada, şişib. İndi zəhmət olmasa, deyin görək biz hansındanıq?». Abuzər müəllim belə cavab verdi: «Bunları indi Avropanın mərkəzinə aparsan, elə bilərlər ki, fransızdırlar». Sonda isə, Hörmətli Abuzər müəllimə bizə belə yüksək qiymət verdiyi üçün minnətdarlığımızı bildirdik.

Sizi 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzu edirəm!

*Sənubər MUSTAFAYEVA*
*Bakı Dövlət Universiteti*
*Kitabxana fondu və kataloqların təşkili kafedrasının baş müəllimi*

## MÜASİR KİTABXANAÇILAR NƏSLİNİN MÜƏLLİMİ

Bu gün 75 illiyi iftixarla qeyd edilən alim-Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrasının müdiri, «Şöhrət» ordenli, tarix elmləri doktoru, Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, professor Abuzər Alı oğlu Xələfovdur. Respublikada kitabxanaçılıq-biblioqrafiya elmlərinin və eləcə də ali kitabxanaçılıq təhsilinin yaranması və inkişafı onun adı ilə bağlıdır.

A.Xələfov elmi-tədqiqat işinə 50-ci illərin sonlarından başlayaraq ilk elmi-tədqiqat məqalələri ilə mətbuatda çıxış etmişdir. Onun bu araşdırmaları XIX əsrin sonu XX əsrin əvvəllərində 20-30-cu illərdə Azərbaycanda kitabxana işinin tarixi, kitabxanaların qabaqcıl iş təcrübəsi və müasir problemləri və s. kimi mövzulara həsr edilmişdir. A. Xələfov respublikada kitabxana işinin tarixinə dair 1961-ci ildə ilk namizədlik, 1975-ci ildə ilk doktorluq dissertasiyası müdafiə etmiş və elmi ictimaiyyətə ilk dəfə olaraq Azərbaycanın zəngin kitab və kitabxana tarixinə dair qiymətli tədqiqatlar təqdim etmişdir. A. Xələfovun araşdırmalarında ilk dəfə olaraq XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda kitab və kitabxanaçılıq fəaliyyətinin inkişaf mərhələləri müəyyənləşdirilmiş, kitabxana işi sahəsində xidmətləri olan görkəmli şəxslər haqqında məlumatlar verilmişdir.

70-ci illərdə A. Xələfovun əsərlərində humanitar elm kimi kitabxanaşünaslığın ümumnəzəri və metodoloji problemlərinin işlənməsi, kitabxanaların sosial funksiyalarının araşdırılması, əhalinin mütaliə mədəniyyətinin formalaşmasında bu funksiyaların rolunun və yerinin müəyyənləşdirilməsi məsələləri böyük yer tutmuşdur. Bu illərdə A. Xələfovun elmi-tədqiqat fəaliyyətində ən əlamətdar hadisə onun 1974-cü ildə nəşr olunan «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)» adlı monoqrafiyası olmuşdur. Haqqında bəhs etdiyimiz monoqrafiya 1975-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, bu respublikada kitabxana işi üzrə ilk doktorluq dissertasiyası idi.

Həmin tədqiqat əsərində XX əsrin 30-50-ci illərində respublikamızda hərtərəfli inkişaf etmiş kitabxana şəbəkələrinin formalaşması prosesinin geniş mənzərəsi yaradılmışdır.

Tədqiqatda Azərbaycanda kitabxana işinin inkişafının elmi əsasları və təcrübi metodları açılıb göstərilir, kitabxana quruculuğu sahəsində dövlət siyasəti təhlil edilir.

80-ci illərdə A. Xələfovun kitabxanaşünaslıq sahəsindəki tədqiqatlarının mövzu dairəsi daha da genişlənir. 1986-cı ildə «Azərbaycanda kitabxana işinin tarixindən» adlı nəşr etdirdiyi kitabında ilk dəfə olaraq Azərbaycanda qədim kitabxanaların yaradılmasının tarixi köklərinin araşdırılmasına xüsusi diqqət yetirilmişdir. Kitabda qədim Albaniya dövründən başlayaraq XVIII əsrə qədər kitabçılıq və kitabxanaçılıq işinin inkişaf yolu işıqlandırılmışdır.

90-cı illərdə A. Xələfovun elmi-tədqiqat fəaliyyəti kitabxana işinin tarixi, nəzəriyyəsi və metodikası sahəsində Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyi şəraitində keyfiyyətcə yeni tarixi biçimdə meydana çıxır. Müəllifin bu dövrdə yazdığı kitab və məqalələrində ölkəmizin kitabxana işinin keyfiyyətcə yeni ümumbəşəri və milli dəyərlər əsasında inkişafı üçün nəzəri və metodiki zəmin yaratmışdır.

A. Xələfovun 1996-cı ildə «Kitabxanaşünaslığa giriş», «Kitabxana işinin tarixi kursuna giriş» adlı çap etdirdiyi əsərlərdə müəllif yeni prinsiplər mövqeyindən çıxış etmişdir. Burada dünya kitabxanaşünaslığının nailiyyətləri nəzərə alınmış, kitabxanaların müasir problemləri, informasiyalaşdırılmış cəmiyyətdə kitabxanaların sosial funksiyaları araşdırılmışdır. Müəllif bu əsərlərdə kitabxana işi tarixinin öyrənilməsinə, kitabxanaşünaslığın başqa elmlərlə qarşılıqlı əlaqəsinə yeni yanaşma metodlarını və prinsiplərini göstərməyə, kitabxanaşünaslığın əsas ümumnəzəri və metodoloji prinsiplərini müəyyənləşdirməyə nail olmuşdur.

2001-ci ildə 2 hissədən ibarət «Kitabxanaşünaslığa giriş» (kitabxanaşünaslığın nəzəri əsasları. Kitabxana haqqında təlim)» dərsliyinin çap edilməsi A. Xələfovun elmi fəaliyyətinin zirvəsi hesab edilə bilər. Bu dərslik Azərbaycanda kitabxanaçılıq təhsili tarixində kitabxanaşünaslığa dair demək olar ki, ilk sanballı nəşrdir. Həmin nəşrdə kitabxanaşünaslıq fikrinin inkişaf tarixinin aktual məsələləri, dünya informasiya məkanında kitabxanaların elmi informasiya və sosial-mədəni missiyası tədqiq edilmişdir.

Dünya kitabxanaşünaslığının nailiyyətlərinə əsaslanaraq dolğun materiallar əsasında dərslikdə hissələrin, paraqrafların dəqiq bölgüsü məntiqiliyi ilə seçilir. Müasir kitabxanaşünaslığın mahiyyəti, obyekti və predmeti, kitabxanaşünaslığın funksiyaları, kitabxanaşünaslığın elmi metodikası, kitabxanaşünaslıq tədqiqatlarının təşkili və digər mövzular dərslikdə öz layiqli yerini tapmışdır. Dərsliyin ən önəmli xüsusiyyətlərindən biri də kitabxanaçılıq peşəsi haqqında müəllifin mülahizələrinin şərh edilməsidir. Burada müəllif bu nəcib peşənin mühüm xüsusiyyətlərini, cəmiyyətin mədəni və mənəvi inkişafındakı rolunu göstərmişdir.

2003-cü ildə dərsliyin 3-cü hissəsi (kitabxana işi haqqında təlim) çap edilmişdir. Dərslikdə kitabxana işinin ümumi xarakteristikası və kitabxana sistemlərinin təhlili verilmiş, kitabxana işi, onun təşkili, mahiyyəti, əhəmiyyəti



haqqında biliklər sistemləşdirilmişdir. Burada həmçinin respublikanın kitabxana sistemləri və şəbəkələri haqqında çox geniş məlumat verilmişdir.

Qeyd etməliyik ki, XXI əsrin birinci beşilliyində A. Xələfov xüsusən məhsuldar işləmişdir. Belə ki, onun 2001-2006-cı illərdə nəşr etdirdiyi monoqrafiya və elmi məqalələrinin ümumi həcmi 100 çap vərəqindən artıqdır. Bunların içərisində 20 çap vərəqində «Azərbaycanda kitabxana işinin tarixi» (ən qədim dövrlərdən XX əsrə qədər); «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı» (25 çap vərəqi, Azərbaycan, rus və ingilis dillərində); «Heydər Əliyev və Azərbaycanda kitabxana işi (15 çap vərəqi)»; «XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf istiqamətləri: mülahizələr və proqnozlar» onlarla məqalələr, məruzə, çıxış, intervyu və s. vardır.

Elmi-pedaqoji kadrların hazırlanması sahəsində A. Xələfovun xidmətləri xüsusilə böyükdür. Azərbaycanda kitabxana işinin tarixi və nəzəri problemləri üzrə A. Xələfov bütöv bir elmi məktəb formalaşdırmışdır.

A. Xələfovun rəhbərliyi ilə 15 nəfərdən artıq aspirant və tədqiqatçı namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir.

1970-80-ci illərdə A. Xələfov təkcə Bakıda deyil, həmçinin Sovetlər Birliyinin Moskva, Sankt-Peterburq, Tbilisi, Daşkənd, Kiyev, Samara və başqa şəhərlərdə mədəniyyət, kitabxanaçılıq və kitabçılıq işinin tarixi və nəzəriyyəsi üzrə yerinə yetirilmiş bir sıra namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti kimi çıxış etmişdir.

A. Xələfov uzun illərdir ki, «Bakı Universitetinin xəbərləri» elmi məcmuəsinin baş redaksiya heyətinin üzvüdür. 1970-80-ci illərdə Bakı Dövlət Universiteti elmi xəbərlərinin «Kitabxanaşünaslıq və biblioqrafiya» seriyasının yaradıcısı və əvəzsiz redaktoru olmuşdur.

Professor A. Xələfovun yaratdığı elmi məktəb hazırda 1963-cü ildən bəri onun başçılıq etdiyi kitabxanaşünaslıq

kafedrasının əsas elmi istiqamətini müəyyənləşdirir. Fəaliyyət göstərdiyi dövr ərzində kafedrada kitabxana işinin tarixi, nəzəriyyəsi və metodikasının aktual məsələlərinə dair iri həcmli işlər yerinə yetirilmişdir. Kitabxanaşünaslıq kafedrasında müntəzəm olaraq kitabxana işinin ən aktual məsələlərinə dair elmi seminarlar, elmi konfranslar və müşavirələr keçirilir. Həmin elmi yığıncaqlarda professor A. Xələfov dəfələrlə məruzə və dəyərli məlumatlarla çıxış etmişdir.

Professor A. Xələfov magistrlərin və bakalavrların elmi işlərinə də həmişə xüsusi diqqətlə yanaşır.

40 ildən artıqdır ki, professor A. Xələfov Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji cəhətlərini işləyib hazırlayır. Azərbaycanda ilk yüksək ixtisaslı kitabxanaçı kadrları hazırlayan BDU-nun kitabxanaçılıq fakültəsinin ilk dekanı (25 il) professor A. Xələfov olmuşdur. Məhz həmin dövrdə fakültənin nəzdində biblioqrafiyaşünaslıq, kitabxana fondu və kataloqların təşkili kafedralarının təşkili, kitabşünaslıq və nəşriyyat işi kafedraları, kitabxana işinin təşkili və idarə edilməsi, kitabxana fondu və kataloqların təşkili, biblioqrafik informasiya-axtarış sistemləri tədris laboratoriyaları yaradılmışdır.

Professor A. Xələfov ali məktəbdə tədris prosesinin mahir bilicisi kimi tanınır. Respublikamızda, Bakı Dövlət Universitetində ali təhsilin yenidən qurulması ilə bağlı bütün məsələlər məhz A. Xələfovun yaxından iştirakı ilə həllini tapır.

A. Xələfov daim yeniliyin inkişafına xüsusi diqqət yetirir. Belə ki, kitabxana proseslərinin mexanikləşdirmə və avtomatlaşdırma vasitələrinin tətbiq edilməsi ilə bağlı məsələlərdə A. Xələfov bir sıra təşəbbüslər irəli sürmüş və onların həyata keçirilməsi üçün əməli fəallıq göstərmişdir.

Respublikada kitabxana işinin kompüterləşdirilməsinin elmi və planlı şəkildə aparılmasının ilk təşkilatçısı A. Xələfovdur. 1909-cu ildə onun prinsipial fəaliyyətinin nəticəsində BDU-nun Elmi kitabxanası və kitabxanaçılıq



fakültəsi nəzdində «Kitabxanaların kompüterləşdirilməsi» laboratoriyası yaradılmışdır.

Hazırda burada respublika ali məktəb kitabxanalarının ümumi elektron kataloqunun yaradılması istiqamətində iş aparılır. Bununla yanaşı UNİMARC biblioqrafik beynəlxalq formatının Azərbaycan dilinə tərcüməsi başa çatdırılmışdır.

Bütün bunlar professor A. Xələfovun təşkilatçılığı və rəhbərliyi ilə həyata keçirilmiş böyük işlərin məhdud bir göstəricisidir. Bu günə qədər alimin qələmindən 20-ə qədər kitab və 150-ə qədər elmi məqalə çıxmışdır. Onun bu əsərləri kitabxana işçiləri nəsillərini tərbiyə edib yetişdirmişdir. Kitabxanaşünas alim kimi məşğul olduğu elm sahəsində Azərbaycanda bir sıra birinciliklər məhz professor Abuzər Xələfova məxsusdur.

**Akif CƏFƏROV**
*Bakı Dövlət Universiteti*
*Kitabxanaşünaslıq kafedrasının*
*baş müəllimi*

## AZƏRBAYCAN KİTABXANALARININ TARİXİ ÜZRƏ İLK ELMLƏR DOKTORU

Respublikamızda kitabxanaşünaslıq fikrini bir elm sahəsi kimi formalaşıb inkişaf etməsi tarix elmləri doktoru, professor Abuzər Xələfovun adı ilə bağlıdır.

Hələ XX əsrin II yarısında Azərbaycanda kitabxana işinin tarixinə dair bir neçə qiymətli elmi məqalələrin müəllifi kimi tanınmış A.Xələfov Respublikada ilk doktorluq dissertasiyası (1975) müdafiə etmiş və elm aləminə ilk dəfə olaraq Azərbaycanın zəngin kitab və kitabxana işinin tarizinə dair qiymətli tədqiqatlar təqdim etmişdir. Bunların içərisində müəllifin «Azərbaycanda kitabxana işinin tarixindən» (1870-1920)», «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» və bir sıra məqalələri 60-cı illərdə Azərbaycanda kitabxana işinin tarixinə həsr edilmiş ilk elmi tədqiqat əsərləri kimi çox qiymətlidir.

A.Xələfov sonrakı illərdə də elmi-tədqiqat işini davam etdirərək doktorluq dissnrtasiyasının əsası olan «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)» adlı monoqrafiyasını hazırlamışdır. Azərbaycanda kitabxanaşünaslıq fikrinin inkişafında mərhələ sayılan bu monoqrafiya müəllifin çoxillik zəngin əməlinin yekunu olub, respublikada kitabxanaşünaslıq elminin inkişafında əvəzsiz bir töhfə idi. Bu qiymətli tədqiqat əsərində XX 30-cu illərinin əvvəllərində 60-cı illərə qədər Azərbaycanda kitabxana işinin geniş mənzərəsi yaradılmış, əhaliyə kitabxana xidmətinin inkişaf qanunauyğunluqları izah edilərək, cəmiyyətdə baş verən mühüm kitabxana proseslərinin elmi-analitik təhlili keçirilmişdir. Əsərdə elmi dövriyyəyə ilk dəfə daxil edilən çoxlu faktik materiallar əsasında sübut edildi ki, bu dövrdə Azərbaycanda kitabxana işinin təkmilləşdirilməsi, bu işin ölkənin sosial-iqtisadi vəzifələrinə uyğunlaşdırılması, ümumilikdən respublikada elmi-texniki tərəqqinin, əhalinin mədəni-mənəvi patensialının inkişaf etməsində çox mühüm rol oynamışdır.

Haqqında bəhs etdiyimiz monoqrafiya A.Xələfovun 1975-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Bundan əlavə bu tədqiqat işi keçmiş SSRİ-də tarix elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüş ilk dissertasiya əsəri idi.

Elmi yaradıcılıq diapozonu geniş və çoxsaylı olan professor A.Xələfovun Azərbaycanda kitabxana işi tarixinin əsas problemlərinə dair alimin 150-ə qədər elmi əsəri, monoqrafiyaları, dərsliyi, dərs vəsaiti, proqramı, metodik vəsaiti və s. çap olmuşdur. Bu əsərlərlər həm respublikamızda, həm də respublikadan kənarda, xüsusilə keçmiş SSRİ-nin əsas elm mərkəzində, yəni Moskvada buraxılan ixtisasjurnalında dərc edilmişdir.

80-ci illərdə professor kitabxana tarixi sahəsindəki tədqiqatların mövzu dairəsi daha da genişlənmişdir.

Onun 1986-cı ildə nəşr etdirdiyi «Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrlərdə XVIII əsrin sonuna qədər)» adlı kitabında ilk dəfə olaraq respublikamızda qədim kitabxanaların yaradılmasının tarixi kökləri araşdırılmış, orta əsrlərdə Azərbaycanda kitab və kitabxana mədəniyyətinin inkişaf yolu işıqlandırılmışdır.

Kitabda Azərbaycanda və eləcə də bütün şərqdə böyük şöhrət qazanmış görkəmli alim Nəsrəddin Tusinin rəhbərliyi ilə yaradılmış Marağa Rəsədxanası və onun elmi kitabxanası haqqında da ətraflı məlumat verilmişdir. Bu illərdə onun çap etdirdiyi çox saylı məqalələrdə müasir dövrdə Azərbaycanda kitabxana işinin aktual problemləri, əhaliyə kitabxana xidmətinin vəziyyəti, kitabxanaların sosial funksiyaları, onların cəmiyyətin mədəni-mənəvi, elmi-

texniki mühiti ilə əlaqəli şəkildə inkişaf etdirilməsinin əsas vəzifələri, kitabxanaçı kadrların hazırlanması və s. məsələlər şərh edilmiş, elmi tövsiyyələrlə əsaslandırılmışdır.

Bu baxımdan onun 90-cı illərdə yazdığı kitablar və elmi məqalələr öz orejinallığı və elmi-nəzəri yetkinliyi ilə seçilir. Prof A.Xələfovun Azərbaycanın müstəqillik əldə etdiyi tarixi şəraitdə yaratdığı konseptual, proqram xarakterli yazıları respublikamızda kitabxana işinin keyfiyyətcə yeni ümumbəşəri və milli dəyərlər əsasında inkişafı üçün nəzəri-metodiki zəmin yaratmışdır. Belə ki, 1996-cı ildə nəşr etdirdiyi «Kitabxana işinin tarixi kursuna giriş» adlı kitabında müasir dövrdə və yaxın gələcəkdə respublikada kitabxana işinin tarixi ənənələrə, yüksək mənəvi keyfiyyətlərə əsaslanaraq daha da təşəkkül tapmasının mühüm prinsipləri, əhalinin kitabxana xidmətinin demokratik tələblər baxımından daha səmərəli təşkilini aktual problemləri işıqlandırılır.

Müəllifin 2004-cü ildə işıq üzü görmüş «Azərbaycanda kitabxana işinin tarixi» adlı dərslik (I hissə) onun ən fundomental əsərlərindən biri hesab edilir. Bu kitabda ən qədim zamanlardan XX əsrə qədəriki dövrdə respublikamızın ərazisində meydana gəlmiş kitabxanaların inkişaf dinamikası öz əksini tapmışdır. Dərslikdə müxtəlif dövrlərdə yaranıb formalaşmış saray, məscid, mədrəsə, məktəb və digər kitabxanaların fəaliyyəti haqqında ətraflı məlumatlar verilmişdir.

Beləliklə qəti demək olar ki, professor A.Xələfov Azərbaycanda kitabxana işi tarixinin ilk tədqiqatçısıdır. Azərabycanda kitabxanaşünaslıq elmi məktəbinin banisidir. Respublikamızda kitabxana işi tarixi üzrə ilk dərsliklərin və proqramların ilk müəllifidir. Bu il ömrünün 75-ci baharına qədəm qoyan Abuzər müəllim kamilliyin və müdrikliyin ən uca zirvəsindədir. Onun keçdiyi şərəfli həyat yolu gənc nəslə nümunədir. Ona can sağlığı və yaradıcılıq uğurları arzulamaqla yanaşı «Azərbaycanda kitabxana işinin tarixi» dərsliyinin II hissəsini də yazmağı uca tanrıdan arzu edirəm.

**Sima İSMAYILOVA,**
*Bakı Dövlət Universiteti*
*Biblilqrafiyaşünaslıq kafedrasının*
*baş müəllimi*

## GECİKMİŞ MİNNƏTDARLIQ

Əziz Abuzər müəllim! Sizin haqqınızda yazılan ən gözəl sözlərdən hörülmüş gül çələnginə mənim də ürəkdən gələn səmimi sözlərimdən hörülən gülləri əlavə etmək istəyirəm.

Əziz və hörmətli Abuzər müəllim! Siz Azərbaycan kitabxanşünaslıq-biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin canlı ensiklopediyasısınız. Siz həm də bu elmlərin nəzəriyyəsini, tarixini, metodologiyasını, müasir inkişaf istiqamətlərini yaratmış görkəmli alimsiniz.

Sizin çoxsaylı tələbələrinizdən biri də mən olmuşam. İstər tələbə olarkən təyinat bölgüsü zamanı, istərsə də biblioqrafiyaşünaslıq kafedrasına dəvət edilərkən, müəllim seçilərkən həmişə Sizin təmənnasız köməyinizi hiss etmişəm. Ancaq bir dəfə də olsa mən Sizə öz minnətdarlığımı bildirə bilməmişəm. Bütün uğurlarımda Sizin köməyiniz olub, köməyinizi, mənim üçün etdiklərinizi heç vaxt dilinizə gətirməmisiniz. Sizin şəxsiyyətiniz istər universitet daxili, istərsə də universitetdən kənarda dayağımız olub. Həmişə ciddi, zəhmli görkəminiz bizim öz işimizə daha məsuliyyətlə yanaşmağımıza səbəb olub. Həmişə Sizi vüqarlı, uca bir dağ sanmışam. Sizi öz yetirmələrinə qayğı və xeyirxah münasibət göstərən müdrik bir ağsaqqal kimi görmüşük. Sözü kəsərli, kеçərli bir şəxsiyyət kimi ümidi hər yerdən kəsilən Sizə pənah gətirib, hər an Sizin ağğıllı söhbətlərinizə, dəyərli məsləhətlərinizə ehtiyacımız olub.

80-ci illərin ortaları idi. Universitetin qəbul komissiyasında işləyərkən bizə istirahət günündə Qubaya bir günlük dincəlməyə getməyə icazə vermişdilər. Tədbirdə uni-

versitetin başqa fakültələrinin nümayəndələri, o cümlədən bizim fakültədən mən və həmkarım mərhum Telman Alıyev də var idi. Yol böyu avtobus süratlə getdiyindən mən həyəcanla Telmana- «Əgər bizim başımıza bir iş gəlsə, Abuzər müəllim nə edər?», deyə sualıma həmkarım və başqaları çox qəribə tərzdə güldülər (işin qızğın vaxtı və seyfin açarı bizdə *olduğuna və həm də öz taleyimiz haqqında deyil, iş haqqında* düşündüyümə görə). Bu mənim Sizə olan dərin hörmət və sədaqətimin, öz işimə olan məsuliyyətimin təcəssümi idi.

Bu gün baxmayaraq ki mən, neçə illərdir müəllim olsam da, yenə də Sizin yanınızda özümü tələbə kimi hiss edirəm. Sizin kimi ağsaqqal, müdrik müəllimlərimdən öyrəndiklərimi öz tələbələrimə həvəslə öyrətməyə çalışıram.

«Tarix o adamları böyük hesab edir ki, onlar ümumi məqsəd üçün çalışmış, özləri isə nəcib adamlar olmuşlar».

Xeyirxah, cəsarətli, ədalətli sözü keçən bir insan kimi Siz ixtisasımızın bu günü və gələcəyi üçün yorulmadan çalışırsınız. Sizə bu yolda uğurlar və möhkəm can sağlığı arzulayaraq 75 illik yubileyinizi ürəkdən təbrik edirəm, . Əziz müəllimim!....

**Əliyusif MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti*
*Biblioqrafiyaşünaslıq kafedrasının*
*baş müəllimi*

## HƏYATINI ELMƏ, TƏDRİSƏ HƏSR ETMİŞ İNSAN

Həyatda hər bir kəsin öz taleyi var. Bu tale, qismət insanı istəsə də, istəməsə də müəyyən istiqamətə yönəldir, harasa, hansı məqamasa aparıb çıxarır. Bəzən tale insanı hansı səmtəsə aparır, harasa cəlb edir. Bu yol, cığır isə insanın ürəyindən olmur - o taleyin bu müəyyən hökmündən qaçmağa çalışır, özünü bu dünyada dustaq kimi hiss edir. Bəzən mübarizə aparır, bəzən isə təslim olub özünü bu gözəgörünməz axara təslim edir. Allah bizi pis qismətdən hifz etsin! Bəzən isə insan öz taleyində həm də öz səadətini tapır. Çünki, onun qarşısında açılan yollar, uzanan cığırlar və uzaqdan görünən hədəf onun arzusu, istəyi ilə həmahəng olur. Belə olduqda insan daha ürəkli, cəsarətli olur. Hədəfə doğru hər addım ona qətrə-qətrə xoşbəxtlik bəxş edir. Belə adamlara qibtə etməyə, onlara həsəd aparmağa dəyər. Alın yazısı, taleyi öz ürəyinin istəklərilə həmahəng olan belə xoşbəxt insanlardan biri də professor Abuzər müəllim Xələfovdur.

Mən hesab edirəm ki, bu daxili bitkinliyin, bu bütövlüyün binasını onun üzərində göz açdığı qədim Azərbaycan yurdu, ulu Göyçədə qoyulub. Hər qayası, hər daşı xalqımızın tarixinin rəmzi olan bu torpaqdakı mənəvi potensial çox ehtimal ki, bizim doğma müəllimimizin bir şəxsiyyət kimi inkişafının ilk pilləsi olmuşdur. Bu torpağa məxsus daxili mədəniyyət, sözə, elmə verilən yüksək qiymət gənc Abuzəri o, ahənrüba kimi cəlb edərək Azərbaycana ali elm-təhsil ocağına Azərbaycan Dövlət Universitetinə gətir-

mişdi. Burada, Universitetin Filologiya fakültəsində düşdüyü mənəvi uyğunluq, paklıq, biliyə, elmə pərəstiş, yüksək mənəvi amalları hər şeydən uca tutan mühit Abuzər müəllimin mənəvi kredosu ilə həmahəng oldu. Məmməd Arif Dadaşzadə, Mir Cəlal Paşayev, Həmid Araslı, Feyzulla Qasımzadə, Abbas Zamanov kimi əvəzsiz alim və pedaqoqlardan dərs alan Abuzər müəllim onlardan təkcə biliyi, elmi əxz etməyib, həyata bu kamil, nəcib insanların gözü ilə baxmağı, həyata onların mizanı ilə qiymət verməyi, insanları onların meyarı ilə qiymətləndirməyi öyrənib. Bildiyimiz kimi həmin şəxsiyyətlər bilik, elm, mədəniyyət, bəşərə aid nəcib hər nə varsa bütün bunların xəzinəsi olan kitaba yüksək qiymət vermişlər. Məhz bu qiymət, bu yanaşma Abuzər müəllim üçün də ülgü, örnək olmuş və öz ömür yolunu bəşər inkişafının vacib ünsürü olan kitaba, onun cəmiyyət üçün müyəssərliyini təmin edən müəssisə mən hətta deyərdim ki, məbəd olan kitabxanalara həsr etməyində həlledici amil olmuşdur.

Abuzər müəllimin sonrakı həyat yolu onun millətimizin həmin örnək ziyalılarından əxz etdiyi fəlsəfənin, qayənin davam etdirməyə həsr etdirmişdir. Başqa sözlə o örnəklərdən nümunə götürərək özü də örnək səviyyəsinə yüksəlmişdir. Məhz öz xalqının gələcəyi, inkişafı, bu millətin savadının, mədəniyyətinin vacib şərti olan kitabxanaların inkişafı yolunda əlindən gələni etmək arzusu ona bu sahəni Universitetin müstəqil bir fakültəsi kimi formalaşması yolunda ardıcıl iş, məqsədyönlü fəaliyyət üçün qüvvə vermişdir. Abuzər müəllimin bu istiqamətdə uzun illər fəaliyyəti nəhayət ki, öz bəhrəsini vermiş və 1962-ci ildə kitabxanaçılıq fakültəsi müstəqil fakültə kimi öz ömür yolunu başlamışdır. Abuzər müəllim bu fakültənin ilk dekanı olmuşdur və onun ətrafındakı çiyin yoldaşlarının, həmkarların, ixtisas fənlərini tədris edən pedaqoji kollektivin üzvlərinin əksəriyyəti məhz bir vaxtlar tələbə kimi Abuzər müəllimin yetirmələri olan şəxslər olmuşlar.



1962-ci ildən başlayaraq 25 il ərzində kitabxanaçılıq fakültəsinə rəhbərlik etmiş Abuzər müəllim öz davamçıları, yetirmələrinin köməyi ilə fakültənin, Universitetin nüfuzlu, yüksək elmi-pedaqoji səviyyəyə malik fakültələrindən biri səviyyəsinə yüksəlməsinə nail olmuşdur. Bu səviyyə ilk növbədə fakültədə yüksək səviyyəli elmi-pedaqoji kollektivin formalaşdırılması ilə səciyyələnir. Bu fakültədə ixtisas fənlərindən dərs deyən müəllimlərin əksəriyyəti ya Abuzər müəllimin tələbəsi olmuş, ya da onun rəhbərliyi ilə dissertasiya müdafiə etmişlər.

Kitabxanaçılıq fakültəsinin yüksək elmi səviyyəli fakültə kimi formalaşmasına şərait yaratmış bir amil burada tətbiq edilən tədris proqramı və tədris edilən fənlərin elmi-praktik səviyyəsi olmuşdur. Abuzər müəllimin təşəbbüsçü ilə o zaman ittifaqın kitabxanaçılıq fakültəsində tətbiq edilən tədris proqramı yaradıcı işində təhlil edilmiş və ADU-nun spesifik tələbləri nəzərə alaraq aparıcı tədris proqramı tərtib etmişdir. Məhz bu yüksək tələbkarlıq, ardıcıl, məqsədyönlü fəaliyyət pilləsində Abuzər müəllimin başçılıq etdiyi fakültə keçmiş İttifaqın analoji fakültələri arasında ən nüfuzlu fakültələrindən birinə çevrilmişdir. Bunu müxtəlif vaxtlarda ADU-nun Kitabxanaçılıq fakültəsində olmuş keçmiş İttifaqın kitabxanaçılıq və biblioqrafiya sahəsinin görkəmli alimləri də təsdiq etmişlər.

Heç də sirr deyildir ki, onlar üçün xoşbəxt, cəmiyyət üçün isə bədbəxt təsadüf nəticəsində xidməti pilləkənin yüksək səviyyəsinə çatmış, ola bilsin ki, onların adından dərc edilmiş məqalələrin yazılması üçün nə kitabxanaya qədəm qoyan, nə də bir ixtisas jurnalının səhifəsini açan subyektlər kitabxanaçılıq ixtisasının guya universitetə layiq olmaması kimi nadan ideyalarla çıxış edəndə məhz Abuzər müəllimin onların bu iddialarının nə qədər yanlış olduğunu və ölkənin ali təhsilinə nə qədər zərər gətirdiyini sübut etmişdir.

Ölkəmizin öz dövlət müstəqilliyini yenidən bərpa etməsindən sonra Kitabxanaçılıq-informasiya fakültəsinin beynəlxalq əlaqələrinin genişlənməsi və kitabxanaçı-biblioqraf mütəxəssislərin hazırlanması sahəsində dünya təcrübəsi ilə tanışlıq Abuzər müəllimin kitabxanaçılıq-informasiya təhsilinin müasir cəmiyyətdə mövqeyi, onun qohum fəaliyyət sahələri ilə sıx bağlı olması barədə fikirlərində nə qədər haqlı olduğu, onun yanaşma tərzinin bu sahədə dünyada mövcud olan tendensiya ilə nə qədər həmahəng olduğu bir daha sübuta yetmişdir.

Abuzər müəllim bu yanaşma tərzini nəinki nəzəri baxımdan müdafiə etmiş, bunu həm də praktikada təsdiqləmişdir. Vaxtı ilə Kitabxanaçılıq fakültəsi nəzdində kitabşünaslıq və kitab ticarəti ixtisası üzrə kadr hazırlığının təşkili məhz bu ideyanın reallaşmasının təzahürü idi. Bu sahə ilə az-çox maraqlanan şəxslər yaxşı bilir ki, fakültədə belə bir ixtisaslaşmanın təşkili Abuzər müəllimin böyük əziyyəti və gərgin əməyi nəticəsində mümkün olmuşdu.

Bu sətirlərin müəllifi kitabxanaçılıq işi sahəsində dünyanın qabaqcıl ölkələrinin-Qərbi Avropa və Birləşmiş ştatların bu sahə üzrə kadr hazırlığı sisteminin ilə tanışlığı prosesində kitabxana işi və biblioqrafik fəaliyyətin elmi informasiya fəaliyyəti və nəşriyyat fəaliyyətinin bu ölkələrdə cəmiyyət, pedaqoji və elmi ictimaiyyət tərəfindən sənəd informasiya təminatı ilə məşğul olan sənəd-kommunikasiyalar sisteminin tərkib hissələri kimi qəbul edilməsinin şahidi olmuşdur.

Bircə o faktı qeyd etmək kifayətdir ki, kitabxana işinə, kitabxanaçılıq təhsilinə xüsusilə böyük diqqət və qayğı göstərildiyi ABŞ-da ölkənin, demək olar ki, bütün böyük universitetlərində SLİS (School of Library And İnformation Sceinces – Kitabxanaçılıq və İnformasiya Elmləri Məktəbi (bizim anlamda- fakültə)) və ya buna bənzər adla struktur bölmələri fəaliyyət göstərir. Bu bölmələr nəinki bu sahə üzrə magistr dərəcəli ixtisaslı kadrlar hazırlayır, həm



də bütün universitetin kitabxana şəbəkəsinin işinin təşkilində mühüm rol oynayır. SLİS –lərin fəaliyyəti ilə yaxından tanış olan şəxs kimi onu da qeyd etməyim yerinə düşər ki, bu universitetlərdə informatika məktəbləri (fakültələri) olmasına baxmayaraq, informasiya elmi və fəaliyyəti(elmi və texniki informasiya fəaliyyətinin nəzəri və praktiki aspektlərinə dair ixtisasına) informatikadan fərqli elm və ixtisas sahəsi kimi qəbul olunur və bu sahə üzrə magistr səviyyəli mütəxəssislər məhz SLİS-lərdə hazırlanır. Burada həm də arxivlər üçün mütəxəssislər hazırlanır ki, bu da həmin fəaliyyət sahəsinin kitabxanaçılıq işi, nəşriyyat işi, elmi-texniki-informasiya fəaliyyəti, kitab ticarəti ilə birgə sənəd-kommunikasiya sistemınə daxil olan ixtisas sahəsi olması barədə Abuzər müəllimin və eləcə də, MDB-nin nüfuzlu mütəxəssislərinin mövqeyinin dünyada təqdir edilən tendensiyalara nə qədər yaxın olduğunu sübutu hesab edilə bilər. Bütün bunlar kitabxanaçılıq ixtisasının sənəd-informasiya işi, cəmiyyəti sənəd-informasiya tələbatının ödənilməsi sahəsində aparıcı fəaliyyət sahəsi olmasına, həmin ixtisasların bir fakültə çərçivəsində öyrənilməsi sahəsində Abuzər müəllimin ideyaları digər ölkələrdə aparıcı mövqedə olan yanaşma tərzi ilə həmahəng olduğuna, zamanın tələblərinə müvafiq olmasına daha əyani misaldır.

Abuzər müəllimin respublikamızda nəinki kitabxanaçılıq təhsili sahəsində, eləcə də ümumi ali təhsil sahəsində zəngin təcrübəsi bu sahənin mütəxəssislərinin tez-tez onun universitet təhsilinin təşkilinin ayrı-ayrı sualları ilə əlaqədar ona müraciət etməsinə səbəb olur.

Abuzər müəllim təhsil sahəsi üzrə bir çox normativ sənədlərin, təlim-təhsil sahəsi üzrə bir çox normativ sənədlərin, təlimatların və respublika qanunlarının işlənib hazırlanmasında öz bilik və təcrübəsini əsirgəməmiş, bu sahənin zamanın tələblərinə, millətimizin inkişafının prioritet istiqamətlərinə maksimum dərəcədə uyğun olması üçün əlindən gələni etmişdir. Onun Azərbaycana Respublikasının

Təhsil haqqında Qanunun, Kitabxana işi haqqında Qanununun mükəmməl bir qanunvericilik sənədi kimi arayaərsəyə gəlməsində sərf etdiyi əməyi hər təhsil xadimi, kitabxana mütəxəssisi yaxşı bilir. Abuzər müəllim respublikamızda təhsil standartlarının, daha konkret desək, kitabxanaçılıq ixtisası üzrə kadr hazırlığı üçün standartın yaradılmasında da böyük əmək sərf etmişdir.

Abuzər müəllimin öz sahəsində keçmiş SSRİ, indi isə MDB məkanında nə qədər nüfuz sahibi olması danılmaz bir faktdır. Bu ölkələrin hansına gedirsən get, harada olursan ol və əgər orada kitabxanaçılıq sahəsində hər hansı bir mütəxəssislə görüşsən, o şəxs səndən mütləq Abuzər müəllimi soruşacaq, ona salamlarını söyləməyi xahiş edəcək. Heç də təsadüfi deyildir ki, bu ölkələrin aparıcı kitabxanaların fondunda Abuzər müəllimin əsərləri mütləq təmsil olunur. Bu sözləri dünyanın ən zəngin kitabxanalarından olan Rusiya Dövlət KİtabxanasI və Milli Kitabxanası barəsində də söyləmək mümkündür.

Qeyd etməliyəm ki, Abuzər müəllimin kitablarının dünyanın aparıcı kitabxanalarında təmsil olunmasında bu sətirlərin müəllifinin də kiçik payı var. Belə ki, ABŞ Dövlət Departamentinin yardımı ilə həyata keçirilən tədqiqat proqramı üzrə ABŞ-dakı İndiana Universitetinə səfərə hazırlaşan zaman mən özümlə İndiana Universitetinə aparacağım Azərbaycana dair xatirə hədiyyələrinin və hədiyyə və kitabların sırasında ilk növbədə Abuzər müəllimi kitablarının olması qərarına gəldim və bu fikrimi Abuzər müəllimlə bölüşdüm. Mənim bu ideyam Abuzər müəllim tərəfindən bəyənildi və hörmətli professorumuz özünün bir sıra dərslik və monoqrafiyalarını mənə təqdim etdi. Bu kitablardan əlavə mən fakültəmizdən özümlə prof. X.İ.İsmayılovun, prof. Z.H.Əiyevin, mərhum dosent T.F.Quliyevin əsərlərini də özümlə götürdüm.

İndiana Universitetində tədqiqata başladığımdan az bir müddət sonra Universitetin Kitabxanaçılıq və İnformasiya Elmləri Məktəbinin dekanı prof. Blez Kroninlə görüşüm oldu və mən ona respublikamız, Bakı DÖvlət Universiteti və təbii ki, Kitabxanaçılıq- informasiya fakültəsi, onün kadr potensialı, professor-müəllim kollektivi barədə ətraflı məlumatlar verdim. Azərbaycanda kitabxanaçılıq təhsili sahəsində görülmüş işlər amerikan həmkarımızın marağına səbəb oldu. Görüşün sonunda mən prof. Kroninə xatirə hədiyyələri və apardığım kitabları təqdim etdim ki, o hamin kitab və hədiyyələri minnətdarlıqla qəbul etdim.

Bundan bir neçə gün keçməmiş mən həmin kitabları Universitetin Kitabxanaçılıq və İnformasiya Elmləri Məktəbinin kitabxanaçısının iş masası üzərində gördüm. Orada mənə bildirdilər ki, Universitetdə formalaşmış ənənəyə əsasən professorlar onlara bağışlanmış kitabları bir qayda olraq Universitet kitabxanasına təqdim edirlər ki, bu kitablardan hamı bəhrələnə bilsin, kitab cəmiyyətə, universitetə maksimum fayda gətirsin. Orada mənə bildirdilər ki, bir neçə gündən sonra mənim hədiyyə etdiyim kitablar işlənəcək və elektron kataloqa daxil ediləcək. Həqiqətən də, həftəni sonunda mən universitetin kitabxanasının elektron kataloqunu açarkən mən Abuzər müəllimin kitablarının və eləcə də fakültəmizin digər əməkdaşlarının kitabdarının artıq burada təmsil olunduğunu gördüm.

Bundan əvvəl də elektron kataloqlardan istifadə etmiş şəxs kimi mən deyə bilərəm ki, bu kitablar Abuzər müəllimin dünya elektron biblioqrafik informasiya məkanında təmsil olunmuş ilk kitablarıdır və bu işdə mənim də əməyimin olmasına görə fər edirəm. İndi isə mən ona görə sevinirəm ki, məhz Abuzər müəllimin təşəbbüsü ilə yaradılmış Kitabxanaların kompütərləşməsi laboratoriyası elektron kataloq yaradaraq Azərbaycan kitablarının dünya elektron biblioqrafik informasiya məkanına daxil olması sahəsində böyük işlər görürlər.

Abuzər müəllimin haqqında çox danışmaq, onun zəngin, hərtərəfli fəaliyyəti barədə çox şey söyləmək olar. Lakin ən başlıcası odur ki, Abuzər müəllimin fəaliyyətinin bütün məqamları, onun bütün təşəbbüs və ideyaları ancaq bir istiqamətə-ölkəmizdə kitabxana işinin elmin, universitet təhsilinin inkişafına yönəlmişdir. Mən arzu edərdim ki, Abuzər müəllimin bu nəcib fəaliyyəti bundan sonra da belə məhsuldar şəkildə davam etsin və bunun üçün vacib şərt olan can sağlığı ondan əskik olmasın.

**Əlizadə NƏCƏFOV**
*AMİ-nin Ağcabədi filialının müəllimi,*
*tarix elmlərinamizədi.*

## PEYĞƏMBƏR SİMALI İNSAN

Mən cəsarətlə deyə bilərəm ki, müasiri olduğumuz XXI əsrin ən böyük zəka sahiblərindən biri də mənim əziz müəllimim professor Abuzər Xələfovdur.

Neçə illərdir ki, mənim əziz müəllimim, professor Abuzər Xələfov haqqında yazılan yazılarda demək olar ki, onun bütün elmi və fəxri adları həmişə sadalanır və qeyd olunur. Bunlardan fərqli olaraq bu yazıda mən müəllimimin həyatda qazandıqlarını deyil, Allah tərəfindən ona verilən təbii və fitri imkanlardan, mənə çatan və məlum olanlardan bəhs edəcəm. Qəribədir ki, adətən biz insanlar öz müasirlərimizin kim olduğunu çox gec bilirik və sonra da çoxlu-çoxlu tərifli sözlər yazırıq, təəssüflənirik, heyfslənirik və s.

Mənim müəllimimin ilahi böyüklüyü ondadır ki, o həm də mənə-öz tələbəsinə və müasirinə, yaşadığı XX və XXI əsrlərə və öz həmvətənlərinə, onu tanıyan, əziz tutan, qiymətləndirən, hörmət edənlərə də, xalqına da kim olduğunu çox vaxtında deməyi bacarmışdır. Abuzər müəllim haqqında düşünərkən illər məni bir qədər ötən anlara XX əsrin 70-ci illərinə qaytardı....

Abuzər müəllimlə mənim tanışlığım da həmin vaxtda başlamışdı. Müəllim-tələbə münasibəti, ağsaqqal-gənc münasibəti, kafedra müdiri-aspirant münasibəti və ən əsası dost və qardaş münasibəti və s. Zəhmətini çiyinlərimdə çəkə bilmədiyim bu insanın mənim taleyimdə o qədər rolu böyük olub ki, az qalıram deyəm, bu günkü xarakterimə və nailiyyətlərimə görə Abuzər müəllimə borcluyam. Tələbəlik illərində məni elmə və ictimai işlərə ilk olaraq alışdıran və

istiqamət verən də o oldu. Əlaçı olduğum üçün M.F.Axundov adına təqaüd aldım. Diplom işimin elmi rəhbəri də o oldu. Alimlik müdafiəsində də elmi rəhbərim məhz Abuzər müəllim oldu.

..1980-ci ildə, sonuncu kursda olanda təyinat bölgüsündə Abuzər müəllim BDU-nun rektoru, professor Faiq Bağırzadəyə dedi ki, Faiq müəllim, bu Əlizadə bizim fakültəni əla qiymətlərlə bitirir, özü də çox fəal bir tələbədir. Elmə həvəsi var, indi onu hansı rayona göndərsək qalacaq orda. Aspiranturaya belələrini götürməliyik, elə bir qərar verin ki, biz onu fakültədə saxlaya bilək... Mərhum rektor da Abuzər müəllimin fikrini təsdiqlədi və mənim gələcək elmi istiqamətim də müəllimimin əliylə müəyyənləşdi.

Aspiranturaya 1983-cü ildə yenə də professor Abuzər müəllimin köməyilə qəbul oldum, elmi rəhbərim də özü oldu.

Abuzər müəllimin köməyilə dissertasiyanın mövzusunu müəyyənləşdirdik. Burada da yenə onun müdrikliyi zamanı qabaqladı. Dedi ki, Əlizadə, Dağlıq Qarabağın mədəni-maarif işiylə bir erməni məşğul olurdu. Sən onu qabaqla və bu bölgənin kitabxana işinin tarixini dissertasiya işinə mövzu seç. Belə də oldu.

İllər isə ötürdü. Aspiranturanı qurtaran kimi müdafiə edə bilmədim. Lakin bu işə də Abuzər müəllim istiqamət verdi. Onun səy və zəhməti ilə Rusiyalı alimlərin də daxil olduğu birdəfəlik müdafiə şurasında müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi aldım....

Abuzər müəllim təkcə mənim elmi yaradıcılığımla deyil, həm də ailə problemlərimlə də ciddi maralanıb. O bilirdi ki, mənim xəstəm var. Hər dəfə görüşəndə, ya telefonla danışanda, onun vəziyyəti ilə mütləq maraqlanıb. Eyni zamanda övladlarımın taleyi ilə ciddi məşğul olmağı tapşırıb, onların təhsili ilə maraqlanıb.

Məlum Qarabağ hadisələri dövründə müəllimim Şuşadakı, ümumən Qarabağdakı hadisələrlə və bizim



vəziyyətimizlə müntəzəm əlaqə saxlayıb, oradakı real vəziyyət barədə Respublika rəhbərliyinə davamlı olaraq məlumatlar verib.

Bu yazının adını təsadüfən seçməmişəm. Abuzər müəllim çox iffətli bir kişi olmaqla bərabər həm də bir neçə dəfə İslamın ən əziz ziyarətgahlarında olub. Hacı, Kərbəlayı olmuşdu. Dini dəyərlərə çox hörmətlə yanaşan Abuzər müəllim həm də bu istiqamətdə keçirilən dünya və respublika əhəmiyyətli tədbirlərdə iştirakçı olub.

Abuzər müəllimin fəaliyyətləri istiqamətcə həddindən çox olsa da o, bir o qədər işlərin içində hər dəfə öz yoldaşları ilə, onunla görüşməyə gələn insanlarla görüşüb əhvallaşmağa vaxt tapır, onlara müəyyən işlərdə köməklik edir və s.

Mənim əziz müəllimim, deyirlər ki, dünyanın bir çox yerlərindən elm və dövlət xadimləri, dahi Nizaminin sağlığında onun görüşünə, ziyarətinə gəlirmişlər. Mənə belə gəlir ki, mənim müəllimim də Şeyx Nizami qədər uca, ziyarət olunmalı və sadə bir insandır. O həm başı qarlı zirvəyə bənzəyir, həm də sinəsində min bir xəzinə olan məhsuldar, güllü-çiçəkli, al-əlvan libas geymiş laləli düzlərə.

Onun məğrurluğu nə qədər şərəflidirsə, nuraniliyi də bir o qədər zərif və işıqlıdır.

Qəribədir, dəfələrlə şahidi olmuşam ki, bir qədər əvvəl ondan çoxlu danlaq və tənbeh almış insan yenə də çox cəsarətlə, elə həmin gün hər hansı bir ehtiyacla bağlı Abuzər müəllimə müraciət edib.

Bu nədir?!

Bəli, hər kimi Abuzər müəllim tənbeh edirsə, öz övladı kimi tərbiyə edir.

Müəllimimlə ünsiyyətdə olduğum illərdə onun bir məsələ haqda iki fikirli olduğunu görmədim, ya "hə", ya da "yox"! Onun "yox" sözünü "hə" etmək də hər kəsin işi deyil. Çətindir, həm çox sərt, həm də ipək kələfi kimi yumşaq olduğu anların canlı şahidiyəm.

O, Bakı Dövlət Universitetində çox-çox insanları müxtəlif illərdə qərəzdən, böhtandan, şərdən qoruyub, qovulmaqdan azad edib, haqlarını özünə qaytarıb.

Hətta yeri gələndə o insanların işinə görə bütün karyerasın təhlükəyə atıb.

Fakültədə danladığı adamı universitetdən kənarda, başqa yerlərdə tərifləyib. O öz doğma ocağının sirrini heç kimə verməyib...

Abuzər müəllimin xüsusi məktəbi var. Azərbaycanda kitabxanaçılıq məktəbi onun dövründə formalaşıb, inkişaf etmiş, kadrlar hazırlanmış və bütün Respublikada həm tarixi-nəzəri, həm də praktiki sahədə inkişaf etmiş bu günkü səviyyəyə çatmışdır.

Fakültədə layiqli davamçıları olan professorlar Xəlil İsmayılov, Z.Əliyev, B.Allahverdiyev və onlarla elmlər namizədi, dosentlər yetişdirmişdir.

O, çox böyük, tanınmış elm adamı olmaqla yanaşı, həm də ictimai xadimdir.

Abuzər müəllim dövlətimizi və xalqımızı xaricdə elə təmsil edər ki, heç şübhəsiz hamımız ondan razı qalarıq. Necə ki, bu ocaqdan bir nəfər Xələf Xələfov həmin missiyanı şərəflə icra edir.

Ötən illər ərzində Abuzər müəllimin bir çox xarakterik xüsusiyyətlərinin canlı şahidi olmuşam. Mənim üçün ən mürəkkəb görünən bir işə çox sadə və qanuni istiqamət verib. Universitetin rektorluğunu, xüsusilə də indiki rəhbərliyi həmişə müdafiə edib, professor Abel Məhərrəmov haqda danışanda elə danışır ki, adamın canına sözlər yağ kimi yayılır.

Mənim müəllimim ali və son dərəcə sadə bir insan olmaqla yanaşı çox tədbirli bir kişidir, qayğıkeş ailə başçısıdır. İşçilərin doğma balalarından fərqləndirməyən bir insandır.

Mənim əziz müəllimim vacib olanda yumşaqlığı qədər də sərt bir xarakterə malikdir. Böyük qəlbə və ürəyə malik olan Abuzər müəllimin dostluğu Quran ayəsi qədər möhtəşəmdir.



İclasların birində baş müəllim Murad Şəmsizadənin dərsi dinlənilmiş və müzakirə olunurdu. Bir çox tənqid və təkliflər söylənildən sonra Abuzər müəllim Murad müəllimə dedi ki, səflərini düzəltsin, bir qədər aqressiv mövqedən çıxış edən bəzi əməkdaşlara isə dedi ki, unutmayın ki, Şəmsizadə Murad mənim 50 illik dostumdur.

Xoşbəxtəm ki, müəllimimin 50, 60, 70 illik yubileyində iştirak etmişəm. Qismət olsa 75 illik yubileyində də iştirak edəcəm. Arzum budur ki, Abuzər müəllimin 100 illiyini də onun iştirakı ilə qeyd edək!

Mənim əziz müəllimim, Sizin haqqınızda danışmağa və yazmağa, insanlara etdiyiniz yaxşılıqları saymağa saatlarla yox, aylarla, illərlə vaxt belə azdır. Onu demək istəyirəm ki, Sizin gördüyünüz xeyirxah işlər əbədidir, onların nə sayı var, nə əvvəli, nə də axırı. Bu haqda necə də yaxşı demişlər:

**Gələn birdir, gedən birdir, qalan bir.**
**Gələn qalmaz, gedən gəlməz, bu bir sir.**
**Bir əvvəl var, bir axır var deyirlər.**
**Bu bir sözdür, nə əvvəl var, nə axır.**

Şəfəq İSLAMOVA
*Tarix elmləri namizədi*

## AZƏRBAYCAN KİTABXANA ELMİNİN BAYRAQDARI

Həyatını BDU-nun kitabxanaçılıq və informasiya fakültəsi ilə bağlamış tanınmış alimlər sırasında xüsusi yer tutan BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Respublika Təhsil Nazirliyinin elmi-metodiki şurasının kitabxanaçılıq-biblioqrafiya bölməsinin sədri, Azərbaycan Respublikasının əməkdar elm xadimi, BDU-nun «Kitabxanaçılıq» kafedrasının müdiri, «Şöhrət» ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfova məxsusdur. Böyük alim, gözəl pedaqoq Azərbaycan elmi ictimaiyyətinin elə qabaqcıl nümayəndələri sırasına daxildir ki, onlarla xalqımız fəxr edir. 75 illik yubileyini qeyd etdiyimiz professor A.A.Xələfovun kitabxanaçılıq və biblioqrafiya elmi tarixində öz yolu, öz izi vardır – heç kimlə səhv salınması mümkün olmayan, təkrarsız, bənzərsiz izi.

Abuzər Alı oğlu Xələfov 1931-ji il dekabrın 25-də Qərbi Azərbaycanın qədim Göyjə mahalının Krasnoselski (Çənbərək) rayonunun Əil kəndində anadan olmuşdur. O, Bakı Dövlət Universitetinin filoloqiya fakültəsinin kitabxanaçılıq şöbəsini bitirmişdir.

Professor A.Xələfovun fəaliyyəti, hər şeydən əvvəl, yüksək müəllim adı ilə bağlıdır. Hələ lap gənj yaşlarında o, əmək fəaliyyətinə müəllimliklə başlamış və artıq 50 ildir ki, bu nəjib sahədə yorulmadan və müvəffəqiyyətlə çalışır. Onun ən böyük xidmətlərindən biri 1962-ji ildə kitabxanaçılıq şöbəsinin müstəqil fakültəyə çevirməsi, 25 il fakültənin dekanı vəzifəsində və 1963-cü ildən indiyə qədər «Kitabxanaşünaslıq» kafedrasının müdiri kimi fəaliyyətidir.



Professor A.A.Xələfovun tədqiqatları ilə yaxından tanış olub onları diqqətlə nəzərdən keçirdikdə alimin elmi maraq və fəaliyyət dairəsinin nə qədər geniş, çoxjəhətli və sanballı olduğu dərhal nəzərə çarpır.

Alimin «Kitabxana fondunun təşkilinin bəzi məsələləri» (1958-ji il), «Azərbaycanda kitabxana işinin tarixindən: (1870-1920-ji illər) (1960-jı il), «Azərbaycanda kitabxana işinin tarixindən: (1920-1932-ji illər) (1961-ji il), «Azərbaycanda kitabxana işinin tarixindən: (1933-1958-ji illər) (1974-jü il), «Azərbaycanda kitabxanaçılıq təhsili» (1998-ji), «Kitabxanaşünaslığa giriş» (2001-ji il) adlı monoqrafiyaları onun elmi axtarışlarının geniş diapazona malik olduğunu bir daha sübut edir. O, 130-dan çox elmi əsərin müəllifidir, əsərləri Azərbaycan və rus dillərində nəşr edilib. Son 10 il ərzində kitabxanaşünaslıq fənləri üzrə bütün dərs vəsaitləri və tədris metodiki materiallarının müəllifi, redaktoru və nəşrinin təşkilatçısı olmuşdur.

Professor A.Xələfov respublikada ilk dəfə olaraq Azərbaycanda kitabxana işinin inkişafının mühüm mərhələlərini ümumiləşdirməyi qarşısına məqsəd qoymuş, tarixi keçmişə mürajiət edərək kitabxana işinin müasir problemlərini elmi jəhətdən düzgün dərk etmişdir. Kitabxanaçılıq fakültəsinin nəzdində «Kitabxana proseslərinin kompüterləşdirilməsi» elmi-tədqiqat laboratoriyası məhz onun zəhməti ilə açılmışdır.

1961-ji ildə o, «Azərbaycanda kitabxana işinin tarixindən (1920-1932-ji illər)» mövzusunda dissertasiya işini, 1975-ji ildə isə «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ji illər)» mövzusunda dissertasiya müdafiə edərək, tarix elmləri doktoru alimlik dərəjəsini almışdır.

Abuzər müəllim Azərbaycan Respublikasında kitabxanaçılıq elminin banisidir. O, respublikamızda kitabxanaçılar nəslinin müəllimi kimi, kitabxanaşünas alimlərin hazırlanmasına böyük qayğı göstərib. O, kafedra müdiri olduğu dövrdə kitabxanaşünaslıq elminin müxtəlif sahələrini öyrə-

nən və inkişaf etdirən 13 nəfər elmlər namizədi hazırlayıb, 10 namizədlik və doktorluq dissertasiyasının opponenti olub. Bu sahədə alim öz səmərəli fəaliyyətini uğurla davam etdirir.

A.Xələfov mənalı, şərəfli bir yol keçmişdir: Bakı Dövlət Universiteti doktorluq dissertasiyaları müdafiəsi üzrə elmi şuranın və böyük Elmi Şuranın üzvü, 1964-jü ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyi yanında İdarələrarası Kitabxana şurasının sədri, SSRİ Mədəniyyət Nazirliyi yanında İdarələrarası kitabxana şurasının üzvü, Azərbaycan Sovet Ensiklopediyasının məsləhətçisi, «Kitabxanaşünaslıq və biblioqrafiya» seriyasının redaktoru, «Kitablar aləmində», «Mədəni maarif işi» jurnallarının redaksiya heyətinin üzvü, 1982-1987-ji illərdə Azərbaycanda Kitabsevərlər Jəmiyyətinin «Kitab» Xalq Universitetinin rektoru, 1998-ji ildə BDU Nəşriyyat şurasının sədri, Azərbaycanda Kitabxanaçılar Jəmiyyətinin prezidenti olmuş, 2001-ji ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki seçilmişdir.

A.Xələfov 40 ildən artıqdır ki, bir sıra beynəlxalq simpozium və konfranslarda Azərbaycan kitabxanaçılıq elmini ləyaqətlə təmsil edir. Onun iştirak etdiyi beynəlxalq simpozium və konqreslərin joğrafiyası genişdir.

Abuzər müəllim görkəmli tədqiqatçı-alim olmaqla bərabər, həm də elmi işləri tədrislə sıx əlaqələndirməyi bajaran gözəl müəllimdir. O, 50 ildir ki, Bakı Dövlət Universitetində kitabxanaçılıq fənnindən mühazirələr oxuyur.

Professor A.Xələfovun elm sahəsindəki xidmətləri yüksək qiymətləndirilərək respublikanın ali mükafatı olan «Şöhrət» ordeni, başqa orden və medallarla, nüfuzlu beynəlxalq elm mərkəzlərinin diplomları və fəxri fərmanları ilə təltif olunmuşdur. Ona 1963-jü ildə «Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi», 2001-ji ildə «Əməkdar elm xadimi» fəxri adları verilmişdir.



Abuzər müəllim bəlkə də yeganə ixtisasçıdır ki, kitabxanalarımızın bu gününə dünənin prizmasiyla baxır. Dünənimizə isə məhz bu günün prizması ilə baxa bilir. Dünənin və bu günün kitabxanaları arasında körpü salıb. Bu, biz gənjlər üçün olduqja vajibdir. O, gənjlərimizə örnək ola biləjək maraqlı və elmə bağlı ömür yolu keçmişdir. İndi Abuzər müəllim elmi, elmi-təşkilati fəaliyyəti ilə Azərbaycan kitabxanaçılıq elminin inkişafı və onun dünya miqyasında tanınması üçün əlindən gələni əsirgəmir.

O, böyük bir məktəb yaratmışdır. Bu elmi məktəb ən güjlü və bu gün də inkişaf edən bir məktəb sayılır.

Ömrünün müdrüklik jağını yaşayan tədqiqatçı alim və müəllim Abuzər Xələfova bol-bol yaradıjılıq uğurları arzulayırıq.

*Səfurə CƏLAL QIZI*
*Bakı Dövlət Universiteti.*
*Kitabxana fondu və kataloqların təşkili laboratoriyasının müdiri*

## MÜDRİKLİK ZİRVƏSİNİN FATEHİ

2006-cı il dekabr ayının 25-də bütün Azərbaycan kitabxanaçıları və kitabsevərləri nəcib, səmimi, xeyirxah bir insanın - oğuz yurdunun kitabsevəri, görkəmli kitabxanaşünas alim, 250-dən çox elmi əsərin müəllifi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun anadan olmasının 75 illik yubileyini qeyd edəcəklər.

M.Müşfiqin sözləri ilə desək:

**İstər bəstəkar ol, istər nəqqaş ol,**
**Şair ol, rəssam ol, heykəltəraş ol,**
**Yaratdığın şeyi sevərək yarat,**
**Hər işdə uca ol, hamıdan baş ol.**

Böyük bir iftixar hissi ilə qeyd edə bilərəm ki, professor A.A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq elmini, kitabxanaşünaslıq məktəbini yaratmış, inkişaf etdirmiş və bir sözlə hamıdan uca olmuşdur.

Mən professor A.A.Xələfovun pedaqoji fəaliyyətindən deyil, onun insani keyfiyyətlərindən danışmaq istəyirəm. Abuzər müəllim təkcə kitabxanaçılıq fakültəsində deyil, ümumiyyətlə universitet miqyasında tədris prosesinin yaxşı təşkilatçısı kimi tanınmışdır.

Bu gün professor A.Xələfovun elmi məktəbi haqqında fərəhlə danışmaq olar. Görkəmli elm xadimləri, professorlar, müəllimlər Abuzər müəllimin geniş biliyə, zəngin təcrübəyə, intellektual səviyyəyə malik olması haqqında çox



demiş, çox yazmışlar. Mən isə Abuzər müəllimin «təvazökarlıqdan uzaq olsa da» bir sevimli tələbəsi kimi özümə borc bildim ki, onun insani keyfiyyətlərindən ürəyimdən keçənləri az da olsa gələcək tələbələrə çatdırım. Lakin qeyd etməliyəm ki, Azərbaycan ensiklopediyasında elə bir söz tapmıram ki, onu deməklə hörmətli professorun bütün müsbət keyfiyyətlərini izah etmiş olum.

20 ildən artıq bir müddətdir ki, mən professor A. Xələfovla eyni müəssisədə çalışıram. Özümdə olan bütün müsbət keyfiyyətlərə görə müəllimimə borcluyam.

Professor A. Xələfov mənsub olduğu xalqın qayğıları ilə yaşayır, nəcib əməlləri, pak vicdanı ilə hamıya nümunə olur. O, Azərbaycanda kitabxanaşünaslıq elminin əsasını qoymuş böyük alim, qayğıkeş insandır.

Ümumiyyətlə, indi Kitabxanaçılıq-informasiya fakültəsində dərs deyən professor-müəllim kollektivinin böyük əksəriyyəti onun tələbələri olmuşdur. Onların hər birinin qəlbində bu gözəl insanın özünə görə yeri var. Təkcə elmi bilikləri ilə deyil, həm də insani keyfiyyətləri ilə başqalarına nümunə olan professor öz dostları, həmkarları, tələbələri tərəfindən böyük rəğbətlə qarşılanır.

Heç də təsadüfi deyildir ki, ümummilli liderimiz Heydər Əliyev 2000-ci ildə professor A.Xələfovun elm və təhsil sahəsindəki xidmətlərini yüksək qiymətləndirərək, onu «Şöhrət» ordeni ilə təltif etmiş, 2001-ci ildə isə «Əməkdar elm xadimi» fəxri adına layiq görmüşdür.

Professor A.Xələfov özünə və ətrafdakılara qarşı tələbkarlığı, prinsipiallığı, işgüzarlığı, obyektivliyi, ciddiliyi və qayğıkeşliyi ilə, elm, mədəniyyət və çoxsaylı kitabxana ictimaiyyəti arasında böyük hörmət və nüfuz qazanmış alimdir.

Azərbaycanın qocaman və nüfuzlu ali təhsil müəssisələrindən olan Bakı Dövlət Universitetində 25 il Kitabxanaçılıq fakültəsinin dekanı, 1963-cü ildən bəri isə Kitabxanaşünaslıq kafedrasının müdiri olduğu müddətdə professor

A.Xələfov gənclərin elmi biliklərə yiyələnməsində əvəzsiz xidmət göstərmişdir.

Onun yetirmələri Azərbaycanın hər bir guşəsində ləyaqətlə çalışır, xalqımızın əmin-amanlığı və dövlətçiliyimizin qorunması naminə yüksək əzmkarlıq göstərir.

Səmimi və alicənab professor, Sizi anadan olmağınızın 75 illik yubileyi münasibəti ilə bütün tələbələr və Sizi sevənlər adından ürəkdən təbrik edir, ən gözəl nemət olan cansağlığı arzulayıram!

Mənim sevimli müəllimim! Belə hesab edirəm ki, bütün Azərbaycan kitabxanaçıları, kitabsevərləri, Kitabxanaçılıq-informasiya fakültəsinin müəllim-tələbə kollektivi Sizin şəxsinizdə bu gün də öz bilik və təcrübəsini, öyüd və nəsihətlərini onlardan əsirgəməyən, bununla da öz xalqı qarşısında ali vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirən müdrik bir insanla ünsiyyətdən qürur duyurlar.

Sizə cansağlığı və bol-bol sevinc hazırlayıram!

**Zöhrə CAMALOVA**
*Bakı Dövlət Universiteti*
*Kitabxana işinin təşkili və idarə edilməsi laboratoriyasının müdiri*

## QAYĞIKEŞ İNSAN, SƏMİMİ RƏHBƏR

Bu il respublikamızın kitabxana ictimaiyyəti görkəmli kitabxanaşünas alim Əməkdar elm xadimi, professor Abuzər Xələfovun 75 illik yubileyini qeyd etməyə hazırlaşırlar. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi və Bakı Dövlət Universitetinin rəhbərliyi bu möhtəşəm tədbiri həyata keçirmək üçün ayrı-ayrıqda əmrlər vermiş və Abuzər Xələfovun irsini yüksək qiymətləndirmişlər. Azərbaycan Respublikasının Təhsil Naziri hörmətli Misir Mərdanovun 09.11.2006-cı il tarixli «Yubileyin qeyd olunması barədə» əmrində oxuyuruq: 2006-cı ilin dekabr ayında Azərbaycan kitabxanaşünaslıq elminin və təhsilinin tanınmış nümayəndələrindən biri, kitabxana tarixçisi və nəzəriyyəçisi, pedaqoq-alim Xələfov Abuzər Alı oğlunun 75 yaşı tamam olur. O, təkcə Azərbaycanda deyil bir sıra xarici ölkələrdə tanınmış alim, milli mədəniyyətimizin görkəmli tədqiqatçılarından təbliğatçılarından biridir.

A.Xələfov BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikanın Əməkdar Mədəniyyət işçisi, tarix elmləri doktoru, professordur. O, 55 ildir ki, elmi-pedaqoji fəaliyyətlə məşğul olur, qiymətli tədqiqatlar aparır, nəzəri və elmi problemlərə dair monoqrafiyalar, əsərlər və dərsliklər nəşr etdirir. A.Xələfov 130-dan çox monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. O, 25 il «Kitabxanaçılıq» fakültəsinin dekanı olmuş, 45 ilə yaxındır ki, «Kitabxanaşünaslıq» kafedrasının müdiri vəzifəsində çalışır. Bu, Təhsil Nazirliyin Abuzər Xələfov irsinə verdiyi yüksək giymətdir və yubiley

münasibətilə o, nazirliyin «Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi» nişanı ilə mükafatlandırılmışdır. Əslində Abuzər müəllimin heç bir mükafata ehtiyacı yoxdur. Ona görə ki, o, bir təhsil işçisi kimi özünün ali mükafatını liderimiz Heydər Əliyev tərəfindən alıb.

Hazırda Mədəniyyət Nazirliyin əmri ilə bütün kitabxanalarda və Mədəni- maarif müəssisələrində Abuzər müəllimin yubileyi ilə əlaqədar tədbirlər keçirilir. Onlar bu tədbirləri keçirməklə fəxr edir və böyük məmnuniyyətlə bu görüşə gəlirlər. Noyabrın 4-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Abuzər müəllimlə keçirilən görüş bu bir daha sübutdur. Görüşü kitabxananın direktoru açaraq Abuzər müəllimin həyat və yaradıcılığı haqqında qısa məlumat verdikdən sonra çox haqlı olaraq qeyd etdi ki, respublikamızda çalışan bütün kitabxanaçılar özlərini Abuzər tələbələri hesab edirlər. Sonra çıxış edən dos. R.Kazımov, dos.S.Rzayev, dos. E.Əhmədov, dos.Knyaz Aslan və digər natiqlər Abuzər müəllimin çoxşaxəli yaradıcılığından söhbət etmiş və onun elmi irsini yüksək qiymətləndirmişlir. Belə bir görüş Respublika Elmi-Tibb kitabxanasında da yüksək səviyyədə keçmişdir. Hazırda bu görüşlər davam edir. Bu görüşlərdə əsas məqsəd Azərbaycanda kitabxanaşünaslıq elminin Xələfov timsalında inkişafı və mövcud sahədə görüşlər bugünkü işlər üçün ona minnətdarlıq hissini bildirmişdir. Hazırda Respublikamızda kitabxanaçılıq təhsil sistemi dünya standartına cavab verir. Heç təsadüfi deyil ki, hələ keçmiş sovetlər dövründə Azərbaycanda kitabxanaçılıq təhsili çox yüksək qiymətləndirilirdi. Buna isə bilavasitə Abuzər Xələfov öz şəxsi çalışqanlığı ilə nail olmuşdur. O, Respublikamızda kitabxanaçılıq təhsil sistemini inkişaf etdirməklə yanaşı, bu sahədə işləyən kadrların da qayğısına qalmış və indiyə kimi 20-yə qədər elmlər namizədi və elmlər doktoru yetişdirmişdir. Abuzər müəllimin fəaliyyəti dövründə kitabxanaçılıq-informasiya fakültəsini 5 mindən çox tələbə bitirmiş və hazırda respublikamızın müxtəlif sahələ-



rində işləyirlər. Abuzər müəllim onların hər biri ilə fəxr edir. Hələ onların özləri də Abuzər müəllimin bugünkü ali zirvəyə çatması ilə fəxr edir və onu ömrünün 75 ildönümü münasibətilə təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırlar.

**Xuraman AĞAYEVA**
*Bakı Dövlət Universiteti*
*Biblioqrafik-informasiya axtarış sistemləri laboratoriyasının müdiri*

## KİMSƏSİZLƏR KİMSƏSİ

Hər bir ölkə, dövlət, xalq öz görkəmli şəxsiyyətləri ilə tanınır, sevilir. Həmin şəxsiyyətlər də öz zəkasının məhsulu olan əsərləri ilə xalqın tarixini, mədəniyyətini, incəsənətini zənginləşdirir, onu yüksək zirvələrə qaldırır.

Azərbaycanımızı dünyaya tanıdan belə görkəmli şəxsiyyətlərdən biri də öz sadəliyi, səmimiliyi ilə seçilən kitabxanaşünaslıq elminin nəzəriyyəçisi və tarixçisi və tədqiqatçısı olan, onun müasir istiqamətlərini yaradan professor Abuzər Xələfovdur.

Professor A.Xələfovun həyat yolu ömrünü Azərbaycanda kitabxana işinin tarixinin öyrənilməsinə həsr etmiş, onun nəzəriyyəsini yaratmış, ali kitabxanaçılıq təhsilinin inkişafına misilsiz töhfələr vermiş, milli kitabxanaşünaslıq elminin əsasını qoymuş, öz elmi məktəbini yaratmış əsl ziyalının şərəfli həyat yoludur. Onun qələmindən çıxmış sanbalı əsərləri gənc tədqiqatçılır üçün bir mayakdır.

Professor A.Xələfov xalqımızın kitabxana tarixini, cəmiyyət tarixi ilə vəhdətdə öyrənmiş, kitabxanaların sosial institut kimi mahiyyətini aça bilmiş, əhəmiyyətini sübut etmiş bir alimdir.

Professor A.Xələfov kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin elmlər sistemində yerini, rolunu, dəyərini müəyyən etmiş görkəmli bir ziyalıdır.

Onun qələmindən çıxmış «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» adlı sanballı monoqrafiyası kitabxana quruculuğu sahəsində bu böyük şəxsiyyətin misilsiz xidmətlərinin təhlili, Azərbaycanda kitabxanaların inkişafı



ilə bağlı fəaliyyətinin ümumiləşdirilməsi, nəzəri irsinin gələcək nəsillərə çatdırılması üçün əvəzsiz mənbədir.

Professor A.Xələfov fenomeni müdriklik zirvəsi, xeyirxahlıq nümunəsi, imanlı bir şəxsiyyət simvoludur. Mən «kimsəsizlər kimsəsi» olan bu böyük şəxsiyyəti anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 illiyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Sevda QULİYEVA**
*Bakı Dövlət Universiteti*
*Kitabşünaslıq və nəşriyyat işi*
*kafedrasının dissertantı*

## TƏVAZÖKAR VƏ QAYĞIKEŞ ŞƏXSİYYƏT

Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Əməkdar elm xadimi, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, «Şöhrət» ordenli Abuzə Xələfovun 75 yaşı tamam olur.

Ömrünü Azərbaycanda elmin, təhsilin, mədəniyyətin inkişafına həsr edən, Azərbaycan kitabxanaşünaslıq elminin binövrəsini qoyan və onu formalaşdırıb müasir vəziyyətə qaldıran professor Abuzər Xələfov milli mədəniyyət tariximizin yorulmaz cəfakeşi kimi çox böyük hörmət qazanmışdır.

Professor Abuzər Xələfov kitabxana işi tarixinin görkəmli tədqiqatçısı və kitabxanaşünaslıq elminin mahir nəzəriyyəçisi olmaqla yanaşı, həm də, Azərbaycanda ali kitabxanaçılıq təhsilinin səriştəli təşkilatçılarından biridir. Məhz onun səmərəli fəaliyyəti sayəsində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi çox zəngin inkişaf yolu keçmiş, yaxın və uzaq xaricdə güclü elmi potensiallı olan nüfuzlu fakültə kimi tanınmışdır.

Əsl qeyrət və xeyirxahlıq mücəssəməsi kimi tanıdığım Abuzər müəllim uzun illərdir ki, kitabxanaçılıq ixtisasının, bu sahənin məzunlarının, əməkdaşlarının xilaskarı və qayğıkeşidir. Kitabxanaşünaslıq sahəsinin görkəmli alimi olmaqla bərabər Abuzər müəllim ixtisasını, sənətini sevən, onun inkişafına çalışan nəcib bir insan kimi keçmiş SSRİ məkanında və Respublikamızda kitabxanaçılıq fakültəsinin qurucusu kimi tanınmışdır. Azərbaycanda kitabxanaçılıq



ixtisasının formalaşması və inkişafında xüsusi xidməti olan Abuzər müəllim bütün həyatı boyu kitabdan və mütaliədən ayrılmamış, insana məxsus ən böyük mənəvi zövqü, mənəvi ləzzəti kitabdan alan bu görkəmli alimin həyatı, əməlləri və elmi fəaliyyəti kitabxanaçılıq fakültəsinin yaranması və inkişafı ilə əlaqədar olmuşdur.

Professor A.A.Xələfovun həyat yoluna nəzər saldıqda gözlərimiz qarşısında nəhayətsiz bir fəaliyyət, yaradıcılıq canlanır. Onun geniş elm, maarif, təhsil və ictimai fəaliyyətinin miqyası olduqca əhatəlidir. Təsəvvürə onu gətirmək olar ki, ancaq təvazökar, qayğıkeş, xalqını sevən, onun tərəqqisi ilə fəxr edən bir şəxsiyyət bu faydalı işlərin öhdəsindən gələ bilər.

Faktlar təsdiq edir ki, o hələ bundan sonra da belə xeyirxah işlərlə məşğul olacaq. Qarşısına qoyduğu işləri müvəffəqiyyətlə başa vuracaq. Böyük Nizaminin aşağıdakı şer parçası Abuzər müəllimin əməllərinə və fəaliyyətinə çox yaraşır, həmahəng səslənir.

**Nə istərsən düzlükdən, ədalətdən savayı,**
**İradənlə oynamaq havayıdır, havayı.**
**Qayğınla, köməyinlə, eşqinlə bizə yarsan,**
**Müqəddəs əməlinlə dağ üstə dağ qoyarsan.**

Həqiqətən Abuzər müəllimin əsərləri Azərbaycan mədəniyyət tarixi, kitabxanaçılıq işi tarixinin mötəbər mənbələri olduğu kimi, özü və əməli işi ilə orjinal, heç kəsə bənzəməyən, heç kəsi təkrar etməyən bir şəxsiyyətdir.

Professor A.Xələfov hazırda Azərbaycan Respublikasında Kitabxanaşünaslıq elminin inkişafı istiqamətinin müəyyənləşdirilməsi, kitabxana işinin müasir probleminin araşdırılması məsələləri ilə məşğul olur. O, milli dövlətçiliyimiz tərəqqisində kitabxanaların rolunun əvəzsiz olduğunu öz məqalələrində, elmi tədqiqatlarında çıxışlarında dönə-dönə vurğulayır və ölkə rəhbərliyinin diqqətini bu vacib sa-

həyə yönəltməyə çalışmışdır. Azərbaycan Respublikasının milli lideri, ulu öndərimiz H.Əliyevin söylədiyi: «Kitabxana, xalq, millət üçün, cəmiyyət üçün, müqəddəs bir yer mənəviyyat, bilik zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət, xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir» fikrini yüksək qiymətləndirən kitabxanaşünas alim qəti əmindir ki, ulu öndərimiz bu fikri mədəniyyətimizin mühüm tərkib hissəsi olan kitabxana işi haqqında dövlət siyasətinin başlıca amilini təşkil edir. Ona görə də A.Xələfov H.Əliyev və Azərbaycanda kitabxana işi adlı möhtəşəm əsərində H.Əliyevin hakimiyyətə yenidən gəlməsini Azərbaycanın ictimai-siyasi və sosia-iqtisadi mədəni həyatına uğurlu yeniliklər, dəyişikliklər gətirdiyini geniş işıqlandırmışdır.

Abuzər müəllim öz mənliyi və təvazökarlığı ilə gənc nəslə nümunədir. O, mənliyə, cəsarətə və xarakterə xüsusi fikir verir. Cəsarət biliyə, müdrikliyə istinad edən bir fəzilətdir. Öz fikirləri və əqidəsi uğrunda çalışan Abuzər müəllim ünsiyyəti, davranışı və rəftarı ilə seçilən biz gənclərə nümunə olan təvazökar və qayğıkeş bir şəxsiyyətdir.

Ağlın gücündən, zəkanın nurundan istifadə edən Abuzər müəllim kamillik üçün, mənəvi zənginlik üçün daim yol göstərəndir. Fəal həyat mövqeyi Abuzər müəllimə xas olan xüsusiyyətlərdən biri və bəlkə də başlıcasıdır.

Abuzər müəllim fakültəmizdə xoş rəftar və davranış gözəlliyi ilə fərqlənən şəxsiyyətdir. O, öz hərəkətləri, rəftarı, gözəl davranışı ilə başqalarına xoş təsir bağışlayır və onlara bu cəhətləri aşılayır. Məlumdur ki, bu cür xarakter, xüsusiyyətlər insana cəsarət verir. Onunla ünsüyyət bağlayan, onun ağıllı məsləhətlərini eşidən insanlar özünü dərk edir, kamilləşir və inkişaf edir.

Abuzər müəllim öz səmimiyyəti, doğruçuluğu, söz və hərəkətlərinin təbii gözəlliyi ilə bütün kollektivimizin, ümumən universitetimizin rəğbətini qazanmışdır. Abuzər müəllim yaramaz əməlləri, pis rəftarı, çirkin davranışı daim rədd



edir, başqalarının qəlbini yaralayan adamları cəmiyyətə yararsız insan hesab edir.

Abuzər müəllimin sözü və hərəkətləri böyük İran şairi S.Şirazinin aşağıdakı beyti ilə həmahəng səslənir.

**Əgər söz olarsa incə və şirin,**
**O sözü eşidən deyər afərin.**

Məlum olduğu kimi, şəxsiyyətin fəal həyat mövqeyi qazanmasının əsasında onun özünü dərk etməsi, özünü bir şəxsiyyət kimi qiymətləndirməsi, öz həyatı baxışlarının, öz həyat prinsiplərinin işləyib hazırlaması kimi çox mühüm amildir. Bu amillərsiz kamil, təvazökar, qayğıkeş şəxsiyyətdən söhbət gedə bilməz. Bu mənada Abuzər müəllim özünü dərk edən, qiymətləndirən bir şəxsiyyət kimi bizim hamımıza bir nümunədir. Fakültəmizdə işlədiyim 17 il ərzində Abuzər müəllimi daim elmi ilə, əməli fəaliyyəti ilə məşğul olan, inkişaf edən və inkişaf etdirən bir şəxsiyyət və müdrik bir insan kimi tanımışam.

Abuzər müəllimin tələbəsi kimi, ona hörmətim və ehtiramım əbədidir. Mən də görkəmli alimi, 75 illik yubleyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Ona həyatda ən vacib olan uzun ömür, can sağlığı arzulayıram.

*Zəminə İBADOVA,*
*Kitabxanaşünaslıq kafedrasının laborantı*

## AĞSAQQAL MÜƏLLİMİM HAQQINDA ÜRƏK SÖZLƏRİM

Hörmətli müəllimim, kafedra müdirim, elmi rəhbərim, Əməkdar elm xadimi, professor Abuzər Xələfovun bu il 75 illik yubileyi qeyd olunur. Rəhbərim haqqında ürək sözlərimi yazarkən az da olsa neçə illər öncə tələbəlik illərinə qayıtmaq istərdim.

Mən 1991-ci ildə Bakı Dövlət Universitetinə qəbul olunanda Abuzər müəllim dekan vəzifəsində işləyirdi. Tale elə gətirdi ki, hələ tələbə ikən, yəni 1994-cü ildən fakültəmizdə işləməli oldum. Az sonra isə Abuzər müəllim Kitabxanaşünaslıq kafedrasına rəhbərlik etdi və xoşbəxtlikdən sonralar mən də bu kafedrada laborant işlədim. Mən fəxr edirəm ki, Abuzər müəllimlə bir yerdə çalışmışam və çalışıram da. Onun haqqında ürəkdən söhbət açmağı özümə borc bilirəm. Çünki Abuzər müəllim gənclərin düzgün yol seçməsində, elm aləmində uğur qazanıb yüksəlməsində öz köməyini əsirgəmir və çətin məqamlarda onları müdafiə edir.

Etiraf edirəm ki, Abuzər müəllimin mənim də üzərimdə böyük zəhməti var. Mən universiteti bitirdiyim il onun xeyir-duası ilə təhsilimi aspiranturada davam etdirib, onun aspirantı olmaqdan şərəf duydum. Aspiranturanı bitirdikdən sonra da kafedramızın əməkdaşı kimi bu böyük şəxsiyyətlə demək olar ki, hər gün üz-üzə gəlir və ünsiyyətdə oluram.

Kitabxanaşünaslıq kafedrasına rəhbərlik fəaliyyətini ömrün müdriklik yaşında da davam etdirən Abuzər müəllim öz çevikliyi və işgüzarlığı ilə seçilir. O, bu gün də həvəslə, inamla, enerji ilə yazıb-yaradır.



Abuzər müəllim yaxşı müəllim olması ilə yanaşı, istedadlı alim, qayğıkeş insan, vətənpərvər ziyalı və kollektivimizin möhtərəm ağsaqqalıdır.

Abuzər müəllim 75 illik ömrünün çox hissəsini doğma kollektivinin inkişafına və formalaşmasına sərf etmişdir.

Respublikanın elə bir rayonu, kəndi olmaz ki, onun dərs dediyi, yetişdirdiyi insanlara rast gəlməyəsən. Abuzər müəllim sevildiyi qədər də tələbələrini sevir, onlarla fəxr edir.

Onun kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ixtisasına, kitabxanaçılıq sənətinə olan hörməti, sevgisi o qədərdir ki, bu sənətə barmaqarası baxanlara, bu peşəni sevməyənlərə qarşı həmişə mübarizə aparmış, öz barışmaz mövqeyi ilə seçilmiş, prinsipial sözünü demişdir.

Azərbaycanda kitabxana işi tarixinin öyrənilməsində, onun metodologiyasının və tədqiqat metodlarının təkmilləşdirilməsində prof. A.Xələfovun böyük xidmətləri olmuşdur. Onun qələmindən çıxmış yüzlərlə elmi məqalə, kitab, dərs vəsaiti, dərslik, monoqrafiya və başqa əsərlər öz müəllifinə əbədi şöhrət gətirir.

Abuzər müəllim eyni zamanda gözəl ailə başçısıdır və həm ata, həm də baba kimi şərəfli bir ad daşıyır.

**Hörmətli acsaqqal alimimiz bu gün ömrünün müdriklik çağlarını yaşayır. İrəlidə onu neçə-neçə fərəhli illər və elmi uğurlar gözləyir. Abuzər müəllimi yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona cansağlıbı və yaradıcılıq nailiyyətləri arzulayıram!**

**Leyla Qafurova**
Əmakdar Mədəniyyət işçisi,
Prezident təqaüdçüsü

## TANINMIŞ ALİM, PEDAQOQ VƏ İCTİMAİ XADİM

İnsanın yaddaşına əbədilik həkk olan, ömrünün sonunadək şirin xatirələrlə andığı, heç zaman məhəbbəti səngiməyən iki şəxs var. Biri valideyn, biri müəllimdir. *Valideyn bizə həyat bəxş edib, can, nəfəs* veribsə, müəllim bu həyatı dərk etmək üçün, onu mənalı yaşamaq üçün bizə bilik, savad verib. İnsanın kamil bir şəxs kimi formalaşmasında, yetişməsində valideyn və müəllim eyni dərəcədə zəhmət çəkir və məsuliyyət daşıyır. Bu iki şəxs haqqında insanın həmişə deməyə sözü çox olur. Məni də bu gün ilk qolumdan tutan, qayğısını heç vaxt əsirgəməyən, həyatımda xeyirxah əməlləri ilə iz qoyan müəllimim haqqında deməyə sözüm çoxdur. Abuzər müəllim adi insan, adi müəllim deyil. Əgər onun həyat yoluna nəzər salsaq, ömür kitabını səhifə-səhifə vərəqləsək bunun şahidi olarıq.

Qismətinə ayrılıq yazılmış, bəxtinə həsrət düşmüş, tarixə böyük şəxsiyyətlər vermiş sazlı-sözlü ulu Göyçənin ləyaqətli övladı Abuzər müəllimin uşaqlığı ağır müharibə illərinə təsadüf edir. O illərdə nəinki oxumaq, hətta yaşamaq çox çətin idi. İradəli, mətin insanlar o illərdə yaşadı, işlədi və oxudu. Abuzər müəllim də kolxozda adi kolxozçu işləyə-işləyə orta məktəbdə oxudu və təhsilini müvəffəqiyyətlə başa vurdu. Bu azyaşlı kolxozçu həm də əməkdə çoxlarından fərqlənirdi. Bunu 15 yaşında ikən aldıqı «1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyinə görə» medalı da təsdiq edir. Bu onun ilk mükafatı idi və sonrakı nailiyyətlərə, mükafatlara açılan işıqlı yolda parlayan ulduz idi.



Ançaq bu yol o qədər də hamar və düz olmayıb. Bu 70 ildə Abuzər müəllim nə qazanıbsa, böyük zəhmət və səbir sayəsində qazanıb.

1950-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olan Abuzər müəllim elə ilk günlərdən tələbələr içində fərqlənməyə başlayır. Elmi konfranslardakı məruzələri bu gəncin gələcəkdə sanballı bir alim olacağından xəbər verir. Oxuduğu 5 il müddətində diqqət mərkəzində olmuş tələbə universiteti başa çatdıranda müəllim kimi saxlanılır və o ildən, 1955-ci ildən də taleyini doğma universitetlə bağlayır. Gənc mütəxəssis müəllimlik fəaliyyəti ilə bərabər, tədqiqatçı alim kimi də öz üzərində durmadan işləyir, get-gedə təkmilləşir.

Azərbayçanda Kitabxanaçılığın bir elm kimi formalaşmasında Abuzər müəllimin əməyi ölçüyə gəlməzdir. 1962-ci ildən bu fakültənin müstəqillik qazanmasında, fakültədə çalışan müəllimlərin yetişməsində Abuzər müəllimin xidməti danılmazdır. Fakültə yaranarkən ilk dekanı Abuzər müəllim olmuş və bu vəzifədə 25 il çalışmışdır. 1963-cü ildə ilk Kitabxanaşünaslıq kafedrası yarananda da müdiri Abuzər müəllim seçilmiş və bu günə kimi şərəfli və məsuliyyətli vəzifənin öhdəsindən ləyaqətlə gəlir. Azərbaycanda kitabxana işi üzrə ilk namizədlik dissertasiyasının da, ilk doktorluq dissertasiyasının da müəllifi Abuzər müəllimdir. Bu elmin bünövrəsini qoyan da, bu gününü yaradan da, gələcəyinə möhkəm körpü salan da Abuzər müəllimdir.

Hər bir elm sahəsini tanıdan, inkişaf etdirən, yeniliklər yaradan, onun başında duran, cəfasını çəkən mütəxəssis alimləridir. Kitabxanaşünaslıq elmi də qazandığı bütün uğurlara görə bu sahənin alimlərinə və birinci növbədə Abuzər müəllimə borcludur. O təkçə Azərbayçanda deyil, bütün sovetlər birliyi

ölkələrində kitabxana işi ilə bağlı doktorluq dissertasiyası müdafiə etmiş ilk alimlərdəndir. Bu bütün Azərbaycan üçün baş ucalığıdır.

Hələ 60-cı illərin əvvəllərində nəşr etdirdiyi «Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)» və «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» monoqrafiyaları elmi ictimaiyyət tərəfindən bəyənilmişdi. Sonunçu monoqrafiya əsasında namizədlik dissertasiyasını yazır. Tədqiqatçılıq adi və asan iş deyil. O xüsusi istedad, səbir və dözüm tələb edir. Abuzər müəllim bütün bu keyfiyyətlərə malik gözəl tədqiqatçı alimdir. Onun tədqiqatları nəticəsində 60-çı illərdə respublikamızda kitabxana işi tarixinin və nəzəriyyəsinin problemləri üzrə elmi nəticələr və müddəalar formalaşır ki, bunlar da Azərbayçan kitabxanalarının mahiyyətini, məqsədini və iş metodlarını açıb göstərir. 70-çi illərdə yazdığı əsərlərdə o kitabxanaşünaslığın humanitar elm kimi ümumiləşməsi və metodoloji problemlərinin araşdırılmasına əsas diqqət yetirir. Əhalinin mütaliə mədəniyyətinin artırılmasını kitabxanaların qarşısında əsas məsələ kimi qoyur.

1974-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında çap etdirdiyi «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)» adlı sanballı elmi əsərində kitabxana işini, kitabxana tarixini ümumilikdə Azərbaycan tarixinin, Azərbaycan mədəniyyətinin bir qolu kimi, onlarla sıx əlaqədə təhlil edir. Bu əsər A.Xələfovun 1975-ci ildə uğurla müdafiə etdiyi doktorluq dissertasiyasının özülünü təşkil edir. Bu elə Azərbayçanda kitabxana işinin böyük uğuru, zirvəsi demək idi.

Abuzər müəllim bu uğurlarla kifayətlənmədi. Elmin çətin və şərəfli yolu ilə daha inadla irəlilədi və bir-birindən möhtəşəm zirvələr fəth etdi. 1980-cı illərdə respublikanın rəsmi mətbuat orqanlarında və BDU-nun elmi əsərlərində dərc etdirdiyi məqalələrdə kitabxana işinin müasir zamanda



mövcud problemlərini təhlil edir, uzaq gələcəyinin inkişaf istiqamətlərini müəyyən edirdi. O öz elmi araşdırmalarında Azərbaycanda kitabxanaların yaranmasının tarixi köklərinə, təcrübəsinə müraciət edərək, kitabxanaların inkişafını xalqımızın mənəvi mədəniyyətinin inkişafı ilə sıx əlaqədə öyrənir və varislik məsələsini diqqət mərkəzində saxlayırdı. Müasir kitabxanaşünaslığın əsas müddəalarından biri olan «keçmişi öyrənməklə gələcəyi yarat» müddəasına həmişə sadiq qalmışdır. Məhz belə məqsədyönlü tədqiqatların nəticəsində 1986-çı ildə alimin «Azərbaycanda kitabxana işinin tarixindən» adlı kitabı işıq üzü görür. Bu kitabda ilk dəfə olaraq qədim dövrlərdə və orta əsrlərdə Azərbaycanda kitabxanaların yaranmasının tarixi kökləri, Qədim Albaniya dövründən başlamış XVII əsrədək kitabçılıq və kitabxanaçılıq işinin inkişaf yolu haqqında məlumat verilir. Qədim tarixi mənbələri araşdırmaq, müasir ədəbiyyatla müqayisə etmək, mühüm faktları dəqiqliklə göstərmək uzun və davamlı zəhmət tələb edən bir işdir. Zəhmətkeş alim bu işi məsuliyyətlə görmüş və zəhmətinin bəhrəsi ilə kitabxanaçılıq elminə gözəl töhfə vermişdir.

Bütün elm sahələrinə, ixtisaslara aid kitabları sevə-sevə qoruyan, təbliğ edən kitabxanaçıdır. Biz kitabxanaçılar başqa mütəxəssislər üçün çap olunan məlumat kitablarına həsədlə baxar, qibtə hissi keçirərdik. Nəhayət bizim də arzumuz kerçəkləşdi. 1986-cı ildə «Kitabxanaçının məlumat kitabı» işıq üzü gördü.

Bu məlumat kitabının tərtibçilərindən biri də Abuzər Xələfovdur. Kitabda toplanmış materiallar kitabxana işçilərini kitabxana-biblioqrafiya və informasiya işinin əsas anlayışları ilə tanış edir, çap əsərlərindən ictimai istifadənin təhkimində kitabxanaların funksiyalarının komplektləşdirilməsi, soraq-biblioqrafiya aparatı, oxucularla işin müasir

mütərəqqi üsulları haqqında kitabxanaçılar məlumat ala bilərlər. Bu kitab kitabxanaçıların stolüstü kitabına çevrilmişdir.

Dövr, zaman dəyişdikcə insanlar da, onların zövqü, tələbi də dəyişir, yeniləşir, müasir zamana uyğunlaşır. Abuzər müəllim hər zamanın tələbini ödəyə bilən, elmi fəaliyyəti ilə zamanı təfəkkürü ilə uyğunlaşdıra bilən alimdir. 90-cı illərdə Abuzər Xələfovun elmi-tədqiqat fəaliyyəti Azərbaycan respublikasının müstəqilliyi və suverenliyi şəraitində keyfiyyətcə yeni tarixi biçimdə meydana çıxdı.

Alimin bu illərdə çap olunmuş «Müasir şəraitdə kitabxana işinin nəzəri və təcrübi metodoloji əsasları haqqında», «Müasir dövrdə kitabxanaların sosial funksiyası» və başqa məqalələrində cəmiyyətdə baş verən sosial-iqtisadi və mədəni proseslərin elmi şəkildə izahı əsasında Azərbaycanda kitabxana işinin nəzəriyyə və təcrübəsinin inkişaf konsepsiyası hazırlanmışdır. 150-dan artıq elmi əsər, monoqrafiya, kitab, dərslik və məqalələr müəllifi olan alimin bütün əsərlərində bir fikir əsas yer tutur. «Hər hansı bir ölkənin, hər hansı bir xalqın tarixi inkişafında mühüm rol kitabxanalara məxsusdur. Kitabxana bütün dövrlərdə tərəqqiyə can atır, öz mahiyyətinə görə cəmiyyətin inkişafında əsas amil və mənbə kimi çıxış edir. Yalnız intellektuallığı və vətənpərvərliyi çatışmayan adamlar kitabxana işinin əhəmiyyətini qiymətləndirməyə bilərlər». Bu çox doğru, ədalətli və qiymətli fikrə görə alimə minnətdarlığımızı bildirirəm.

Abuzər müəllimin elmi fəalliyəti haqqında saatlarla danışmaq olar. Onun son əsəri olan «Kitabxanaşünaslığa giriş» dərsliyi haqqında bir neçə kəlmə demək istəyirəm. Uzun illərdən bəri həm kitabxanaçılıq ixtisası üzrə təhsil olan tələbələr, həm də kitabxanaçılar öz ana dillərində sanballı belə bir dərsliyin



olmamasından əziyyət çəkirdilər. Belə böyük bir ehtiyacı ödəyə biləcək dərsliyin araya-ərsəyə gəlməsi böyük zəhmət və məsuliyyət tələb edirdi. Bu məsuliyyəti də Azuzər müəllim öhdəsinə götürdü və müvəffəqiyyətlə başa çatdırdı. Bütün kitabxanaçılar adından ona bir daha minnətdarlıqımı bildirirəm. Abuzər müəllim həm də gözəl pedaqoq, alicənab insandır. Mən onun ilk tələbələrindənəm və müəllimlik fəaliyyətinə başladığı ilk vaxtlardan tanıyıram və gözəl müəllim olduğunun şahidiyəm. O tələbəyə adi gözlə baxmazdı. Hər bir tələbəyə kamil bir şəxsiyyət kimi baxar, tələbənin mənafeyini həmişə, hər yerdə qızğınlıqla müdafiə edərdi. Ona görə də çox böyük bir ziyalı qrupunun məhəbbətini və rəğbətini qazanmışdır. Bu gün respublikanın bütün bölgələrində Abuzər müəllimi sevən, qiymətləndirən minlərlə tələbəsi var. Bu gün onunla çiyin-çiyinə işləyən müəllimlərin hamısı Abuzər müəllimin yetirmələridir.

Abuzər müəllim təkçə alim və pedaqoq deyil, həm də fəal ictimai xadimdir. O, 1960-1984-çü illərdə Azərbaycan Mədəniyyət Nazirliyi yanında İdarələrarası Kitabxana Şurasına başçılıq etmiş, 1976-1989-çu illərdə isə Respublika Mədəniyyət Nazirliyi yanında Dövlət İdarələrarası Kitabxana Komissiyasının üzvü seçilmişdir. Kitabxana Şurasının keçirdiyi çoxsaylı konfrans, müşavirə, seminar, dəyirmi masa və disputlarda fəal iştirak etmiş dəyərli mülahizələri ilə, yüksək elmi mədəniyyəti ilə fərqlənmişdir. A.Xələfov 70-80-cı illərdə Bakı şəhəri Yasamal rayon Xalq Deputatları İcraiyyə Sovetinin deputatı kimi mədəniyyət komissiyasına rəhbərlik edərək, şəhərdə mədəni-maarif işinin canlandırılması sahəsində əhəmiyyətli rol oynamışdır. 40 ildən artıqdır ki, kitabxana işi problemlərinə dair beynəlxalq miqyasda keçirilən simpoziumlarda, konqreslərdə Azərbaycan adını ləyaqətlə təmsil edir. 1999-cu ildə onun təşəbbüsü

ilə Azərbaycanda Respublika Kitabxanaçılarının ilk peşəkar ittifaqı Azərbaycan Kitabxanaçılar cəmiyyəti yaradıldı. Yeni cəmiyyətin prezidenti də Abuzər müəllim seçildi. Uzun illərdən bəri Azərbaycanda çıxan «Mədəni-maarif işi», «Kitablar aləmində» jurnallarının redaksiya heyətinin üzvü olmuş, eyni zamanda Azərbaycan Sovet ensiklopediyasının elmi məsləhətçisi olmuşdur.

A.Xələfovun Respublika kitabsevərlər Cəmiyyəti Rəyasət heyətinin üzvü və «Kitab» Xalq Universitetinin rektoru kimi də xidmətləri əvəzsizdir.

Hamıya məlumdur ki, sovetlər birliyi dağıldıqdan sonra bütün respublikalar müstəqillik qazandılar və öz müstəqil qanunlarını yazıb həyata keçirməyə başladılar. Azərbaycanda da «Kitabxana işi haqqında» yeni qanunu hazırlayan işçi qrup yaradıldı və bu qrupun rəhbəri Abuzər müəllim seçildi. Qanun yüksək səviyyədə inkişaf etmiş ölkə kitabxanalarının iş təcrübəsini qanunvericilik təcrübələrini öyrənməklə, heç bir ölkə qanunlarını təkrar etmədən öz ölkəmizin milli mənəvi xüsusiyyətlərini əks etdirən bir şəkildə işləndi və qəbul olundu. Bunu hətta rusiyalı həmkarlarımız da öz çıxışlarında, yazılarında vurğulamışlar. Burda da Abuzər müəllimin xidməti ilkin səbəbdir.

Bütün insanlar dünyaya eyni cür gəlirlər, eyni cür gedirlər. Amma eyni həyat yaşamırlar. Məncə hər kəs layiq olduğu həyatı yaşayır. Yəni ağlına, idrakına, bacarığına, qabiliyyətinə görə özünə həyat quranlara tanrı da həmişə yardımçı olur. Mənalı ömür yaşamaq, vətənə əsil vətəndaş olmaq hər kəsə nəsib olmur. Abuzər müəllim məhz belə mənalı ömrə mənsub olan əsl vətəndaşdır. O vətənini, xalqını həmişə, hər yerdə ləyaqətlə təmsil edib. Uzaq və yaxın xaricdə, beynəlxalq təşkilatlarda, müxtəlif yığıncaqlarda öz sözü olan, fikri, ideyası ilə dünya razılaşan bir alim əsl vətəndaş



ömrü yaşayır. BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü Abuzər müəllimlə həm bütöv Azərbaycan xalqı və həm də sadə sənət sahibləri olan biz kitabxanaçılar fəxr edirik. Belə mötəbər bir Akademiyada bütün elmlərə yolun işığı, ziyası olan kitabxanaçının seçilməsi bu sənətin aliliyini və mühümlüyünü bir daha sübut edir. Abuzər müəllim öz sənəti ilə fəxr edən, bu sənətin dəyərliliyini bütün ömrü boyu sübut edən bir alimdir, vətəndaşdır.

Deyirlər dünyanın ən varlı və xoşbəxt insanı çox dostu olandır. Bu mənada Abuzər müəllim ən varlı və xoşbəxt insandır. Əsl mənada dostluq etmək asan iş deyil. Bunun üçün ən ali insani keyfiyyətlərə, ən gözəl bəşəri hisslərə malik olmaq lazımdır. Abuzər müəllimin dostlarının sayını nəzərə alsaq onun məhz belə xüsusiyyətlərə malik olduğunu təsdiq edərik. Bir də deyirlər ki, dostunu göstər kim olduğunu deyim. «Mənalı ömür yolu» kitabında Abuzər müəllim haqqında yazılan səmimi dost yazılarının müəlliflərinin kimliyi onun əsil simasını bir daha açıb göstərir. Burada müxtəlif elm, sənət, əqidə sahibləri, ən yüksək titul sahibləri, ən adi, sadə insanların yazdıqı ürəkdən gələn səmimi sözlər Abuzər müəllimin hər kəslə dil tapa bilən, ünsiyyət yarada bilən, qəlblərə, ürəklərə hakim ola biləcək xüsusiyyətlərə mənsub bir insan olduğuna dəlalət edir.

Abuzər müəllim həm də gözəl ailə başçısı, qayğıkeş atadır. Mənçə elmdə, sənətdə ən böyük uğurlar qazanan, lakin ailədə uğursuzluqa düçar olanlar sözün tam mənasında kamil insan ola bilməzlər. Kamil insan, bütöv şəxsiyyət həm elmdə, həm sənətdə və həm də ailədə müsbət uğurlar əldə edənlərdir. Abuzər müəllim Azərbaycan elminə verdiyi qədər də Azərbaycan mənəviyyatına, Azərbaycan gələcəyinə töhfələr vermiş insandır. Öz kökü, soyu ilə, xeyirxah əməlləri ilə həmişə xüsusi hörmət qazanmış Xələflilər nəslinin ən

ləyaqətli davamçıları bu gün Abuzər müəllimin evində böyüyür və artır. Bütün milli-mənəvi xüsusiyyətləri özündə cəmləşdirən Abuzər müəllim kimi bir atadan, babadan tərbiyə alan nəsil inanıram ki, Azərbaycan tarixində, mədəniyyətində öz ata-babalarına layiq iz qoyacaqlar. Layiqli vətədaş, övlad yetişdirən alim ən böyük hörmətə və ehtirama layiqdir.

Mən böyük bir ordu adından, ziyalı təbəqəsinin ən az təminatlı, ən böyük mənəviyyatlı, sadə, təmənnasız əməyini heç kəsdən əsirgəməyən kitabxanaçılar adından həmkarımız, işlədiyimiz, sevdiyimiz ixtisası öz elmi, əməyi ilə zirvələrə qaldırmış alimimizi ömrünün müdrik yaşı münasibətilə ürəkdən təbrik edir, ona can sağlığı və elmi uğurlar arzulayıram. Abuzər müəllimin əməyi dövlət tərəfindən lazımınça qiymətləndirilib. Layiq olduğu bütün mükafatları alıb. Mənçə ən qiymətli mükafatı sevdiyi sənətin sahiblərinin və tələbələrinin ona olan məhəbbətidir. El məhəbbətini qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ikiqat çətindir. Mən Abuzər müəllimin bütün uğurlarının başında duran bu məhəbbəti sonadək qoruyub saxlamağı və sayının və gücünün günbəgün artmasını arzulayıram.

**Füzurə QULİYEVA**
*F.Köçərli adına Respublika*
*Uşaq Kitabxanasının direktoru,*
*Əməkdar mədəniyyət işçisi*

## GÖRKƏMLİ ALİM HAQQINDA BİR NEÇƏ SÖZ

Görkəmli alimimiz Abuzər Xələfov haqqında fikir söyləmək həm asandır, həm də çətin. Ona görə asandır ki, onun barəsində söz açmaq insanı fərəhləndirir, düşündürür, zənginləşdirir. Ona görə çətindir ki, onun zəhmətini, işgüzarlığını, elmi fəaliyyətini kiçik bir yazıda tam əhatə etmək mümkün deyil.

Kitabxana işinin elə bir sahəsi yoxdur ki, professor A.Xələfov onun haqqında öz elmi mülahizələrini, fikirlərini söyləməmiş olsun. Məhz bu baxımdan onun elmi fəaliyyəti həmişə böyük maraq doğurmuş və diqqət mərkəzinə çevrilmişdir.

Görkəmli alimin ən böyük üstünlüklərindən biri də ondadır ki, bütün fəaliyyəti boyu yazıb-yaratmaqdan ayrılmamış, kitabxanaşünaslığın müxtəlif sahələrinə dair sanballı əsərlər yazaraq elmi ictimaiyyətin ixtiyarına vermişdir. Onun yazdığı hər bir əsər milli kitabxanaşünaslıq elminin formalaşmasına müsbət təsir göstərmişdir.

Böyük iftixar hissi ilə deyə bilərik ki, onun qələmindən çıxmış bütün əsərlər kitabxana işinə dair ən qiymətli və ən mötəbər bilik xəzinəsidir.

Professor A.A.Xələfov görkəmli bir alim, tədqiqatçı və pedaqoq kimi həm də ali kitabxanaçılıq təhsilinin təkmilləşməsinə, inkişafına və kitabxanaçı kadrların yetişdirilməsinə öz töhfəsini vermişdir. Hazırda onun yetirmələri olan 5 mindən artıq mütəxəssis respublikamızın müxtəlif kitabxa-

nalarında səmərəli fəaliyyət göstərir, müəllimlərinin şərəfini layiqincə doğruldurlar.

Səriştəli bir təşkilatçı kimi tanınan professor A.A.Xələfovun təşkilatçılıq məharəti sayəsində Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsin böyük inkişaf yolu keçmiş, təkmilləşmiş, Azərbaycanın müstəqilliyi şəraitində tədris işinə yeni keyfiyyət üstünlükləri gətirilmişdir. Alim doğtma fakültənin şərəfini, nüfuzunu həmişə uca tutmuş, kollektivin funiversitet üzrə daim qabaqcıllar cərgəsinə çıxmasına nail olmuşdur.

Professor A.Xələfov həmişə yüksək biliyə, elmi səviyyəyə, böyük təcrübəyə malik olan şəxsləri Kitabxanaçılıq-informasiya fakültəsinə cəlb etmiş və tədrisin keyfiyyətini təkmilləşdirmişdir. Görkəmli təşkilatçı alim eyni zamanda müntəzəm olaraq müəllim kadrlarının seçilib yerləşdirilməsinə və formalaşmasına böyük diqqət yetirmişdir. Bunu xatırlamaq kifayətdir ki, indiyə qədər onun elmi rəhbərliyi ilə Kitabxanaçılıq-informasiya fakültəsində kitabxanaşünaslıq elmi üzrə 20-yə yaxın doktorluq və namizədlik dissertasiyası müvəffəqiyyətlə müdafiə edilmişdir. Bu da fakültənin elmi və tədris səviyyəsinin artmasına, dərslərin keyfiyyətcə yaxşılaşdırılmasına mühüm təsir göstərmişdir.

Hörmətli alimimiz A.Xələfov bizim F.Köçərli adına Respublika Uşaq Kitabxanasınının da yaxın dostudur. Biz həmişə onun qayğısını, diqqətini üzərimizdə hiss edirik. A.Xələfov metodik tövsiyələrəin hazırlanmasında işlərimizin günün tələbləri səviyyəsində qurulmasında bizə həmişə dəyərli zəruri göstərişlər, elmi təkliflər, faydalı məsləhətlər verir. Onun zəhmətini heç vaxt unutmaq olmaz.

Kitabxanaşünas-alim A.Xələfov təkcə Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də tanınmış görkəmli bir şəxsiyyət kimi ad qazanmışdır. O, Sovetlər Birliyi məkanına daxil olan, hazırda müstəqil fəaliyyət göstərən bütün respublikaların mədəniyyət institutları ilə müntəzəm olaraq əlaqə saxlamış, kitabxanaçılıq elmi sahəsində bir sıra maraqlı fikir



mübadilələri aparmış, geniş dostluq münasibətləri yaratmışdır.

Ötən illər ərzində görkəmli alimimizin elmi-pedaqoji fəaliyyəti geniş vüsət almış və zənginləşmişdir. Qoy bu üstün xüsusiyyətlər onu həmişə elmin ən yüksək zirvələrinə ucaltsın!

Möhtərəm ağsaqqalımız professor Abuzər Xələfovu 75 illik yubileyi münasibətilə kitabxanamızın kollektivi adından ürəkdən təbrik edir, ona üzün ömür, cansağlığı və yeni-yeni uğurlar arzulayıram!

*Sara İBRAHİMOVA,*
*Bakı Dövlət Universiteti*
*Elmi kitabxanasının direktoru*

## BACARIQLI ELM VƏ TƏHSİL TƏŞKİLATÇISI

«Bakı Dövlət Universiteti, Kitabxanaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin yaradıcısı, bu sahədə elmi məktəb yaratmış, tanınmış, alim, bacarıqlı elm və təhsil, təşkilatçısıdır». Azərbaycan Respublikasının təhsil naziri, fizika-riyaziyyat elmləri doktoru, professor, əməkdar elm xadimi Misir Mərdanovun Abuzər Xələfov haqqında bu fikri alimin yaradıcılıq yolunu öyrənmək, tədqiq etmək üçün dəyərli tövsiyədir.

1950-1955-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsində təhsil almış prof. A.Xələfovun kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim saxlanılması universitet rəhbərliyinin öz məzunlarına diqqəti və yetişən gəncliyin müharibədən sonrakı quruculuq illərində dövlətin xarici və daxili siyasətinin kütlələrə çatdırılması, yeni insanın tərbiyə edilməsi işinə cəlb edilməsi demək idi.

«Kitabxana fondunun təşkilinin bəzi məsələləri» adlı kitabın nəşri, prof. A.Xələfovun ilk tədqiqat əsəri kimi, artıq Azərbaycan kitabxanaşünaslıq elminin təməlinin qoyulduğunu göstərirdi. Bu baxımdan, qeyd etmək lazımdır ki, kitabxana və kitabxanaşünaslıq elmi nə dünən nə də bu gün yaranıb. Bu elmin kitab nəşri qədər, sivil dünyamızda yaşayıb-yaratmış ilk alimlərin yaşı qədər tarixi vardır. Bu tarix minilliklər, qərinələrdir. Elm inkişaf etdikcə yeni cərəyanlar, yeni ideyalar meydana gəlir. Dünyəvi biliklərin sistemləşdirilib, oxucuya çatdırılması da kitabxanaçıdan, o vaxtkı kitab qoruyucularından maksimum bilik və bacarıq tələb edirdi. Elmə, biliyə olan bu tələbat sovetlər dönəmində bir nömrəli məsələ idi. Kommunizmin yeni insanını yetişdirmək üçün kitabxanaçıların zəhməti elm adamlarının fəaliyyətindən heç də az deyildi, bəlkə də, çox idi, çünki istər elmi, istərsə də kütləvi informasiyanın xalqa, xalqın düşüncəli ziyalı təbəqəsinə vaxtında çatdırmaq məsuliyyəti məhz kitabxanaçının üzərinə düşürdü. Bu zaman gənc A.Xələfovun **1960**-cı ildə nəşr olunmuş «Azərbaycanda kitabxana işinin tarixindən (**1870-1920**)» kitabı və **1961**-ci ildə «Azərbaycanda kitabxana işinin tarixindən (**1920-1932**-ci illər)» mövzusunda yazdığı və uğurla müdafiə etdiyi dissertasiya işi kitabxanaşünaslıq elminin bir sistem kimi tədqiqinə və tətbiqinə geniş meydan açır. Bununla da, keçən əsrin **60**-cı illərində A.Xələfov məktəbi yaranır və milli- mənəvi dəyərlərə əsaslanan bir özül üzərində inkişaf edib, daha da təkmilləşir.

Keçən vaxt ərzində A.Xələfovun çap olunmuş kitabları elmi əsərləri, onun elmi pedaqoji və ictimai fəaliyyəti Azərbaycan Respublikasının ictimai, siyasi həyatında mühüm rolu olan Vətəndaşlara, Vətənə layiqli övlad kimi böyüyüb, pərvazlanan insanlara bir örnək olmuşdur.

Dünyəvi elmlər inkişaf etdikcə, informasiyanın istifadəçiyə çatdırılması üsulları da təkmilləşir. Bu yeniləşmə, bu tərəqqi prof.A.Xələfovun elmi və əməli yaradıcılığının yeni mərhələsi olur. Məhz **1999**-cu ildə universitetin kitabxanaçılıq fakültəsinin nəzdində onun rəhbərliyi ilə kitabxana proseslərinin kompüterləşdirilməsi elmi-tədqiqat laboratoriyasının açılması qloballaşan dünyada yaranan vətəndaş cəmiyyətində Azərbaycanın informasiyavermə və informasiyaalma fəaliyyətini tənzimləyən kadrların yetişməsində dövrün nəbzini tutmuş və keçən əsrin **60**-cı illərində yaranmış A.Xələfov məktəbinin davamı kimi qiymətləndirmək lazımdır.

Ömrünün zirvə çağını yaşayan prof. A.Xələfov bir çox dövlət mükafatlarına, fəxri adlara layiq görülsə də, nüfuzlu

təşkilatların fəxri üzvü seçilsə də, bu gün onun elmi, əməli fəaliyyətini davam etdirən, təkmilləşdirərək inkişaf etdirən yüzlərlə dünənki tələbə bu gün onunla çiyin-çiyinə çalışan əməkdaşlar və Azərbaycanın ziyalıları müəllim, alim, ziyalı A.Xələfovun həyatda qazandığı ən böyük uğuru, həyatının qayəsidir.

**Solmaz BABAŞOVA,**
*«Bakı Universiteti» qəzetinin əməkdaşı*

## ÖMRÜN İLMƏSİNƏ DÜZÜLMÜŞ NAXIŞLAR

Bakı Dövlət Universitetinin divarları arasında yüzlərlə insan Azərbaycan elmi, təhsili və mədəniyyətinin çiçəklənməsi, inkişafı yolunda ömürlərini şam kimi əridərək adlarını tarixin səhifələrinə yazmışlar. Bu qədim elm ocağında elm, təhsil, mədəniyyət sahəsində sayılıb seçilən, cəmiyyətimizə zehni, bilik və təcrübəsi ilə fayda verən və gənclərimizə örnək olan insanlar çalışmış, bu gün də çalışmaqdadırlar. Azərbaycan elminin, təhsilinin, ədəbiyyatının, mədəniyyətinin sütunlarından olan akademiklər Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər Cəfərov, Həmid Araslı, görkəmli yazıçı, ictimai xadim Mir Cəlal Paşayev, professorlar Cəfər Xəndan, Əli Sultanlı və onlarla başqalarının yaratdıqları məktəbin davamçıları olanlar da, bu gün həmin yolla gedərək, öz məktəblərini yaratmışlar.

Belə insanlardan biri haqqında söhbət açacağıq. Ömrünün 75-ci baharını arxada qoymuş Abuzər Xələfov yarım əsrdən çoxdur ki, universitetin bu doğma divarları arasında öz tale kitabını yazır.

1950-ci ildə Bakı Dövlət Universitetinin kitabxanaçılıq şöbəsinə daxil olanda, Abuzər müəllim, taleyin ona yazdığı qismətdən xəbərsiz idi. Yalnız öz zəhməti, biliyi və bacarığı ilə təkcə respublikamızda deyil, keçmiş Sovetlər birliyində, Balkanyanı və Yaxın Şərq ölkələrində tanınmış milli mədəniyyətimizin görkəmli tədqiqatçılarından və təbliğatçılarından biri olan professor A.Xələfov, bu gün Beynəlxalq Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professordur. Bütün şüurlu həyatını elmi-pedaqoji işə həsr edən alim, qiymətli tədqiqat əsərlərinin, nəzəri və elmi

problemlərə aid monoqrafiyaların, dərsliklərin və dərs vəsaitlərinin müəllifidir.

Professor A.Xələfov zamanın nəbzini tutmağı bacaran, respublikamızda tanınmış, sayılıb-seçilən alimlərdəndir. O, bu səviyyəyə ancaq özünün səy və bacarığı sayəsində gəlmişdir. Respublikamızda kitabxana işinin tarixi sahəsində ilk elmlər doktoru, ölkəmizdə kitabxanaşünasılq elmi məktəbinin banisi olmaq, məhz A.Xələfova nəsib olmuşdur. Çox zəngin həyat yolu keçmiş alim, elmimizin, təhsilimizin inkişafındakı xüsusi xidmətlərinə görə xalqının mədəniyyət tarixinə əbədi daxil olmuşdur.

Bakı Dövlət Universitetinin yarandığı vaxtdan bu günə kimi burada çalışan alimlərin səy və təşəbbüsü sayəsində universitet daima inkişafda olmuş, elmi, təhsili və tədrisi formalaşmışdır. Abuzər müəllim məhz belə elm adamı və təhsil qurucusudur. Onun təşəbbüsü və böyük əməyi sayəsində ilk dəfə olaraq Bakı Dövlət Universitetində müstəqil kitabxanaçılıq fakültəsi yaradılmış, kitabxanaşünaslıq müasir təhsilin bir sahəsi kimi formalaşmış və inkişaf etmişdir. Alimin mühüm xidmətlərindən biri də, onun yüksək ixtisaslı kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında əsas olan tədris planlarının yeniləşdirilməsinə, təkmilləşdirilməsinə, xüsusi əhəmiyyət verməsi və tədris prosesində ixtisas fənlərinə üstünlük verilməsinə tərəfdar olmasıdır.

O, universitetlərin kitabxanaçılıq fakültələri üçün tərtib edilmiş və SSRİ Xalq Təhsili Komitəsi tərəfindən təsdiq edilmiş tədris planının müəlliflərindən biridir. Respublikamızda ali təhsilli peşəkar kitabxanaçı-biblioqraf kadrların hazırlanması sahəsində diqqəti cəlb edən indiki inkişaf səviyyəsinin əldə edilməsi də, məhz müəyyən dərəcədə Abuzər müəllimin adı ilə bağlıdır. Onun öz sənətinə sadiqliyi, peşəsinə vurğunluğu, həmişə prinsipial mövqedən çıxış etməsi, ali kitabxanaçılıq təhsilinin ikinci dərəcəli bir ixtisasa çevrilməsinə göstərilən bütün meylləri kənarlaşdırmışdır. Belə bir mübariz mövqeyin nəticəsidir ki, hazırda kitabxanaçılıq



fakültəsi elmi-pedaqoji kadr potensialına, tədris prosesinin təşkili səviyyəsinə və keyfiyyətinə görə universitetimizin fərqlənən və nüfuzlu fakültələrindən birinə çevrilmişdir.

A.Xələfovun tədqiqatları Azərbaycanın mədəniyyət tarixinin müəyyən sahələrini öyrənmək baxımından çox qiymətlidir. Onun tədqiqatlarında qədim dövrlərdən başlayaraq bu günümüzədək Azərbaycanda kitabxanaşünaslığın keçdiyi inkişaf yolu öyrənilmiş, bu inkişafa təkan verən alimlərin fəaliyyəti araşdırılmış, qarşıdakı perspektivlər *müəyyənləşdirilmişdir. Alim kitabxana işinin tarixi ilə bağlı* təcrübəni öyrənməklə yanaşı, inkişafın qanunauyğunluqlarını müəyyənləşdirmiş, fakt və dəlilləri dövrün ictimai-siyasi hadisələri fonunda, tarixilik və elmilik prinsiplərinin tələbləri baxımından qiymətləndirmiş, müasir dövrdə kitabxana işinin təşkili və kitabxanaşünaslıq elmi ilə bağlı dəyərli fikirlər söyləmiş, nəzəri konsepsiyalar irəli sürmüşdür.

Onun tədqiqatları mədəniyyət tariximizin müəyyən səhifələrini öyrənmək baxımından çox qiymətlidir. Burada qədim dövrlərdən başlayaraq bu günümüzədək respublikamızda kitabxanaşünaslığın keçdiyi inkişaf yolu öyrənilmiş və sistemləşdirilmişdir.

O, öz tədqiqatlarının nəticələrini təcrübəyə tətbiq edilməsinə böyük əhəmiyyət verir. Elmi qənaətlərini, fikir və mülahizələrini öz təcrübələrində təsdiqləyir. Ömrünün böyük hissəsini, yaradıcısı olduğu fakültənin inkişafına, müasir tələblərə cavab verən kitabxanaçı kadrların hazırlanması işinə həsr etmiş alim, haqlı olaraq respublikamızda çalışan beş mindən artıq yüksək ixtisaslı kadrlar ordusunun müəllimi adlandırılır. Bu gün Azərbaycanda kitabxanaçı kadrların orta nəslinin elə bir nümayəndəsi tapılmaz ki, o, "Professor Abuzər Xələfovun məktəbi"ni keçməmiş olsun. Onun mühazirələrindən, dərsliklərindən bəhrələnməmiş olsun. Alimin yarım əsrdən çox elmi, ictimai və pedaqoji fəaliyyəti dövründə minlərlə yüksək ixtisaslı kitabxanaçı kadrlar yetişmişdir ki, onlar da hazırda mədəniyyətimizin inkişafına

xidmət edirlər. Sevindirici haldır ki, bu gün cəmiyyətimizin həyatında fəal rolu olan, yüksək intellektual səviyyəli kitabxanaçılar ordusu var və bu ordunun önündə istedadlı və zəhmətkeş alimimiz olan Abuzər Xələfov durur.

Professor Abuzər Xələfovun öz xalqı qarşısında xidmətləri böyükdür və alimin xidmətləri həmişə dövlət tərəfindən yüksək qiymətləndirilmişdir.

Onun əməyi, istedadı, şəxsiyyəti – fəxri adlar, medallar, fəxri fərmanlar, "Şöhrət" ordeni və sairə ilə qiymətləndirilmişdir. Bunlar hamısı onun halal zəhmətinə verilmiş qiymətdir. Lakin, Abuzər müəllimin ən böyük mükafatı, ona doğma olan universitet kollektivinin sevgi və istəyidir. Abuzər Xələfov milli əqlimizin, milli-mənəvi dəyərlərimizin, əxlaqi saflığımızın, bütövlüyünü yaşatmağa çalışan ziyalılarımızdandır. Hər sözü ürəkdən gələn, təmtəraqlı sözləri sevməyən, obyektiv, prinsipial olan, həmişə öz mövqeyində durmağı bacaran şəxsiyyətdir. Abuzər müəllim xalqımızın, millətimizin, təhsilimizin, mədəniyyətimizin inkişafında, adət-ənənələrimizin və dini dəyərlərimizin qorunub saxlanmasında xüsusi xidmətləri olan, böyük elm təşkilatçılarındandır. Abuzər müəllim xoş əməllər sahibi olan, həmişə xeyirli məsləhətlər verməyi bacaran, öz məsləhətləri ilə çoxlarının dadına çata bilən el ağsaqqalıdır.

Bu günlərdə professor Abuzər Xələfovun 75 yaşı tamam olur. Ömrünün müdriklik və kamillik dövrünü yaşayan Abuzər müəllim bütöv bir şəxsiyyətdir. Onun həyatı, şəxsi və ictimai fəaliyyəti, insanlara məhəbbəti –qayğısı və səmimiyyəti, yeni nəsil üçün əsl nümunə məktəbidir. Qəlbində Vətən sevgisi, torpaq nisgili, yurd həsrəti yaşadan vətəndaş-ziyalıdır.

Abuzər müəllimə xoşbəxt insan demək olar, çünki o, həyatın eniş-yoxuşları ilə addımlayarkən heç zaman büdrəməmişdir. Ona görə ki, çətinliyə düşəndə hər zaman nurlu insanlar onun köməyinə çatmışdır. Elə ona görə də bugünkü uğurlarına görə öz müəllimlərini minnətdarlıqla xatırlayan



Abuzər müəllim, bütün ömrü boyu müəllimlərinə oxşamağı, onlar kimi xeyirxah olmağı özünün mənəvi borcu hesab etmişdir.

Abuzər müəllimin ünvanına söylənilmiş xoş sözlər onun halalıdır. Qazandığı uğurlar, dövlətin və millətin ona verdiyi qiymət – bütün bunlar isə Tanrının onun tale yoluna vurduğu naxışlardır. Rəngbərəng naxışlar...

**Seymur ŞEYDAYEV**
*MilliTəhlükəsizlik Nazirliyinin əməkdaşı*

## MƏNALI ÖMRÜN 75-ci BAHARI

Cəmiyyətin formalaşmasında, onun inkişafında elmi və təhsilin rolu danılmaz bir faktdır. Bu prosesin təşkili isə bilavasitə kitab və kitabxanalardan və bu müqəddəs peşə sahəsində çalışan insanların fəaliyyətindən asılıdır. Professor Abuzər Xələfov Azərbaycanda mədəniyyətimizin mühüs tərkib hissəsi olan kitabxanaçılıq təhsilinin yaradıcısıdır. O, bütün şüurlu həyatını kitabxana işinə həsr etmiş, kitabxana işinin nəzəri və təcrübi sahəsində böyük müvəffəqiyyətlər əldə etmişdir. XX əsrin 60-cı illərindən Azərbaycanda kitabxanaçılıq təhsilinin başında duran A.Xələfov bu gün də yorulmadan yaradıcılıq axtarışındadır. 60-cı illərdə keçmiş SSRİ-də o, ilk dəfə kitabxanaşünaslıq elmini tarix elmi ilə əlaqəli şəkildə tədqiq edərək tarix elmləri namizədi alimlik adını almaqla rus alimlərini heyrətə salmış və məhz ondan sonra bir çox rus alimləri öz tədqiqatlarını bu istiqamətdə qurmağa başlamışlar. A.Xələfovun 1961-ci ildə alimlik dərəcəsi alması Azərbaycan kitabxana ictimaiyyəti üçün də çox uğurlu bir addım olmuşdur. Məhz bu ildən başlayaraq respublikamızın aparıcı iri kitabxanaları, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası və başqaları elmi tədqiqat fəaliyyətinə başlamışlar. Qeyd edilməlidir ki, bu kitabxanaların hamısı öz elmi- tədqiqat işlərini professor Abuzər Xələfovun yaradıcılığı əsasında qurmuş və böyük uğurlar əldə etmişlər.

Professor A.A.Xələfov Azərbaycanda kitabxanaçılıq elmi məktəbini yaratmış və hazırda da məktəbə rəhbərlik edir. O, bu məktəbi yaratmaqla kifayətlənməmiş, respublikamızda kitabxanaçılıq təhsilinin aparıcı qüvvəsi olan böyük bir pedaqoji kollektiv yaratmışdır. A.Xələfovun rəhbərliyi ilə 18 elmlər namizədi və 1 elmlər doktoru öz elmi-tədqiqat işlərini yüksək səviyyədə müdafiə etmiş və bu gün öz doğma rəhbəri ilə yanaşı çalışırlar. Abuzər müəllimin elmi məktəbini təmsil edən görkəmli alimlər hazırda respublikamızda ali kitabxanaçılıq təhsilinin inkişafında görkəmli rolu olan insanlardır.

A.Xələfovun yüksək tələbkarlığı, mülayim xasiyyəti, cavanlara qayğısı, işgüzarlığı hamıya örnəkdir. Ona məxsus bu müsbət keyfiyyətlər respublikamızın bütün kitabxana ictimaiyyətinə məlumdur və bu xasiyyətlərinə görə Azərbaycanın 30 minlik kitabxanaçılar ordusu onu sevir və hörmət edir. Abuzər müəllimi təkcə tələbələri deyil, respublika rəhbərliyi də yüksək səviyyədə qiymətləndirirlər. Onun xidmətləri ayrı-ayrı vaxtlarda hökumət və dövlət mükafatları ilə qiymətləndirilmiş və ümummilli liderimiz Heydər Əliyev şəxsən ona Şöhrət ordeni və Əməkdar elm xadimi kimi yüksək dövlət mükafatlarını təqdim etmişdir. Ulu öndərimizin A.Xələfova verdiyi bu yüksək qiymət bütün kitabxana ictimaiyyətini çox sevindirmiş və bu əslində Azərbaycan kitabxanaşünaslığına verilən qiymət kimi qəbul edilmişdir.

Hazırda bütün kitabxana ictimaiyyəti, təhsil işçiləri və Bakı Dövlət Universitetinin çox minli kollektivi A.Xələfovun 75 illik yubileyini qeyd edir. Abuzər müəllimin yüksək elmi potensialını və peşəkarlığını nəzərə alaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi və Bakı Dövlət Universitetinin rəhbərliyi ayrı-ayrılıqda yubiley tədbirləri keçirmək üçün sərəncam imzalamış və o, müxtəlif mükafatlara təqdim edilmişdir.

Biz də bu tədbirlərə qoşularaq hörmətli Abuzər müəllimi anadan olmağının 75, elmi- pedaqoji fəaliyyətinin 50 illiyi münasibəti ilə ürəkdən təbrik edir, ona bundan sonra da səmərəli və üğürlü fəaliyyət göstərməyi arzu edirik.

**Mətanət QASIMOVA**
*Bakı şəhəri X.Natəvan adına*
*uşaq kitabxanasının müdiri*

## A. A. XƏLƏFOVUN, GÖRKƏMLİ ZİYALININ ŞƏRƏFLİ YARADICILIQ YOLU

Bu il Azərbaycanın Əməkdar elm xadimi, kitabxanaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor, Abuzər Alı oğlu Xələfovun 75 yaşı tamam olur.

Ömrünün müdrik çağlarını yaşayan professor, respublikamızın pedaqoji elm aləmində kitabxanaşünaslığın elmi-nəzəri əsasını qoyan, onu tədris fənni kimi formalaşdıran yaradıcı alim kimi də məşhurdur. 1947-1948-ci illərdə ADU-nun filologiya fakültəsi nəzdində fəaliyyət göstərən kitabxanaçılıq şöbəsi 1962-ci ildən müstəqil fakültəyə çevrildikdən sonra professor A. Xələfov həmin fakültəyə ilk dekan təyin edilmişdir.

Azərbaycanda ali kitabxanaçılıq məktəbinin yaradılması, bu sahədə çoxsaylı dərs vəsaitləri, elmi əsərlər və monoqrafiyaların yazılması məhz A. Xələfovun adı ilə bağlıdır. Onun yaradıcı fəaliyyəti yalnız qeyd edilənlərlə məhdudlaşmır. A. Xələfov onlarla namizədlik dissertasiya işləri üzrə elmi rəhbər olmuş, çoxsaylı kitabxanaçı kadrlar yetişdirmişdir.

1961-ci ildə «Sovet Azərbaycanında kitabxana işinin tarixi» mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edən A. Xələfov Azərbaycan Respublikasında ilk kitabxanaşünas alim kimi elmi dərəcəyə layiq görülmüşdür.

Uzun müddət kitabxanaşünaslıq kafedrasına rəhbərlik etmiş A. Xələfov həm də kitabxanaçılıq sahəsində fundamental ali təhsilin təşkilatçılarından biridir.



1974-cü ildə «Azərbaycanda kitabxanaşünaslığın tarixi» adlı monoqrafiyasını elmi ictimaiyyətə təqdim edən A. Xələfov bu mövzu ilə bağlı doktorluq dissertasiyasını 1975-ci ildə müdafiə etmişdir. Onun səmərəli elmi fəaliyyətində diqqətə layiq yer tutan çoxsaylı məqalələri də, kitabxanaşünaslıqla bağlı elmi biliklərin mənbəyi hesab edilə bilər. Gənc tələbələrə bu elmi anlayışlı və sadə dil ilə çatdıran müdrik alim, həm də qayğıkeş müəllim-pedaqoq kimi də hamının sevimlisinə çevrilmişdir.

A. Xələfovun rəhbərlik etdiyi müddətdə kitabxanaçılıq fakültəsi təkcə respublikamızın digər ali tədris müəssisələri ilə deyil, həm də MDB respublikalarının müvafiq tədris ocaqları ilə əlaqələr yaratmış və bu əlaqələr get-gedə təkmilləşmişdir. Professor öz elmi əsərlərində kitabxanaşünaslığı həm elm, həm də tədris fənni kimi obyektiv dəyərləndirmiş və bu elm sahəsinə dəqiq anlayış vermişdir.

1996-cı ildə A. Xələfovun nəşr olunmuş «Kitabxanaşünaslığa giriş» adlı dərs vəsaiti öz elmi sambalı və dəyərli məzmununa görə xüsusi əhəmiyyətə malik olmuşdur. Bu əsərində ilk dəfə A. Xələfov kitabxanaşünaslığın humanitar elm sahəsi olduğunu vurğulamışdır.

Cəfakeş alim, humanist müəllim, qayğıkeş insan və həqiqi ziyalı kimi yüksək dəyərlərə malik müəllimimiz – Abuzər Xələfov barədə nə qədər gözəl sözlər söyləsək də azdır. Onları bir məqalə çərçivəsində əhatə etmək qeyri mümkündür. Yuxusuz gecələri və narahat günlərinin məhsulu olan nəinki cild-cild kitabları, hətta ən kiçik həcmli məqalələri də dərin fikrə və elmi təfəkkürə əsaslanır. Bu əsərlərin hər biri barədə kifayət qədər danışmaq mümkündür, lakin məqsədimiz alimin zəngin yaradıcı ömrünü bütünlükdə əks etdirmək deyil, onun yalnız qısa məqamlarına toxunmaqdır.

Professor A. Xələfov gözəl alim olduğu kimi, həm də dövlətçiliyimizin möhkəmləndirilməsində, milli dilimiz və adət-ənənələrimizin qorunub saxlanmasında xüsusi xidmət-

ləri olan əsl vətəndaşdır. Bu ideyalar onun «Milli dövlətçiliyimiz naminə» məqaləsinin ana xəttini təşkil edir.

Mərhum prezidentimiz H. Əliyevin kitabxana haqqında dediyi: «Kitabxana xalq, millət və cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir» - fikirlərini alovlu vətənpərvər kimi müstəqil dövlətçiliyimizə xidmət edən A. Xələfov öz fəaliyyətində rəhbər tutmuşdur.

Alimin «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» adlı kitabı da müstəqil dövlətçiliyimizə sədaqətli xidmətin nümunəsidir.

Biz inanırıq ki, xalqımızın sevimli ziyalı oğlu A. Xələfov öz elmi və pedaqoji fəaliyyətini bundan sonra da davam etdirəcək, yeni-yeni əsərləri ilə elmi ictimaiyyətin, tələbə və gənclərin sevincinə səbəb olacaqdır. Bu yolda sevimli alimimizə uğurlar və möhkəm cansağlığı arzulayırıq!



## Professor A.Xələfov haqqında görkəmli adamların fikirləri

Azərbaycanın görkəmli şəxsiyyətləri öz elmi və publisistik məqalələrində, məruzə və çıxışlarında milli elmimizin, təhsilimizin və mədəniyyətimizin inkişafına, kadr hazırlığına özünəməxsus töhfələr vermiş Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun xidmətlərini yüksək qiymətləndirirlər.

Ayrı-ayrı səlahiyyət və məqam sahiblərinin ustad haqqında düşüncələri bu böyük şəxsiyyətin əsasən alimlik və müdriklik xüsusiyyətlərinin araşdırılması baxımından seçilir. Əlbəttə, bu qoşa qanadın konkret faktlar timsalında ümumiləşdirilməsi, sistemləşdirilməsi və qiymətləndirilməsi ağsaqqal alimimizin zəngin tale yolunun öyrənilməsi cəhətdən çox təqdirəlayiqdir.

Həmin fikirlərdən bir neçəsini nəzərdən keçirmək maraqlı olar.

***

Professor Abuzər Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin yaradıcısı, bu sahədə elmi məktəb yaratmış tanınmış alim, bacarıqlı elm və təhsil təşkilatçısıdır. İftixar etməli haldır ki, Azərbaycanda kitabxanaşünaslıq nəzəriyyəsinin elmi əsası A.A.Xələfov tərəfindən qoyulmuş, ölkəmizdə kitabxana işinin tarixi və inkişaf perspektivlərinə həsr edilən araşdırmaları ilə vətənimizdə mədəniyyət tarixinin nəzəriyyə və təcrübəsini zənginləşdirilmişdir.

*Misir Mərdanov,*
*Azərbaycan Respublikasının təhsil naziri,*
*Əməkdar elm xadimi,*
*fizika-riyaziyyat elmləri doktoru, professor*

***

Abuzər müəllimin çox zəngin irsi vardır və ondan gənc alimlər, tələbələr zaman-zaman faydalanacaqlar. Abuzər müəllimin yazdığı dərslik, dərs vəsaiti, tədris metodik vəsaitləri hər zaman aktual olacaq, dövrlə, zamanla səsləşəcəkdir. Çünki bu əsərlərin bir ucu tarixi ənənələri söykənirsə, o biri ucu bugünkü həyatın axarına uyğundur. Yeniliyə, müasirləşməyə səsləyən hər bir yaradıcı əmək heç vaxt təsirsiz qalmaz.

***Abel Məhərrəmov,***
*BDU-nun rektoru,*
*Azərbaycan MEA-nın müxbir üzvü,*
*Əməkdar elm xadimi,*
*kimya elmləri doktoru, professor*

***

Abuzər müəllim öz insani keyfiyyətlərinə görə ən ali pillədə duran millət övladlarından biridir. Yaxından tanıyanlar arasında Abuzər müəllimin xüsusi əakii, mövqeyi və hörməti vardır. Abuzər müəllim ağayana kişidir, ağayana kişiləri isə həyatın heç bir rüzgarı əyə bilməz!

***Budaq Budaqov,***
*Azərbaycan Ağsaqqallar Şurasının sədri,*
*MEA Coğrafiya İnstitutunun direktoru,*
*Əməkdar elm xadimi, akademik*

***

A.Xələfov şöhrət titulları ilə yanaşı, gözəl bir müəllim, əsl tərbiyəçi, əsl ağsaqqaldır. Gözəl bir insan, dostluqda vəfalı və sadiq, ailədə qayğıkeş, qeyrətli və namuslu bir şəxs, daha doğrusu, şəxsiyyətdir. O, vətənpərvər, millətsevər, əsl vətəndaşdır. Elini, xalqını, vətənini, müstəqil respublikasını sevən millət oğlu, millət övladıdır.

***Fuad Qasımzadə,***
*BDU-nun Fəlsəfə kafedrasının müdiri,*
*Əməkdar elm xadimi,*
*fəlsəfə elmləri doktoru, akademik*

***

Abuzər müəllim dinimizin qayda-qanunlarını gözəl bilən, onlara riayət edən bir insandır. Abuzər müəllim dinin yarısı olan insafı heç bir zaman əldən verməyən mömin bir müsəlmandır. Mən bir çox prinsipial məsələlərdə dəfələrlə bunun şahidi olmuşam. Allahın evini – müqəddəs Kəbəni ziyarət etmiş bir Hacı kimi özünün ibrətamiz söhbətləri, gözəl məsləhətləri ilə gəncliyimiz arasında inam, vətənpərvərlik hisslərinin qüvvətlənməsi işində fəal rol oynayır.

***Vasim Məmmədəliyev,***
*Azərbaycan MEA-nın müxbir üzvü,*
*Əməkdar elm xadimi,*
*filologiya elmləri doktoru, professor*

Professor Abuzər Xələfov universitetdə və respublikada təkcə kitabxanaşünas-alim kimi deyil, həm də yüksək səviyyəli şəxsiyyət və ictimai elmləri dərindən bilən ictimai xadim kimi tanınır. O, universitetin və bütövlükdə respublikamızın elmi, mədəni və ictimai həyatında böyük rol oynayır.

***Nizami Cəfərov,***
*Azərbaycan MEA-nın müxbir üzvü,*
*Azərbaycanda Atatürk Mərkəzinin sədri,*
*professor, millət vəkili*

***

Professor Abuzər Xələfov həmişə və hər yerdə birinci olmağa çalışıb. O, alimliyi də, müəllimliyi də, insanlığı da bütöv olan, bir məzhəbə qulluq edən və dostluqda da birinci olan insandır.

***Ağamusa Axundov,***
*Azərbaycan MEA-nın Humanitar və ictimai elmlər bölməsinin akademik-katibi,*
*Nəsimi adına Dilçilik İnstitutunu direktoru,*
*Əməkdar elm xadimi,*
*Dövlət mükafatı laureatı, professor*

***

Professor Abuzər Xələfov klassik aydınlarımıza, Mirzə Cəlil, Sabir dövrünün maarifçilərinə, elm adamlarına bənzəyir. Özünü təbliğdən uzaq, gördüyü çox gərəkli işləri cəmiyyətin diqqətinə özü çatdırmağa cəhd etməyən, necə deyərlər, uzun və maraqlı yolları keçəndən sonra da başını aşığa salıb doğma ixtisası sahəsində məktəb yaradan insan qazandığı fərəhli naticələrlə də öyünmür. Ölkəmizdə yaranmış yüksək səviyyəli kitabxana sisteminin ahəngdar fəaliyyəti ilə isə hər birimizin öyünməyə haqqımız var.

***Hidayət Orucov,***
*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,*
*şair-dramaturq*



***

Abuzər müəllim böyük təhsil təşkilatçısıdır. Həqiqətdir ki, cəfakeş kitabxanaçı sənətinin vurğunu, mənən zəngin, qəlbən şairanə insandır. Xalqa xidməti özünə şərəf bilən, yorulmadan, usanmadan ömür fəda edən ziyalıdır.

***Teymur Bünyatov,***
*Azərbaycan MEA Tarix və Etnoqrafiya İnstitutunun şöbə müdiri,*
*Əməkdar elm xadimi,*
*tarix elmləri doktoru, professor*

***

Adətən alimləri üç qrupa bölürlər. Birinci qruppu qarışqaya bənzədirlər. Bunlar ömrünü fakt toplamağa sərf edirlər. Topladıqları faktları elmi dövriyyəyə daxil edərək tədqiqatları əsasında elmi əsər yaradırlar. Digər qrupu hörümçəyə bənzədirlər. Belələrinin əlində fakt olmur, hörümçək bir şeyə söykənmədən tor toxuyan kimi belələri də heç bir fakta, elmi əsasa söykənmədən fərziyyə irəli sürürlər. Alimlərin üçüncü qrupunu bal arısına təşbeh tuturlar. Onlar bal arısı kimi həm toplamağı, həm də istifadə etməyi bacarır, yəni dəyərli əsərlər yaradırlar. Professor A.Xələfov alimlərin bal arısına oxşayan qrupuna aiddir.

***Hüseyn Əhmədov,***
*Rusiya Pedaqoji Elmlər Akademiyasının akademiki,*
*pedaqoji elmlər doktoru, professor*

***

Alim o zaman yüksəlir ki, məşğul olduğu sahənin, hətta problemin vurğunu olur. Ömrünü bu vurğunluq, bu sevgi ilə yaşayır, bu vurğunluqda yeni çalarlar tapır, onları işıqlandırır və elmə yeni töhfələr verir. Professor Abuzər Xələfov elmdə bu xoşbəxt vurğunlardandır.

***Həmid İmanov,***
*Bakı Dövlət Universitetinin*
*Humanitar fakültələr üzrə*
*Fəlsəfə kafedrasının müdiri,*
*fəlsəfə elmləri doktoru, professor*

***

Kitabxanaçılıq fakültəsinin ilk dekanı, tarix elmləri doktoru, professor, Əməkdaar elm xadimi Abuzər Alı oğlu Xələfov təxminən yarım əsrdir ki, Kitabxanaşünaslıq kafedrasına rəhbərlik edir. Kitabxanaçılıq-informasiya fakültəsinin bütün fəaliyyəti, inkişafı, problemlərinin həlli onun adı ilə bağlıdır. Universitet kollektivi haqlı olaraq bu fakültəni «Abuzər müəllimin fakültəsi» adlandırırlar.

***Xəlil İsmayılov,***
*BDU-nun Kitabxanaçılıq-informasiya*
*fakültəsinin dekanı,*
*tarix elmləri doktoru, professor*

***

Abuzər müəllimin gördüyü nəhəng işləri düşünən zaman həmişə qulağıma uzaqdan, çox uzaqlardan bir səs gəlir. Bu, ulu əcdadlarımızın səsidir. Sanki onlar əsrlər boyu ulu mədəniyyətimizin bir parçası kimi yaşatdıqları «ağ saçlı» kitab və kitabxanalar haqqında gələcək nəsillərə obyektiv gerçəklikləri çatdıran, ali kitabxanaçılıq təhsilinin nəzəriyyəşini və təcrübəsini yaradan görkəmli bir alimə – ustad müəllimə, müdrik insana bununla minnətdarlıqlarını bildirirlər. Çünki hər öyrənmək istəyən müəllim deyil, kimdən ki öyrənirlər, əsl müəllim odur.

***Zöhrab Əliyev,***
*BDU-nun Biblioqrafiyaşünaslıq*
*kafedrasının müdiri,*
*Əməkdar mədəniyyət işçisi, professor*

***

Professor A.Xələfovu heç kəslə müqayisə etmək olmaz, onu yalnız özü ilə müqayisə etmək olar. Abuzər müəllim alim, şəxsiyyət, mədəniyyət qurucusu kimi təkdir, təkrarolunmazdır».

Bu nəcib insanın, böyük şəxsiyyətin adı və şöhrəti həm də bədii əsərlərin mövzusuna çevrilib. Görkəmli şairlərdən tutmuş həvəskar yazarlara qədər bir çox qələm sahibləri Abuzər müəllimin ünvanına şeir çələngi bağlayıblar.

***Bayram Allahverdiyev,***
*BDU-nun Kitabşünaslıq və*
*nəşriyyat işi kafedrasının müdiri,*
*tarix elmləri doktoru, professor*

***Zəlimxan YAQUB***
*Xalq şairi*

## ÖZÜN BİR AYRICA KİTABXANASAN

***Köhnə kişilərtək sevmişəm səni,***
***Könül həmdəmimdi köhnə kişilər.***
***Urvafa mindirdi yurdu, Vətəni,***
***Tamaşa kişilər, səhnə kişilər.***

***Kitablı ömürlər Günəşə bənzər,***
***Bu sirdən, hikmətdən yaxşı halısan.***
***Ömrünü, gününü kitablar bəzər,***
***Elmin də elmin də ağsaqqalısan.***

***Boşuna yaranmır nə sərvət, nə var,***
***Zirvələr eşqinə gərək yanasan.***
***Məbədin olsa da kitabxanalar,***
***Özün bir ayrıca kitabxanasan!***

***Səndən bir dəsti-xət, biryazı qalar,***
***Onu anmaq şərəf, unutmaq çətin.***
***Abuzər müəllim imzası qalar,***
***Qızıl kitabında Universitetin!***

**Knyaz ASLAN**

## UCALIQ MƏRTƏBƏSİ

*Ustadımız, ağsaqqalımız*
*Abuzər Xələfova*
*hörmət və ehtiramla*

Canlı kitabıdır tariximizin,
Açılır varağı al səhər kimi.
Bəzən təlatümlü, bəzən də həzin,
Oxunur ən gözəl bir əsər kimi.

Deyir, yaxşılıqdır ömrün zinəti,
Yalanın, yamanın nədir qiyməti?!
Nahaqqa nifrəti, haqqa hörməti
Yayılır aləmə xoş xəbər kimi.

Çatdırır babalar vəsiyyətini,
Eşidən unutmaz nəsihətini.
Məsəllər bəzəyir söz-söhbətini,
Zərif kəlamları inci, zər kimi.

Elmdir, kitabdır qolu, qanadı,
Biliklə bəzəyir bu kainatı.
Aqillər yanında ucadır adı,
Həqiqət aşiqi pür hünər kimi.

İncilər yaradır söz odasında,
Adı şöhrətlidir el-obasında;
General olsa da elm ordusunda,
Həmişə hazırdır bir əsgər kimi.

İçində yaşadır Göyçə dağını,
Yadlar viran qoyub yurd torpağını.
Doğma Qarabağın xoş sorağını
Gözləyir ən ülvi bir zəfər kimi.

Ellə ağlayandı, ellə güləndi,
Dostla tikəsini yarı böləndi.
Ağır əyləşəndi, batman gələndi
O keçmiş, o köhnə kişilər kimi.

Uçur xəyalları dağlar başında,
Qucur qartalları zirvə qaşında.
Yaxşı əməllərlə el yaddaşında
Qalır Vurğun kimi, Ələsgər kimi.

Min inam duyulur addım səsində,
Yaşayır mənalar fəlsəfəsində.
Alimlik, insanlıq mərtəbəsində
Yeri var Xələfli Abuzər kimi!

**Eldar İSMAYIL**

## DURUR

*Görkəmli alim, böyük insan*
*Abuzər Xələfovun yubileyi münasibətilə*

Bu elə dünyadı, bu elə gərdiş,
Orda haqdan deyən ozanlar durur.
Qorqudun qopuzu oğuzla dinər,
Min ildi Beyrəklər, Qazanlar durur.

Atəş var bir səbrin sərinliyində,
Həyat var həyatın dərinliyində.
Nurlu əməllərin şirinliyində
Pozulmaz qurğular, mizanlar durur.

Sabaha inam var alim səsində,
Min-min hikmət yatır söz xəznəsində.
Tarixin ölməzlik cəziresində
Böyük tarixləri yazanlar durur.

Aqillər sayıqdı hikmət başında,
Nadanlar mənasız söz savaşında…
Əbədi dünyanın qan yaddaşında
Alimlər, adillər, uzmanlar durur.

Həyat axarında, əzəlliyində,
İgidlər, müdriklər, öz ərliyində…
Bu gözəl dünyanın gözəlliyində
Abuzər Xələftək azmanlar durur.

**Murad ŞƏMSİZADƏ**

## YUBİLEYİN MÜBARƏK

*Professor Abuzər Xələfovun 75 yaşına*

75 yaşın mübarək!
Lakin cavandır ürək!
Səni cavan saxlayan,
Xoş arzudur, xoş dilək

Təmizdir niyyətlərin,
Arxasıza arxasan!
Ümmanların qoynunda
Əyilməyən qalasan!

Daş-kəsəkli yollardan
Gəlib keçdin vüqarla!
Müəllimlik şərəfini
Qorudun iftixarla!

Qızıl suyun adı var
Adının mənasında!
Özünə yer tapmısan
Hikmətlər dünyasında!

Qoca da, cavan da hey
Gəlirlər məsləhətə!
Hər sözün, hər söhbətin
Layiqdir min hörmətə!

75 il, şərəfli il!
Xidmətlərin az deyil!
75 il, şərəfli il!
Hər kəsə qismət deyil!

**Fikrət ŞİRİYEV**

## VAR

*Görkəmli alim, gözəl insan*
*Abuzər Xələfovun yubileyi münasibətilə*

75 bəhanədir ömrə boylanaq –
Qarşıda hələ çox bəhanəsi var!
Xalq üçün yaşanan mənalı ömrə
Tanrının 50 il əlavəsi var!

Ürəyirnin odu elmə hədəfdir,
Belə ömür sürmək böyük şərəfdir!
Soyu Xələfovdur, özü xələfdir –
Min-min tələbəsi-sülaləsi var!

İşində bütövdür, sözündə kəsə,
Ötəri çevdaya-düşməz həvəsə.
Ömrünü kitaba bağlayan kəsə
Allahın ilahi həvaləsi var!

Böyük bir ziyalı, xeyirxah hacı,
Üzünə hər yanda qapılar açıq.
Ey paxıl, bu qəlbə baxma qıyqacı
Orda zəhmət, zəka təranəsi var!

Həyata bağlanıb bütün varlığı
Qartal əzəməti, dağ məğrurluğu.
70-də səbəbsiz deyil gurluğu –
Qəlbində çağlayan şəlaləsi var!

Ağlına bələnib alnının təri,
Min adam bacarmaz görən işləri.
Dünənin, bu günün, sabahın əri-
Onun əbədiyyət zəmanəsi var!

Uşaqlarla uşaqlıq, qocalarla qoca,
Məktəbdir, insanlıq öyrən doyunca!
Hər yandan görünən zirvədir uca –
Əlində müdriklik piyaləsi var!

Vətənə bağlansa ürək sinəndə,
Belə şux olarsa 75 sinnində!
Məncə Azərbaycan kəlməsinin də
Abuzər sözüylə əlaqəsi var!

## *70-LƏ 75 YAŞ ARASINDA*
## *(Professor A.Xələfov haqqında yubiley nəşrləri)*

Professor A.Xələfovun 50, 60 və 70 illik yubileyləri respublika miqyasında təntənəli şəkildə qeyd olunmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, görkəmli kitabxanaşünas alimin 70 illiyinin geniş şəkildə keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və Bakı Dövlət Universitetinin rektorluğu ayrı-ayrılıqda xüsusi əmr vermiş, həmin əmrlərdə geniş tədbirlər planı da öz əksini tapmışdır.

Bu baxımdan 2001-ci il dekabrında Bakı Dövlət Universitetində Kitabxanaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr olunmuş «Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın problemləri» mövzusunda elmi konfransı və təntənəli yubiley mərasimini yada salmaq yerinə düşər.

Dekabrın 22-də kiçik akt zalında keçirilən elmi konfransı giriş sözü ilə BDU-nun rektoru, Azərbaycan MEA-nın müxbir üzvü, professor Abel Məhərrəmov açaraq A.Xələfovun elmi-pedaqoji fəaliyyətindən danışdı. Adlı konfransı hər bir alimə sağlığında nəsib olmayan bir xoşbəxtlik kimi dəyərləndirən rektor A.Xələfovun bu xoşbəxtliyə çoxdan qovuşduğunu bildirdi və bugünkü konfransın bunun bariz nümunəsi olduğunu vurğuladı.

Sonra Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent Xəlil İsmayılov «Abuzər Xələfov Azərbaycanda ali kitabxanaçılıq təhsilinin yaradıcısı və kitabxanaşünaslıq elminin banisidir» mövzusunda məruzə ilə çıxış etdi.

A.Xələfovun həyat və yaradıcılığından danışan X.İsmayılov yubilyarın elmi fəaliyyətini yüksək qiymətləndirdi, onun elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan kitablarının adlarını sadaladı. Natiq öz çıxışında A.Xələfovun ayrı-ayrı illərdəki elmi fəaliyyətinə toxunaraq onun son illərdə kitabxanaların informasiyalaşdırılması və kompüterləşdirilməsi sahəsində apardığı işlərdən söhbət açdı.

Abuzər Xələfovun Azərbaycan kitabxanaşünaslıq elminin banisi olduğunu deyən X.İsmayılov BDU-da Kitabxanaçılıq fakültəsinin açılmasında yubilyarın müstəsna rolunu qeyd etdi. Yubilyarın Kitabxanaçılıq fakültəsinə 25 il rəhbərlik etdiyini bildirən natiq bu gün Kitabxanaçılıq-informasiya fakültəsində çalışan əksər müəllim və əməkdaşların A.Xələfovun yetirməsi olduğunu diqqətə çatdırdı.

Sonra konfransda Kitabxanaşünaslıq kafedrasının dosenti Sahib Rzayev, Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Zöhrab Əliyev, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, professor Bayram Allahveriyev, Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, dosent Tacəddin Quliyev, BDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor İzzət Rüstəmov, Fəlsəfə kafedrasının müdiri, professor Həmid İmanov, Cinayət prosesi kafedrasının müdiri, professor Firudin Səməndərov və başqaları çıxış edərək elmi konfransın əhəmiyyətindən danışdılar və A.Xələfovu 70 illik yubileyi münasibəti ilə təbrik etdilər.

Plenar iclasdan sonra konfrans iki gün üç bödmədə – kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq üzrə öz işini davam etdirdi.

***

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin professor A.Xələfovun 70 illiyi ilə bağlı təşkil etdiyi təntənəli gecə 2001-ci il dekabrın 24-də Rəşid Behbudov adına Mahnı Teatrında oldu.



Yubiley gecəsini giriş sözü ilə mədəniyyət naziri Polad Bülbüloğlu açaraq yübilyara xoş arzularını bildirdi.

Sonra mədəniyyət nazirinin müavini, fəlsəfə elmləri doktoru, professor Sevda Məmmədəliyeva görkəmli alimə öz təbriklərini yetirdi.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Leyla Qafurova professor A.Xələfovun həyat və fəaliyyəti haqqında geniş məruzə etdi, ona möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər dilədi.

Təbrik çıxışlarından sonra ölkəmizin tanınmış incəsənət ustaları yubilyarı rəngarəng musiqi çələngi ilə təbrik etdilər.

***

2001-ci il dekabrın 25-də böyük akt zalında təşkil edilmiş təntənəli yubiley mərasimini giriş sözü ilə BDU-nun rektoru, Azərbaycan MEA-nın müxbir üzvü, professor Abel Məhərrəmov açaraq yubilyar haqqında xoş duyğularını tədbirə toplaşanlarla bölüşdü.

Sonra Prezident Aparatı Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Prezidenti Heydər Əliyevin Abuzər Xələfova «Əməkdar elm xadimi» fəxri adının verilməsi ilə bağlı 24 dekabr 2001-ci ildə imzaladığı fərmanı yubiley iştirakçılarının nəzərinə çatdırdı.

Mərasimdə təhsil naziri, professor Misir Mərdanov çıxış edərək prezident Heydər Əliyevin Azərbaycan təhsilinə, elminə həmişə diqqət və qayğı göstərdiyindən söz açdı. O, dövlət başçısının professor Abuzər Xələfova «Əməkdar elm xadimi» fəxri adının verilməsi ilə bağlı imzaladığı fərmanı bu faktın bariz nümunəsi adlandırdı. Abuzər Xələfovla qırx il bundan öncə tanış olduğunu bildirən nazir onun 50, 60 və 70 illik yubileylərinin iştirakçısı olduğunu xatırlatdı. Ötən illər ərzində Abuzər müəllimlə çox yaxın münasibətdə ol-

duğunu söyləyən M.Mərdanov Təhsil Nazirliyinin mükafatını və Fəxri fərmanını yubilyara təqdim etdi.

Sonra rektor, professor Abel Məhərrəmov çıxış edərək Azərbaycan Prezidenti Heydər Əliyevin imzaladığı fərmanı Bakı Dövlət Universitetinin təhsilinə, elminə verdiyi yüksək qiymət kimi dəyərləndirdi və universitetin bütün kollektivi adından prezident heydər Əliyevə minnətdarlığını bildirdi.

Professor Abel Məhərrəmov öz çıxışında vurğuladı ki, hər bir insan, hər bir elm Adamı xalqın yaddaşında yaşamaq üçün daima çalışır. Amma bu insanların çox az hissəsinin buna nail olur. Bu mənada Abuzər Xələfov Azərbaycan xalqının yaddaşına həkk olunmuş, tariximizdə özünəməxsus yer tutmuş, özünün elmi məktəbini yaratmışdır.

A.Xələfovun Azərbaycanda kitabxanaşünaslıq elminin banisi kimi universitetdə Kitabxanaçılıq şöbəsinin və fakültəsinin açılmasında müstəsna rol oynadığını deyən A.Məhərrəmov onun bu fakültəyə 25 il rəhbərlik edərək bugnkü səviyyəsinə gəlib çıxmasında böyük əmək sərf etdiyini bildirdi. Abuzər Xələfovun universitet kollektivi tərəfindən daima ağsaqqal kimi qəbul olunduğunu, onun müdrik məsləhətlərinə həmişə ehtiyac duyulduğunu deyən rektor A.Məhərrəmov yubilyara uzun ömür, cansağlığı arzu edərək ona universitet kollektivinin hədiyyəsini və iki aylıq əməkhaqqı məbləğində mükafatı təqdim etdi.

Mərasimdə Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov çıxış edərək rəhbərlik etdiyi ali təhsil ocağının kitabxanasında çalışan 60 əməkdaşın və bütün kollektivin adından yubilyar Abuzər Xələfovu təbrik etdi, ona cansağlığı, uzun ömür, gələcək elmi-pedaqoji fəaliyyətində uğurlar dilədi.

Sonra Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi rasim Kazımov professor A.Xələfovun həyatı, elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında məruzə ilə çıxış etdi. O, öz çıxışında yubilyarın uşaqlıq dövründən söz salaraq, onun orta məktəb və ali məktəb illərindən danışdı. A.Xələfovun hələ tələbəlik dövründən elmi tədqiqat işinə ciddi maraq göstərdiyini deyən natiq onun bu gün kitabxanaşünaslıq elminin banisi olmasını bunun bariz nümunəsi kimi vurğuladı. R.Kazımov yubilyarın öz ömrünü universitetin Kitabxanaçılıq-informasiya fakültəsi ilə bağladığını qeyd edərək, 1962-ci ildə məhz A.Xələfovun əməyi sayəsində Kitabxanaçılıq ş.bəsinin müstəqil fakültə kimi fəaliyyət başladığını və 25 il bu fakültənin dekanı olduğunu bildirdi.

Kitabxanaçılıq-informasiya fakültəsinin bugünkü uğurlarında da A.Xələfovun müstəsna rolu olduğunu vurğulayan dosent R.Kazımov ağsaqqal alimi 70 illik yubileyi münasibəti ilə təbrik etdi və elmi-pedaqoji fəaliyyətində yeni-yeni nailiyyətlər arzuladı.

Yubiley mərasimində Yasamal rayon icra hakimiyyətinin başçısı Azər Əliyev, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, professor Seyfəddin Qəndilov, yubilyarın tələbə yoldaşı, Azərbaycan MEA Dilçilik İnstitutunun direktoru, professor Ağamusa Axundov, yubilyarın tələbəsi, millət vəkili, şair Zəlimxan Yaqub, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov, BDU Azad Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Məhəmməd Quliyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Vilayət Əliyev, BDU-nun İlahiyyat fakültəsinin dekanı, professor Vasim Məmmədəliyev, Biologiya fakültəsinin dekanı, professor Ağavəli İbrahimov, Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Qəmbər Namazov, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent Xəlil İsmayılov və başqaları çıxış edərək A.Xələfova səmimi arzularını çatdırdılar.

Mərasimin sonunda yubilyar Abuzər Xələfov çıxış edərək, onun əməyinə belə yüksək qiymət verdiyi, onu «Əməkdar elm xadimi» fəxri Adı ilə təltif etdiyi üçün Azərbaycan Prezidenti Heydər Əliyevə öz minnətdarlığını bildirdi və ömrünün qalan hissəsini də ölkəmiz üçün yüksək ixti-

saslı mütəxəssis kadrların yetişdirilməsinə sərf edəcəyini bildirdi.

A.Xələfov çıxışında Prezident Aparatı Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadəyə, təhsil naziri Misir Mərdanova, BDU-nun rektoru Abel Məhərrəmova ayrı-ayrılıqda öz minnətdarlığını bildirdi. O, eyni zamanda yubiley mərasiminin təşkil edilməsində əməyi olanlara, bütövlükdə universitet kollektivinə, bu təntənəli tədbirdə iştirak və çıxış edənlərə, təbrik teleqramları və məktubları göndərənlərə də öz səmimi təşəkkürünü yetirərək, gənclərin əsl vətəndaş kimi yetişməsində əlindən gələni bundan sonra da əsirgəməyəcəyini dedi.

***

Professor A.Xələfovun 70 illik yubileyi ərəfəsində onun həyat və fəaliyyətinə həsr olunmuş bir neçə kitab işıq üzü görmüşdür.

Knyaz Aslanın və Murtuz Bağırovun birgə tərtib etdikləri «Mənalı ömür yolu» kitabı müxtəlif elm, sənət və peşə adamlarının professor A.Xələfov haqqında ürək sözlərindən və ona ithaf edilmiş mənzum əsərlərdən ibarətdir.

Bakı Universitetində nəşr edilən 230 səhifəlik bu kitab Knyaz Aslanın ön sözü və professor Abuzər Xələfovun həyat və fəaliyyətinə həsr olunmuş bioqrafik yazı ilə (Azərbaycan, ingilis və rus dillərində) açılır.

Kitabın «Alim, pedaqoq və vətəndaş ömrü» adlı birinci bölməsində Misir Mərdanov, Abel Məhərrəmov, Hidayət Orucov, Zəlimxan Yaqub, Budaq Budaqov, Teymur Bünyadov, Hüseyn Əhmədov, Fuad Qasımzadə, Bəkir Nəbiyev, Ağamusa Axundov, Vasif Babazadə, Nizami Cəfərov və başqaları kimi tanınmış simaların Abuzər Xələfovla bağlı düşüncələri və xatirələri öz əksini tapmışdır.

«Alim haqqında poetik düşüncələr» adlanan ikinci bölmədə isə Eldar İsmayılın, Knyaz Aslanın, Murad Şəmsizadənin və başqalarının Abuzər Xələfova həsr olunmuş şeirlər verilmişdir.



***

Professor A.Xələfovun 70 illik yubileyinə həs olunmuş ikinci kitab isə Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, professor Xəlil İsmayılovun təsisçiliyi və baş redaktorluğu ilə nəşr edilən «Kitabxanaşünaslıq və biblioqrafiya» elmi-nəzəri və təcrübi jurnalının xüsusi buraxılışıdır (№1, 2001).

Kitabxanaşünaslıq kafedrasının baş müəllimi Knyaz Aslanın tərtib etdiyi həmin buraxılışda Vasim Məmmədəliyev, Xəlil İsmayılov, Zöhrab Əliyev, Tacəddin Quliyev, Bayram Allahverdiyev, Sərdar Quliyev, Vəli Həbiboğlu, Zöhrab baxşəliyev, Əşrəf Xələfov, Rasim Kazımov, Sahib Rzayev, Əli Rüstəmov, Aşur Əliyev və başqalarının professor A.Xələfov haqqında fikirləri əhatə olunmuşdur.

150 səhifədən ibarət olan xüsusi buraxılış baş redaktor Xəlil İsmayılovun oxuculara müraciəti ilə açılır və tərtibçi Knyaz Aslanın «Ömür pillələri və ya son söz əvəzi» yazısı, həmçinin professor A.Xələfovla «101 sual, 101 cavab» adlı eksklüziv müsahibəsi ilə başa çatır.

***

Professor A.Xələfovun 70 illik yubileyinə həsr olunmuş üçüncü nəşr Mübariz Xəlilov, Azad Qurbanov və Nigar Musayevanın «Kitabxana informatikası» kitabıdır. 2001-ci ildə Bakı Universiteti Nəşriyyatında işıq üzü görmüş bu kitabda Windows-98 əməliyyat sistemi, elektron sənədlər, onların yaradılması və mübadiləsi üsulları ətraflı şərh olunmuş, vtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin əsasını təşkil edən biblioqrafik informasiya bazasının yaradılması və darə olunması prinsipləri izah edilmişdir.

Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri üçün nəzərdə tutulmuş həmin kitabın təqdimat mərasimini giriş sözü ilə universitetin rektoru, Azərbaycan MEA-nın müxbir üzvü, professor Abel Məhərrəmov açdı. O, kitabın hər üç müəllifinə yüksək tərtibatlı belə bir kitabı hazırladıqları üçün öz minnətdarlığını bildirdi. A.Xələfovun 70 illik yubileyi ərəfəsində belə bir kitabın çap olunmasının alim üçün sürpriz olduğunu deyən rektor əsərlə bağlı öz fikirlərini də bildirdi.

Tədbirdə BDU-nun prorektorları, professorlar Bəhram Əsgərov, professor İzzət Rüstəmov, Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Qəmbər Namazov və başqaları çıxış edərək kitabın müəlliflərini təbrik etdilər, həmçinin professor A.Xələfova cansağlığı və uğurlar arzuladılar.

Mərasimdə kitabın müəlliflərindən biri, İnformatika kafedrasının müdiri Mübariz Xəlilov çıxış edərək onların ünvanlarını deyilən xoş sözlər üçün öz minnətdarlığını bildirdi və professor A.Xələfovu yubileyi münasibəti ilə təbrik etdi.

Tədbirin sonunda professor A.Xələfov onun əməyinə və fəaliyyətinə verilən bu yüksək qiymət üçün BDU-nun rektoru, professor A.Məhərrəmova, «Kitabxana informatikası» kitabının müəllifləri Mübariz Xəlilov, Azad Qurbanov və Nigar Musayevaya, həmçinin mərasimdə iştirak və çıxış edənlərə öz dərin təşəkkürünü bildirdi.

***

Dördüncü yubiley nəşri Azərbaycanda kitabxanaşünaslıq məktəbinin banisi professor A.Xələfov haqqında məlumat kitabıdır.

Həmin biblioqrafik məlumat kitabı haqqında resenziya yazıb dərc etdirən tanınmış biblioqrafiyaşünas alim, professor Zöhrab Əliyev yazır: «Azərbaycan Milli biblioqrafiyasının inkişafında şəxsi biblioqrafik informasiya mənbələrinin yaradılması və nəşri ənənəsi geniş vüsət almışdır. Fərəhləndirici haldır ki, respublikamızda biblioqrafiya bir məşəl kimi elmin, texnikanın, mədəniyyətin, təsərrüfatın müxtəlif sahələrində çalışan mütəxəssislərin yolunu işıqlandırdığı kimi «nəhayət öz dibinə də işıq salmağa» *(bu məşhur ifadə xalq yazıçısı Süleyman Rəhimova məxsusdur – **K.A.**)* başlamışdır. Belə ki, biblioqrafik fəaliyyətin mühüm mərkəzlərindən biri olan kitabxanalarımızın tarixini və onun müxtəlif sahələrini tədqiq etməklə kitabxanaşünaslıq elminin zirvəsinə qalxmış professor A.A.Xələfov haqqında əsaslı biblioqrafik göstərici yaradılmış və çapdan buraxılmışdır. Kitabxanaşünas-biblioqrafiyaşünas alimlərimiz haqqında ilk belə mükəmməl bibliqrafik informasiya mənbəyinin hazırlanıb çapdan buraxılması olduqca fərəhli haldır».

Hörmətli alimimiz Z.Əliyevin fikirlərini təsdiqləyərək qeyd etməyi lazım bilirik ki, «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasından professor A.Xələfova həsr edilmiş birinci biblioqrafik əsər 1987-ci ildə çap olunmuşdur. Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin 40 illiyi münasibəti ilə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının nəşr etdiyi həmin biblioqrafiyanın tərtibçiləri Kıtabxanaşünaslıq kafedrasının dosentləri Rasim Kazımov və Elman Bədəlov, redaktoru Leyla Qafurovadır.

1957-1986-cı illəri əhatə edən həmin biblioqrafik göstəriciyə A.Xələfovun həyat və fəaliyyəti haqqında yığcam məlumatla yanaşı, alimin müvafiq dövr ərzində nəşr edilmiş monoqrafiyaları, elmi məqalələri, tədris-metodiki xarakterli materialları və s. daxil edilmişdir. Burada eyni zamanda onun tərcümə və redaktə etdiyi əsərlər, elmi rəhbəri və rəsmi opponenti olduğu doktorluq və namizədlik dissertasiyaları haqqında biblioqrafik məlumatlar da öz əksini tapmışdır.

Göstəricidə A.Xələfovun əsərləri və elmi-pedaqoji fəaliyyətinə həsr olunmuş ədəbiyyat xüsusi bölməyə ayrılmışdır.

«Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasından professor A.Xələfovla bağlı ikinci biblioqrafik göstərici 2001-ci ildə Bakı Universiteti Nəşriyyatında işıq üzü görmüş «Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı» adlanır. Görkəmli alimin anadan olmasının 70 illiyinə həsr olunmuş bu əsər M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının xətti ilə nəşr edilmişdir. Biblioqrafik məlumat kitabının tərtibçiləri Solmaz Sadıqova və Şəhla Tahirqızı, redaktoru Knyaz Aslan, rəyçisi Nadir İsmayılovdur.

Əvvəlki bibliioqrafik göstəricidən özünün informasiya zənginliyinə, kompleksliliyinə, dolğunluğuna və əhatəliliyinə görə fərqlənən bu əsəri mütəxəssislər görkəmli kitabxanaşünas alimin həyat və fəaliyyəti ilə bağlı çox geniş elmi araşdırmaların və biblioqrafik təhqiqatların uğurlu nəticəsi kimi qiymətləndirmişlər.

Dörd hissədən ibarət olan biblioqrafik məlumat kitabı görkəmli mədəniyyt xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun elmi-pedaqoji və ictimai fəaliyyətinin 1955-ci ildən 2001-ci ilin may ayınadək olan dövrünü əhatə edir.

Kitabın birinci hissəsində A.Xələfov haqqında görkəmli alimlərdən və universitet əməkdaşlarından bəzilərinin fikirləri verilmişdir. BDU-nun rektoru, Əməkdar elm xadimi, professor Abel Məhərrəmov, Azərbaycan MEA-nın akademiki, Respublika Ağsaqqallar şurasının sədri Budaq Budaqov, Azərbaycan MEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Vasif Babazadə, Azərbaycan MEA-nın müxbir üzvü, professor Fuad Qasımzadə, Azərbaycan Respublikasının Milli məsələlər üzrə dövlət müşaviri Hidayət Orucov, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov, Rusiya Federasiyasının Əməkdar elm xadimi, professor Konstantin Abramov və başqalarının burada dərc olunan seçilmiş fikirlərində Abuzər Xələfovun elmi, pedaqoji, ictimai fəaliyyəti və insani keyfiyyətləri çox yüksək qiymətləndirilir.



İkinci hissədə əvvəlcə Azərbaycan, sonra isə rus dillərində ayrı-ayrılıqda professor Abuzər Xələfovun həyat və fəaliyyətinin əsas tarixləri xronoloji ardıcıllıqla verilmişdir.

Üçüncü hissədə Abuzər Xələfovun elmi, pedaqoji və ictimai fəaliyyəti haqqında qısa oçerk dərc olunmuşdur. Azərbaycan və rus dillərində verilən bu oçerkin müəllifi Kitabxanaşünaslıq kafedrasının dosenti Rasim Kazımovdur. Bu ümumiləşdirilmiş və sistemləşdirilmiş məlumat görkəmli alimin keşməkeşli həyat yolu, elmi yaradıcılığının, pedaqoji və ictimai fəaliyyətinin əsas istiqamətləri barədə dolğun təsəvvür yarada bilir.

Biblioqrafik göstəricinin altı bölmədən ibarət olan dördüncü hissəsində isə professor A.Xələfovun əsərlərinin və başqa materiallarının təsviri verilmişdir. Belə ki, birinci bölmədə alimin 21 adda kitabının, ikincidə 114 adda, o cümlədən Azərbaycan dilində 94, rus dilində isə 20 adda elmi məqalələrinin, tezislərinin və müsahibələrinin, üçüncüdə 29 adda rəy verdiyi, təçrcümə və redaktə etdiyi əsərlərin, dördüncüdə 11 adda elmi rəhbəri olduğu dissertasiyaların, beşincidə opponenti olduğu 4 adda doktorluq, 17 adda namizədlik disaertasiyalarının, altıncıda 73 adda elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında ədəbiyyatın biblioqrafik təsviri öz əksini tapmışdır.

Biblioqrafik məlumat kitabına professor A.Xələfovun 1955-2001-ci illər arasında nəşr olunmuş 130 addan artıq dərsliyi, dərs vəsaiti, monoqrafiyası, metodik göstəriş və proqramları, elmi məqalələri, elmi-mktodik və digər materialları toplanmışdır. Kitabda həmçinin onun elmi rəhbəri və rəsmi opponenti olduğu namizədlik və doktorluq dissertasiyaları, habelə redaktə və tərcümə etdiyi işlər haqqında da materialların əhatə olunması göstəricinin tamlığına xidmət edir.

Ümumiyyətlə, biblioqrafik məlumat kitabında 269 mənbə müvafiq bölmədə xronoloji qaydada, o cümlədən daxildə əsər adlarının əlifba prinsipi əsasında verilmişdir.

Biblioqrafik təsvirlərin düzülüşündə xronoloji ardıcıllığın gözlənilməsi professor A.Xələfovun elmi yaradıcılığının nəşr tarixi və illər üzrə məhsuldarlığı haqqında aydın təsəvvür yaradır.

Kitabın sonunda alimin əsərlərinin əlifba göstəricisi, əsərlərinin dərc olunduğu dövri mətbuat və digər mənbələrin əlifba göstəricisi, A.Xələfov haqqında yazmış müəllimlərin adlar göstəricisikimi yardımçı göstəricilərin verilməsi biblioqrafik məlumat kitabından lazımi məlumatın asanlıqla alınmasına xidmət göstərir.

Qeyd etməliyik ki, biblioqrafik məlumat kitabı professor A.Xələfovun elmi-pedaqoji və ictimai fəaliyyəti ilə, həmçinin Azərbaycanda kitabxana işinin tarixi və kitabxanaşünaslıq elminin inkişafı ilə maraqlanan mütəxəssislər, habelə digər oxucular üçün mühüm mənbə rolunu oynayır.

***

Azərbaycan kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından biri, görkəmli kitabxana tarixçisi və nəzəriyyəçisi, tanınmış pedaqoq-alim Abuzər Alı oğlu Xələfovun anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 55 illik yubileyinin respublika miqyasında daha təntənəli şəkildə keçirilməsi münasibəti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Bakı Dövlət Universitetinin rektoluğu ayrı-ayrılıqda xüsusi əmr vermişlər. Həmin əmrlər əsasında yubileyi daha yaxşı keçirmək məqsədi ilə təşkilat komitələri yaradılmış, yubilyara həsr edilmiş kitabların nəşri nəzərdə tutulmuş, müxtəlif miqyaslı tədbirlərin təşkili ilə bağlı geniş plan hazırlanmışdır.



Həmin tədbirlər planının həyata keçirilməsi üçün hazırda həm respublika, həm universitet, həm də fakültə miqyaslarında çox qızğın və səmərəli işlər aparılır.

Onu da xüsusi vurğulamalıyıq ki, 75 yaşlı alimimiz, Əməkdar elm xadimi, professor Abuzər Xələfov Azərbaycan Respublikası Təhsil Nazirliyinin 9 noyabr 2006-cı il tarixli əmri ilə «Qabaqcıl təhsil işçisi» döş nişanı ilə təltif edilmişdir!

Bu mükafat bütövlükdə görkəmli kitabxanaşünas alimin zəngin elmi-pedaqoji və ictimai fəaliyyətinin ölkə miqyasında çox yüksək qiymətləndirilməsinə daha bir əyani sübutdur!..

***

Professor A.Xələfovun elmi-pedaqoji və ictimai fəaliyyətinin son beşillik dövrünü, daha dəqiq desək, 2001-ci ilin may ayından 2006-cı ilin sentyabr ayınadək olan müddəti əhatə edən sayca üçüncü biblioqrafik məlumat kitabı da artıq tərtib edilmişdir.

Həmin göstəricinin tərtibçi-müəllifi Kitabxanaçılıq-informasiya fakültəsinin humanitar və sosial məsələlər üzrə dekan müavini, Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi Solmaz Sadıqova, yubilyarın son dövrdəki yaradıcılığı ilə bağlı giriş məqaləsinin müəllifi Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi Rasim Kazımov, redaktoru isə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirovdur.

9 çap vərəqi həcmində olan bu biblioqrafik məlumat kitabında professor A.Xələfovun 12 adda kitabı və 240-dan çox mənbə müvafiq bölmələrdə öz əksini tapmışdır.

Müqayisə üçün belə bir maraqlı faktı qeyd etmək yerinə düşər ki, A.Xələfovun elmi-pedaqoji fəaliyyəti dövründə, yəni 55 il ərzində cəmi 26 adda kitabı və 330 çap vərəqi həcmində 180 dövri mətbuat əsəri çap edilmişdir.

Onlardan 14 kitab və 130 çap vərəqi həcmində 65 dövri mətbuat əsəri 1958-2001-ci illərin, 12 kitab və 200 çap vərəqi həcmində 115 dövri mətbuat əsəri isə 2001-2006-cı illərin payına düşür. Göründüyü kimi, ömrün müdriklik pilləsinə qədəm qoymuş ağsaqqal alimimiz yaşının bu çağında əvvəlki dövrlərdə olduğundan daha artıq sürətlə, daha böyük enerji ilə və daha yüksək yaradıcılıq axtarışları ilə çalışaraq, oxucuları yeni-yeni elmi əsərləri ilə sevindirir. Bu işdə ağsaçlı alimimizə daha böyük nailiyyətlər arzulayırıq!..

Bütövlükdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmri ilə hazırlanıb nəşr edilən bu mühüm biblioqrafik göstərici görkəmli kitabxanaşünas alimimiz A.Xələfovun 75 illik yubileyinə ən yaxşı töhfələrdən biri hesab oluna bilər.

***

Məşhur alimimizin yubileyinə həsr olunmuş daha üç nəşr isə Bakı Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Abel Məhərrəmovun əmri ilə çap olunmuşdur.

15 çap vərəqi həcmində olan həmin nəşrlərdən biri – «Elm və təhsil fədaisi» adlı monoqrafiya Abuzər müəllimin zəngin ömür salnaməsinə həsr olunmuşdur. Bir müəllif kimi mən bu əsərin işıq üzü görməsindən təbbi olaraq qürur duyuram. nmağı yenə də dəyərli oxucularımızdan rica edirəm. Çünki bu, təkcə adi və sadə bir vətəndaş-alim, yaxud alim-vətəndaş haqqında ötəri yazılmış kitab deyil, müəllim-pedaqoq, alim və ustad, ağsaqqal və müdrik insan qarşısında şagird sınağı, tələbə imtahanıdır!..

Növbəti kitabın – «Müdriklik və alimlik zirvəsi» məqalələr məcmuəsinin tərtibçi-müəlliflərindən biri, həmçinin redaktoru olduğum üçün də iftixar hissi keçirirəm.



Abuzər müəllimin və mənim yaxın dostumuz, yüksək səviyyəli intellektual ziyalımız, dəyərli ağsaqqal alimimiz dosent Rasim Kazımovla birgə tərtiblədiyimiz 8 çap vərəqi həcmində olan bu topluda Azərbaycanın bir çox tanınmış mütəxəssislərinin professor A.Xələfovun 75 yaşı şərəfinə yazdıqları fərəh dolu ürək sözləri əhatə edilmişdir.

Müxtəlif elm sahələrinin tanınmış simaları olan həmin müəlliflərin Abuzər müəllim haqqında söylədikləri könülaçan fikirlər bütövlükdə Azərbaycan kitabxanaşünaslığının, milli kitabxana işinin, o sırada çoxsaylı kitabxanaçılar ordusunun ünvanına deyilmiş ürək sözləri kimi böyük məna və əhəmiyyət kəsb edir.

***

Üçüncü nəşrin – Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, tarix elmləri doktoru, professor Xəlil İsmayılovun təsisçiliyi və baş redaktorluğu ilə çapa hazırlanan «Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının A.Xələfovun yubileyinə həsr olunan hazırkı xüsusi buraxılış da artıq sizə təqdim olunmuşdur, möhtərəm oxucular! Əminik ki, burada dərc edilən elmi-kütləvi və publisistik məqalələr də ustad alimimizin və ağsaqqal ziyalımızın zəngin taleyinin ayrı-ayrı məqamlarını yetərincə nurlandıracaq və yaddaşlara əbədi həkk olunacaqdır.

## XÜSUSİ NÖMRƏDƏKİLƏR


| | |
|---|---|
| Xəlil İSMAYILOV, Knyaz ASLAN | Görkəmli kitabxanaşünas alimin şərəfli ömür yolu |
| Solmaz SADIQOVA | 21 ildən sonrakı mühazirə |
| Sənubər MUSTAFAYEVA | Müasir kitabxanaçılar nəslinin müəllimi |
| Akif CƏFƏROV | Azərbaycan kitabxanalarının tarixi üzrə ilk elmlər doktoru |
| Sima İSMAYILOVA | Gecikmiş minnətdarlıq |
| Əliyusif MƏMMƏDOV | Həyatını elmə, tədrisə həsr etmiş insan |
| Əlizadə NƏCƏFOV | Peyğəmbər simalı insan |
| Şəfəq İSLAMOVA | Azərbaycan kitabxana elminin bayraqdarı |
| Səfurə CƏLAL QIZI | Müdriklik zirvəsinin fatehi |
| Zöhrə CAMALOVA | Qayğıkeş insan, səmimi rəhbər |
| Xuraman AĞAYEVA | Kimsəsizlər kimsəsi |
| Sevda QULİYEVA | Təvazökar və qayğıkeş şəxsiyyət |
| Zəminə İBADOVA | Ağsaqqal müəllimim haqqında ürək sözlərim |
| Leyla QAFUROVA | Tanınmş alim, pedaqoq və ictimai xadim |
| Füzurə QULİYEVA | Görkəmli alim haqqında bir neçə söz |
| Sara İBRAHİMOVA | Bacarıqlı elm və təhsil təşkilatçısı |
| Solmaz BABAŞOVA | Ömrün ilməsinə düzülmüş naxışlar |
| Seymur SEYDAYEV | Mənalı ömrün 75-ci baharı |
| Mətanət QASIMOVA | A. A. Xələfovun, görkəmli ziyalının şərəfli yaradıcılıq yolu |

Professor A.Xələfov haqqında görkəmli adamların fikirləri

Şeir çələngi.

| | |
|---|---|
| Zəlimxan YAQUB | Özün bir ayrıca kitabxanasan |
| Knyaz ASLAN | Ucalıq mərtəbəsi |
| Eldar İSMAYIL. | Durur |
| Murad Şəmsizadə | Yubileyin mübarək |
| Fikrət ŞİRİYEV | Var |
| Knyaz ASLAN | 70-lə 75 yaş arasında (Professor A.Xələfov haqqında yubiley nəşrləri) |

| | |
|---|---|
| **Nəşriyyatın direktoru:** | **İslam ŞİRİNOV** |
| **Baş redaktor:** | **Məmməd ƏLİZADƏ** |
| **Mətbəə üzrə direktor müavini:** | **Ələs QASIMOV** |
| **Kompüter tərtibçisi:** | **Nuriyə MUSTAFAYEVA** |

***Jurnal Azərbaycan Respublikası***
***Mətbuat və İnformasiya Nazirliyində***
***qeydə alınmışdır.***
***Şəhadətnamə № 575. 27 mart 1997.***

***Yığılmağa verilmişdir: 05.12.2006***
***Çapa imzalanmışdır: 20.12.2006***
***Kağız formatı 60x84 1/16***
***Fiziki ç.v. 9,5***
***Sayı 200***
***Qiyməti müqavilə ilə.***

*Ünvan: Az-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23.*
*Bakı Universiteti Nəşriyyatı.*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi*